RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 114 (9281) 1 İYUN 2023-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




**◆ Azərbaycan Prezidenti İlham Əliyevin Moldovaya səfəri**

## Böyükmiqyaslı beynəlxalq tədbirlərdə Azərbaycanın iştirakı ənənəyə çevrilib

### Prezident İlham Əliyev Avropa Siyasi Birliyinin Zirvə toplantısında iştirak edəcək



### Aeroportda qarşılanma

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Siyasi Birliyinin 2-ci Zirvə toplantısında iştirak etmək üçün mayın 31-də Moldova Respublikasına səfər edib.**

AZƏRTAC xəbər verir ki, Kişineu şəhəri Beynəlxalq Aeroportunda dövlətimizin başçısını rəsmi şəxslər qarşıladılar.

### Prezidentlərin görüşü



**Mayın 31-də Kişineuda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Moldova Respublikasının Prezidenti Maya Sandu ilə görüşü olub. AZƏRTAC xəbər verir ki, əvvəlcə birgə foto çəkdirildi.**

Prezident Maya Sandu dövlətimizin başçısını Müstəqillik Günü və Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illiyi münasibətilə təbrik etdi.

→ 4



# Azərbaycan enerji sahəsində nəhəng transformasiya prosesinin tərkib hissəsidir

### Prezident İlham Əliyev "Bakı Enerji Həftəsi" çərçivəsində 28-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin rəsmi açılış mərasimində iştirak edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də "Bakı-Ekspo" Mərkəzində "Bakı Enerji Həftəsi" çərçivəsində 28-ci Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil&Gas" və 11-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - "Caspian Power" sərgilərinin açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, tədbirin moderatoru, Böyük Britaniyanın "ICA Group" şirkətinin İdarə Heyətinin məsləhətçisi **Rassel TEYLOR** çıxış edərək dedi:

- Hörmətli zati-aliləri cənab Prezident Əliyev.

Xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Burada "Bakı Enerji Həftəsi"nin Təşkilat Komitəsi adından sizi salamlayıram. Bu il 320 fərqli şirkət 35 ölkəni təmsil edir və bu da toplam olaraq keçən ilin sərgisi ilə müqayisədə 25-30 faiz artım deməkdir. Budəfəki "Bakı Enerji Həftəsi" eyni zamanda önəmli bir hadisə ilə - Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin yubileyi ilə üst-üstə düşür. Prezident Əliyev 2023-cü ili "Heydər Əliyev İli" elan edib və buna görə də bütün sərgilərdə, əlbəttə ki, bu mövzuya ayrıca xüsusi bir diqqət yetiriləcəkdir. Sərgi çərçivəsində Ulu Öndərin 100 illik yubileyinə həsr olunmuş stendimiz də vardır.

Əlbəttə ki, biz böyük məmnuniyyətlə Azərbaycan Respublikasının Energetika Nazirliyinə təşəkkürümüzü, həmçinin SOCAR-a - Azərbaycan Dövlət Neft Şirkətinə də minnətdarlığımızı bildiririk. "Bakı Enerji Həftəsi"nə dəstəyinizə görə minnətdaram.

Hörmətli zati-aliləri, biz eyni zamanda bu tədbiri dəstəklədiyinizə görə Sizə ayrıca minnətdarıq. Ənənəvi olaraq açılış mərasimində iştirakınız bu önəmi bir daha vurğulayır və bütövlükdə enerji sahəsinə olan bir töhfədir.

Xanımlar və cənablar, mən sizin hər birinizə uğurlar və bu həftə ərzində məhsuldar görüşlər arzulayıram, təşəkkür edirəm. İndi isə sözü zati-aliləri cənab Prezidentə verirəm. Buyurun, cənab Prezident.

❖ ❖ ❖

Dövlətimizin başçısı açılış mərasimində çıxış etdi.

→ 2-3

## Azərbaycan və Amerika Birləşmiş Ştatları arasında möhkəm tərəfdaşlıq var



### Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Bakıda Beynəlxalq Xəzər Neft-Qaz Sərgisinin keçirildiyi bir vaxtda Sizə və Azərbaycan xalqına ən xoş arzularımı çatdırıram. 30 ildən artıq bir dövrdə Azərbaycan və Amerika Birləşmiş Ştatları transmilli təhlükələrlə mübarizədən inklüziv iqtisadi inkişafa qədər möhkəm tərəfdaşlıq yaradıb.

Bu tədbir ölkələrimizin təhlükəsiz və təmiz enerji ilə bağlı gələcəyə birgə sadiqliyini vurğulayır. Azərbaycan bu səylərin həyata keçirilməsində vacib rol oynayır. Azərbaycan təhlükəsiz enerji təchizatına olan tələbatın ödənilməsinə yardım etməkdədir - buraya "Cənub qaz dəhlizi" daxil olmaqla, Orta dəhlizin inkişafı və enerji çevikliyini gücləndirən enerjinin şaxələndirilməsinin artırılması daxildir. Qlobal iqlim məqsədlərinə nail olmaq üçün Azərbaycanın səyləri, o cümlədən bərpaolunan enerjinin inkişafının artırılmasına və enerji səmərəliliyinin gücləndirilməsinə dair təşəbbüslər məni sevindirir.

Bu tədbirlərin, habelə qanunun aliliyinin təşviqinin və Azərbaycan xalqı üçün imkanların artırılmasına yönəlmiş islahatların həyata keçirildiyi dönəmdə ABŞ yanınızda olacaqdır. Bununla yanaşı, biz gələcək nəsillər üçün Cənubi Qafqazda sülhün və rifahın təşviqinə kömək göstərəcək ədalətli və dayanıqlı sülhü dəstəkləməyə davam edəcəyik.

Gələn illər ərzində davamlı əməkdaşlığımızı səmimiyyətlə arzulayıram.

*Hörmətlə,*

***Cozef R.BAYDEN,***
***Amerika Birləşmiş Ştatlarının Prezidenti***

## Azərbaycan qlobal enerji müstəvisində vacib rola malikdir

### Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli Prezident Əliyev.

Sizə, "Bakı Enerji Həftəsi" ilə bağlı ən xoş arzularımı çatdırıram. İqlim dəyişikliyi ilə mübarizə və enerji təhlükəsizliyinin gücləndirilməsi kimi iki aktual çağırışın olduğu vaxtda "Bakı Enerji Həftəsi"nin dövlət və özəl sektoru təmsil edən beynəlxalq düşüncə liderlərini bir araya gətirməsi heç vaxt olmadığı qədər önəmlidir.

Etibarlı enerji tərəfdaşı olan Azərbaycan qlobal enerji müstəvisində vacib rola malikdir. Azərbaycanın 2027-ci ilədək Avropaya nəql ediləcək təbii qazın həcminin 20 milyard kubmetrə qədər artırılması məsələsinə sadiqliyi artıq Avropanın enerji təhlükəsizliyinə töhfə verməkdədir. Təchizatın şaxələndirilməsi enerjinin Rusiya tərəfindən geosiyasi silah kimi istifadəsinə son qoyulması baxımından əhəmiyyətlidir.

Mən həmçinin Azərbaycanın nəhəng bərpaolunan enerji potensialının inkişaf etdirilməsi və "yaşıl enerji"nin ixracatçısına çevrilməsi istiqamətindəki səylərinizi alqışlayıram. Bu məqsədlərə nail olmaq üçün enerjinin ötürülməsi sahəsində avropalı tərəfdaşlarla əməkdaşlıq əhəmiyyətli olacaqdır. Azərbaycandan Avropaya bərpaolunan elektrik enerjisinin nəqlini hədəfləyən "Cənub qaz dəhlizi"nin "Yaşıl Enerji" və Qara dəniz sualtı kabel layihəsi üzrə ilk Məşvərət Şurasının yaradılması xüsusilə ümidvericidir.

Ötən iki il ərzində Birləşmiş Krallıq imkanların artırılması və maariflənmə proqramları vasitəsilə Azərbaycanın enerji keçidini dəstəkləmişdir. Bu təşəbbüslər Azərbaycanın daha dayanıqlı enerji gələcəyinin təmin edilməsi ilə yanaşı, iqlim dəyişikliyinin təsirinə qarşı çevikliyini gücləndirəcəkdir. Biz belə təşəbbüslərin bəzilərinin vacib elementlərini özündə əks etdirən yeni nəşri "Bakı Enerji Həftəsi" çərçivəsində təqdim edəcəyik. Nəşrdə enerji keçidi ilə bağlı müəyyən çağırışların öhdəsindən gəlmək üçün Britaniya şirkətlərinin Azərbaycana hansı köməyi göstərə biləcəyi işıqlandırılacaqdır.

Bu fürsətdən istifadə edərək təmiz enerjiyə keçid və iqlim dəyişikliyi ilə mübarizə sahəsində kollektiv səylərimizin sürətləndirilməsi məqsədilə Birləşmiş Krallığın enerji sektorunda Azərbaycan və beynəlxalq tərəfdaşlarla birgə işləməyə sadiqliyini bir daha vurğulayıram.

"Bakı Enerji Həftəsi"nin kifayət qədər uğurlu olacağına ümidvaram.

*Hörmətlə,*

***Rişi SUNAK,***
***Böyük Britaniyanın Baş naziri***

# Azərbaycanda enerji üzrə dialoq platformasının və sərgi fəaliyyətinin formalaşması Heydər Əliyevin müstəsna rolu ilə bağlıdır

### "Bakı Enerji Həftəsi"nin iştirakçılarına

Hörmətli sərgi və forum iştirakçıları!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Sizi Xəzər regionunun bir sıra nüfuzlu enerji tədbirlərini özündə birləşdirən "Bakı Enerji Həftəsi"nin işə başlaması münasibətilə salamlayır və bu çərçivədə gələcək fəaliyyətinizdə uğurlar arzu edirəm.

Əminəm ki, "Bakı Enerji Həftəsi" enerji təhlükəsizliyi və enerji mənbələrinin şaxələndirilməsi üzrə qlobal əməkdaşlığa dair dialoqu daha da gücləndirəcəkdir.

"Bakı Enerji Həftəsi"ndə 28-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi, 11-ci Xəzər Beynəlxalq Energetika və "Yaşıl Enerji" Sərgisi və 28-ci Bakı Enerji Forumu kimi mötəbər tədbirlər nəzərdə tutulur. Ənənəvi olaraq hər il keçirilən bu tədbir qlobal enerji təhlükəsizliyinin təmini, alternativ və bərpaolunan enerji potensialı, o cümlədən "yaşıl enerji" layihələrinin təşviqi sahəsində əməkdaşlığın genişləndirilməsi, habelə enerji mənbələrinin şaxələndirilməsi istiqamətində müzakirələr üçün bir fürsətdir.

Builki "Bakı Enerji Həftəsi" Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinin qeyd edildiyi dövrə təsadüf edir. Bu, əlamətdar bir hadisədir. Azərbaycanda enerji üzrə dialoq platformasının və sərgi fəaliyyətinin formalaşması Heydər Əliyevin müstəsna rolu ilə bağlıdır. "Xəzər Neft və Qaz" Sərgisinin bünövrəsinin qoyulması və Ümummilli Liderin rəhbərliyi ilə işlənib hazırlanan neft strategiyasının elan olunması eyni vaxta - 1994-cü ilə təsadüf etmişdir. Məhz həmin il imzalanmış "Əsrin müqaviləsi"ndən sonra enerji təhlükəsizliyinin etibarlı təminatçısına çevrilən Azərbaycan neft-qaz sahəsində bütün xarici tərəfdaşlarla əməkdaşlıqda və enerji resurslarının ixracında uğurlu nümunə yaratmışdır. Hazırda Azərbaycan "yaşıl enerji" ixracına dair layihələr həyata keçirməklə özünün neft-qaz tarixindəki uğurunu təkrarlayır.

Son illərdə enerji istehsalı texnologiyalarının davamlı inkişafı, eləcə də qlobal iqlim hədəfləri dünyanın aparıcı ölkələrində enerji siyasətinin əsas istiqamətlərindən olan "yaşıl enerji"yə keçidi sürətləndirməkdədir. Ölkəmiz malik olduğu zəngin təbii ehtiyatlardan istifadə etməklə alternativ və bərpaolunan enerji istehsalının artırılmasına, dekarbonizasiya və enerji mənbələrinin şaxələndirilməsi kimi qlobal gündəliyə mühüm töhfələr verir. Ortamüddətli perspektivdə Azərbaycan alternativ mənbələrdən əldə olunan elektrik enerjisinin və "yaşıl enerji"nin - hidrogenin ixracatçısına çevrilməyi hədəfləyir.

"Yaşıl enerji"nin inkişafına yönəlmiş layihələrin ölkədə artıq işə salınması "Cənub qaz dəhlizi" kimi iri layihənin analoqu hesab olunan "yaşıl enerji dəhlizi" yaratmaq üçün mühüm fürsətdir. Xüsusilə işğaldan azad edilmiş ərazilərdə irimiqyaslı layihələrin həyata keçirilməsi, o cümlədən Qarabağda və Şərqi Zəngəzurda "yaşıl enerji" zonasının yaradılması ölkəni alternativ enerji istehsalçısı və ixracatçısına çevirəcəkdir.

Enerji keçidində "Cənub qaz dəhlizi" layihəsinin strateji önəminin daha da artmasını nəzərə alaraq TANAP və TAP layihələrinin genişləndirilməsi Azərbaycan üçün artıq aktual mövzuya çevrilmişdir. "Cənub qaz dəhlizi"nin 2027-ci ilədək genişləndirilməsi və enerji resurslarının nəqli ilə bağlı digər perspektivlər şaxələndirilmiş enerji təchizatında və tərəfdaşlarımızın enerji təhlükəsizliyində ölkəmizin strateji rolunun daha da güclənməsinə xidmət edəcəkdir.

Hörmətli tədbir iştirakçıları!

Azərbaycan belə qlobal əhəmiyyətli tədbirə uzun müddətdir evsahibliyi edir. İnanıram ki, özünün çoxillik təcrübəsi sayəsində sərgi və forum dolğun məruzələrlə, müzakirə və fikir mübadilələri ilə qarşılıqlı anlaşma mühitində geniş iqtisadi əlaqələrimiz üçün yeni üfüqlər açacaq və səmərəli əməkdaşlığa töhfələr verəcəkdir.

"Bakı Enerji Həftəsi"nin uğurlarının davamlı olmasını diləyir və fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzu edirəm!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2023-cü il*

# Azərbaycan enerji sahəsində nəhəng

## Prezident İlham Əliyev "Bakı Enerji Həftəsi" çərçivəsində 28-ci Beynəlxalq




## Prezident İlham Əliyevin çıxışı

- Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar.

"Bakı Enerji Həftəsi"nə xoş gəlmisiniz. Əvvəlcə bu mühüm tədbirin təşkilatçılarına öz təşəkkürümü bildirirəm. Artıq qeyd edildiyi kimi, 30 ildir - 1994-cü ildən etibarən Xəzər Neft-Qaz Sərgisi Azərbaycana öz potensialını beynəlxalq investorlara təqdim etməyə imkan yaradır. Biz 1994-cü ildə neft strategiyamızın - Ulu Öndər Heydər Əliyevin neft strategiyasının astanasındaydıq. Bu il biz müasir Azərbaycanın yaradıcısı, Ulu Öndərin 100 yaşını qeyd edirik. 1994-cü ildə ilk neft-qaz sərgisi keçirildi və həmin il məhz "Əsrin müqaviləsi" imzalandı ki, bu da ölkəmizdə vəziyyəti kökündən dəyişdi, sərmayələr cəlb edildi, geniş iqtisadi sabitlik təmin olundu və əlbəttə ki, Azərbaycanın firavan gələcəyinin təməli qoyuldu.

1994-cü ildə Birinci Qarabağ müharibəsi başa çatdı, atəşkəs imzalandı və ondan bir neçə ay sonra "Əsrin müqaviləsi" imzalandı. Yəni o zaman Azərbaycan olduqca riskli bir məkan sayılırdı, müstəqilliyini yeni əldə etmişdi, müstəqilliyimizin 3 yaşı var idi və əlbəttə ki, bir çox insan Azərbaycan haqqında məlumata malik deyildi, ölkəmizin harada yerləşdiyini bilmirdi və ölkəmiz keçid dövründə idi, sovet sistemindən bazar iqtisadiyyatına keçid dövrünü yaşayırdı. Bununla yanaşı, ərazilərimizin işğalı, bir milyondan artıq qaçqın-köçkün, vətəndaş qarşıdurması - bütün bunlar, əlbəttə ki, sərmayəçiləri bir növ qorxudurdu. Ona görə də bir çox səylər tələb edildi ki, biz tərəfdaşlarımızı buraya dəvət edə bilək. Məsələn, bizim BP kimi 30 illik tərəfdaşımızı və ilk konsorsiumun ovaxtkı üzvlərini də buraya dəvət etmək üçün olduqca böyük səylər lazım oldu. Bizim neft kəmərlərimiz yox idi, infrastrukturumuz yox idi, hətta ölkədə mülki infrastruktur da geridə qalmışdı. Ona görə də 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması yeganə addım idi ki, Azərbaycana dayanıqlı inkişaf, iqtisadi müstəqillik və bunun nəticəsində də siyasi müstəqillik gətirdi.

Xəzər Neft-Qaz Sərgisi 1994-cü ildə təşkil ediləndə ilk tədbir idi ki, Azərbaycanı dünyanın beynəlxalq enerji ictimaiyyətinə təqdim etdi. Biz təşkilatçılara davamlı dəstəyə görə təşəkkür edirik eyni zamanda onu da vurğulamaq istəyirəm və hesab edirəm ki, "Bakı Enerji Həftəsi" enerji sahəsində aparıcı beynəlxalq tədbirdir. Mənim sözümün təsdiqi o ola bilər ki, kimlər bu tədbirə öz məktublarını ünvanlayırlar - ABŞ Prezidenti Co Bayden və Böyük Britaniyanın Baş naziri Sunak. Bu onun göstəricisidir ki, bizim bu tədbir qlobal əhəmiyyətə malikdir. Bu fürsətdən istifadə edərək mən ABŞ Prezidentinə, Böyük Britaniyanın Baş nazirinə və onların buradakı nümayəndələrinə təşəkkürümü bildirmək istəyirəm ki, bizə xoş sözlər göndəriblər və onların sözləri bizi ruhlandırır.

Biz 30 il ərzində enerji sahəsində uğurlu əməkdaşlıq edirik. Bu gün isə artıq bu sahələr şaxələndirilir, ABŞ və Böyük Britaniya hökumətləri hər zaman bizim bütün təşəbbüslərimizi dəstəkləyiblər ki, Azərbaycan öz resurslarını inkişaf etdirə bilsin. Əvvəlcə bu, neftə aid idi, indi isə qaz sahəsi burada söhbət mövzusudur. Biz nəhəng enerji infrastrukturu yaratmışıq ki, bu da Avrasiyanın enerji xəritəsini dəyişdirib. Bu gün Azərbaycan istehsalçı olaraq həm tranzit ölkələr, həm də istehlakçılar üçün daha təhlükəsiz şərait yaradıb. Bu gün enerji təhlükəsizliyi, əlbəttə ki, milli təhlükəsizliyə bərabərdir və hətta milli təhlükəsizlik gündəliyində ən başlıca yeri tutur.

Bununla yanaşı, mən Avropa İttifaqının burada nümayəndəsini görməyə şadam. Bildiyiniz kimi, Avropa İttifaqı ilə Azərbaycan ötən ilin iyulunda enerji sahəsində strateji tərəfdaşlığa dair anlaşma memorandumu imzalayıb. Bu, uğurla icra edilir. Biz artıq enerji dialoqumuzu başlamışıq, uğurla davam edir. Biz Avropa İttifaqı ilə bərabər, "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının üzvləriyik, o, hər il fevral ayında Bakı şəhərində baş tutur. O da çox böyük əhəmiyyətə malikdir ki, bizim bütün səylərimiz əlaqələndirilir. "Cənub qaz dəhlizi" artıq istifadəyə veriləndən sonra belə bu gün bizim yeni vəzifələrimiz var. Ona görə də Avropa İttifaqı ilə Azərbaycanın əməkdaşlığının müsbət məqamları olduqca çoxdur və gələcək potensial da olduqca genişdir.

Biz özümüzü enerji sahəsində nəhəng transformasiya prosesinin tərkib hissəsi hesab edirik. Azərbaycan çalışır ki, bu məsələdə geridə qalmasın, əslində, lider, aparıcı ölkə olsun. Burada söhbət yenilənən, bərpaolunan enerjidən gedir. Mən çox şadam ki, yenilənən enerji ilə bağlı şirkətlər bu gün burada olduqca böyük çoxluq təşkil edirlər. Əminəm ki, illər keçdikcə bu şirkətlərin sayı artacaq. Yəni biz tərəfdaşlarımızla birlikdə neft kəmərləri inşa etdik, neft yataqlarına sərmayə qoyduq, daha sonra qaz infrastrukturu inşa etdik. "Cənub qaz dəhlizi" bizim birgə tarixi nailiyyətimizdir, 3500 kilometrdən artıq neft kəmərlərindən ibarət bir sistemdir və enerji təhlükəsizliyi və enerji şaxələndirilməsində müstəsna rol oynayır.

Mən hər il Xəzər Neft-Qaz Sərgisində çıxış edəndə deyirdim ki, enerji təhlükəsizliyi təkcə marşrutların şaxələndirilməsi deyil, bu, mənbələrin şaxələndirilməsidir. Bu gün hamı bunu artıq aydın görür ki, bizim halda bu, hər iki məsələdir - həm marşrutlar şaxələndirilir, həm də mənbələr şaxələndirilir. Bizim bu işə çox sadiq olan bir heyətimiz var - beynəlxalq maliyyə institutları, biz hər birimiz vahid komanda kimi çalışırıq ki, enerji təhlükəsizliyini gücləndirək, bir-birimizə müəyyən çətinliklərin öhdəsindən gəlmək üçün dəstək olaq. Onlar situativ çətinliklər və ya strateji çətinliklər ola bilər. Biz bu işdə bir yerdəyik. Mən çox fəxr edirəm ki, Avropa İttifaqının liderləri Azərbaycanı etibarlı tərəfdaş və ümumavropa qaz təchizatçısı adlandırırlar. Bu, çox vacib bir məsələdir.

Sonuncu "Bakı Enerji Həftəsi"ndən bu günə qədər keçirilən tədbirlərə nəzər salsaq görərik ki, bu gün daha çox Avropa ölkəsi Azərbaycanla əməkdaşlıq edir. Mən sonuncu sərgidən bu yana bir neçə mühüm nailiyyəti qeyd edə bilərəm. İyulda biz Avropa İttifaqı ilə enerji sahəsində strateji tərəfdaşlığa dair anlaşma memorandumunu imzaladıq. Bizim planımız ondan ibarətdir ki, 2027-ci ilə qədər Avropa bazarına qaz təchizatımızı iki dəfə artıraq. Bu, olduqca real rəqəmdir. Bizim qaz təchizatımızın dinamikasına nəzər salsaq görərik ki, ötən il 8 milyard kubmetr idi, bu il 12 milyard kubmetr nəql edəcəyik. Bu, bizim ümumi ixracımızın yarısıdır və 2027-ci il üçün biz bu rəqəmi 20 milyarda çatdıracağıq. Bunun üçün mənbələr artıq var, onlardan biri bizim nəhəng "Şahdəniz" yatağımızdır, digər yataq "Abşeron"dur. Ümid edirəm ki, olduqca qısa bir zamanda "Abşeron"dan çox yaxşı xəbərlər alacağıq. Oradan çox qısa bir zamanda ilk qaz alacağımıza dair xəbər gözləyirik.

Biz strateji tərəfdaşımız olan BP şirkəti ilə dərin qatlardan qaz hasilatı üzrə layihələr həyata keçiririk. Bütün işlər plana uyğun getsə, gələn ilin sonuna qədər biz böyük dərinlikdən ilk qaz alacağıq. Digər layihələrimiz var ki, biz bazara əlavə qaz həcmi çıxara biləcəyik. Eyni zamanda enerji səmərəliliyi və bərpaolunan enerji məsələsi, - bizim Avropa İttifaqı ilə bu barədə də dialoqumuz olub. Bunun nəticəsində biz elektrik enerjisinin istehsalı üçün qaza qənaət edəcəyik və həmin qazı artıq beynəlxalq bazarlara çıxaracağıq.

Digər vacib tədbirlərdən biri Yunanıstan-Bolqarıstan interkonnektorunun açılışı idi. Mən həmin tədbirdə iştirak etdim. Bunun nəticəsində artıq Azərbaycan Bolqarıstana da qaz nəql edəcək. Biz Bolqarıstan vasitəsilə digər ölkələrə də qazın nəqli imkanlarını nəzərdən keçiririk və tezliklə qonşu ölkələrə də bizim qazımız nəql ediləcək. Rumıniya artıq bu əməkdaşlıq formatının üzvüdür. Hər şey plana uyğun getsə və bütün interkonnektorlar vaxtında inşa edilsə, - yəni bu ilin sonuna qədər, - bizim qazımız Macarıstana və Serbiyaya nəql ediləcək. Bununla da bizim qaz ixracımızın coğrafiyası genişlənəcəkdir.

Ötən ilin dekabr ayında Buxarest şəhərində "yaşıl enerji"yə dair digər bir mühüm tədbir keçirildi. Azərbaycan, Gürcüstan, Macarıstan, Rumıniya bir araya gəldilər və Avropa Komissiyasının prezidenti də həmin tədbirdə iştirak etdi. Orada "yaşıl enerji"yə və transmissiyaya dair müvafiq sənəd imzalandı. Əminəm ki, bu, qlobal əhəmiyyətə malik bir layihə olacaqdır. Bu layihə daha çox ölkələr və şirkətlər cəlb edəcəkdir. Biz artıq təşkilat komitəsinin ilk iclasını keçirdik və razılıq əldə olundu. Belə ki, layihə çərçivəsində Xəzər dənizinin Azərbaycan sektorundan əldə olunacaq külək enerjisini ötürücü xətlər və Qara dənizin dibi ilə çəkiləcək sualtı kabel vasitəsilə Avropa bazarlarına nəqli nəzərdə tutulur.

Biz indi elə bir mərhələdəyik ki, layihənin texniki-iqtisadi əsaslandırılması həyata keçirilir. Hesab edirik ki, bu layihə çərçivəsində ən azı 4 qiqavat "yaşıl enerji"ni Avropaya nəql edə biləcəyik ki, bu da bizim əlavə töhfəmiz olacaq.

Digər mühüm tədbirlərdən biri bu ilin aprel ayında Sofiya şəhərində keçirilib, Bolqarıstan Prezidentinin təşəbbüsü ilə. Bu, "Həmrəylik Halqası" adlandırılan layihədir. Bu layihəyə Azərbaycan, Bolqarıstan, Macarıstan, Rumıniya və Slovakiya daxildir. Bu da elə bir layihədir ki, orada əlavə interkonnektorlar inşa ediləcək. Yəni Avropa İttifaqının yüksəkrütbəli məmurları Azərbaycanı ümumavropa qaz təchizatçısı adlandırırsa, bu tamamilə doğrudur.

Bizim təchizatın coğrafiyası əminəm ki, genişlənməkdə davam edəcək. Çünki Azərbaycan qazına ehtiyac artmaqdadır. Son ilyarım ərzində bizə 10-dan artıq ölkə müraciət edib ki, təchizatın həcmini artıraq və ya həmin ölkələrə təchizata başlayaq. Əlbəttə, biz bütün dostlarımızın ehtiyaclarını ödəməyə çalışırıq. Sərmayələri də əlaqələndirməliyik ki, bazar imkanları nəzərə alınsın. Onu da vurğulayım ki, bu işdə beynəlxalq maliyyə institutlarının dəstəyinə ehtiyacımız var. Bilirik ki, bu gün "yaşıl enerji"yə gəldikdə, bəzi beynəlxalq maliyyə institutları neft-qaz sahəsini maliyyələşdirməyi dayandırıblar. Amma mən hesab edirəm ki, biz bir balaca realist olmalıyıq. Çünki qaz və neft təchizatı olmadan enerji təhlükəsizliyi tam olaraq təmin edilə bilməz.

Bərpaolunan enerji haqqında danışarkən deyim ki, Azərbaycanın nəhəng potensialı var. Onun artıq ilkin hesablaması aparılıb, 157 qiqavat həcm yalnız Xəzər dənizində var. Quruda isə bizim potensialımız çox böyükdür. Beynəlxalq investorlarla imzalanmış iki müqavilə növbəti bir il, ya da ilyarım ərzində 500 meqavata yaxın "yaşıl enerji" əldə etməyə imkan verəcək.

Ümumilikdə saziş və memorandumları nəzərə alsaq biz artıq 25 qiqavatlıq sazişlər imzalamışıq. Əlbəttə, anlaşma memorandumu imzalamaq o demək deyil ki, dərhal reallaşacaq və müqavilə olacaq. Ancaq biz elə şirkətlərlə anlaşma memorandumları imzalamışıq ki, onlar bərpaolunan enerji sahəsində qlobal liderlərdir. Ona görə də bunların real müqaviləyə çevrilməsi ehtimalı olduqca yüksəkdir. Ancaq imzalanan memorandumların yarısı belə reallaşsa, bu olduqca böyük rəqəm olacaqdır və Azərbaycanın özünün daxili istehlakından iki dəfə artıq olacaqdır. Yəni, dediyim kimi, biz bu gün enerji istehsalı üçün istifadə etdiyimiz böyük qaz həcminə qənaət edəcəyik və onu da beynəlxalq bazara çıxaracağıq.

Əlbəttə, görüləcək işlər çoxdur, TANAP genişlənməlidir, TAP genişlənməlidir. Bizim digər Avropa boru kəmərlərinə də çıxışımız olmalıdır və Balkanlarda belə bir çıxışımız olmalıdır. Avropada interkonnektorların sayı mütləq artırılmalıdır. Bütün bu məsələlər əlaqələndirilmiş şəkildə həyata keçirilməlidir. Çünki biz burada böyük sərmayə qoymalıyıq. Ona görə biz əmin olmalıyıq ki, hasil etdiyimiz əlavə qazın, planlaşdırmadığımız həcmlərin, - biz ancaq artan tələbatı nəzərə alaraq bunu hasil edirik, - real alıcısı olacaqdır. Ona görə də biz bu komanda işini davam etdirməliyik. Dediyim kimi, "Cənub qaz dəhlizi" layihəsi artıq başa çatsa da, Məşvərət Şurasının işi hər il fevral ayında Bakıda davam edir. Növbəti toplantı üzümüzə gələn fevral ayında Bakıda keçiriləcəkdir. Çünki artıq yeni iştirakçılarımız var, yeni ideyalarımız var, planlarımız var. Biz bunları reallaşdırdıqca bütün işlərimiz uğurla gedəcəkdir. Diqqətinizə görə təşəkkür edirəm.

# transformasiya prosesinin tərkib hissəsidir

## Xəzər Neft və Qaz Sərgisinin rəsmi açılış mərasimində iştirak edib














Sonra ABŞ Dövlət katibinin enerji ehtiyatları üzrə köməkçisi **Cefri PYATT** çıxış edərək dedi:

- Sabahınız xeyir.

Zati-aliləri, cənab Prezident Əliyev.

Xanımlar və cənablar.

Mən böyük məmnuniyyətlə "Bakı Enerji Həftəsi"ndə iştirak edirəm. Otuz ildən artıqdır ki, ABŞ və Azərbaycan Respublikası uğurla əməkdaşlıq edirlər. ABŞ Cənubi Qafqaz regionunda sabitlik, firavanlıq və müstəqilliyin tərəfdarıdır. Biz Azərbaycanın Ukraynanın ərazi bütövlüyünə və müstəqilliyinə göstərdiyi güclü dəstəyə görə təşəkkür edirik.

Azərbaycan davamlı surətdə enerji təhlükəsizliyinin gücləndirilməsində etibarlı tərəfdaş olub. ABŞ bundan sonra da əməkdaşlığı davam etdirəcək və əmindir ki, etibarlı enerji mənbələri Azərbaycan tərəfindən təmin olunacaq. Əlbəttə ki, mühüm iqlim hədəflərimizlə bağlı da əməkdaşlıq edəcəyik. İndi isə Prezident Baydenin məktubunu səsləndirirəm.

❖ ❖ ❖

Cefri Pyatt ABŞ Prezidenti Cozef Baydenin Prezident İlham Əliyevə məktubunu oxudu.

ABŞ Dövlət katibinin köməkçisi Cefri Pyatt dedi: Bir daha, cənab Prezident, hörmətli qonaqlar, bu tədbirə uğurlar arzulayıram.

❖ ❖ ❖

Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi **Baronessa Emma NİKOLSON** çıxış edərək dedi:

- Cənab Prezident, böyük məmnuniyyətlə bizim Baş nazirimizin məktubunu Sizə və qonaqların diqqətinə təqdim etmək istəyirəm.

❖ ❖ ❖

Baronessa Emma Nikolson Böyük Britaniyanın Baş naziri Rişi Sunakın Prezident İlham Əliyevə məktubunu oxudu.

❖ ❖ ❖

Baronessa Emma Nikolson dedi: Mən də Baş nazirimizə məlumat verəcəyəm ki, bu sərgi çox uğurlu bir tədbirdir. Mən təəssüf edirəm ki, bizim Baş nazir ötən həftə Londonda Ulu Öndərin 100 illiyinə həsr edilmiş tədbirə qatıla bilməyib. Çox gözəl bir tədbir olub. Ulu Öndərin xatirəsi daim yad olunacaq, cənab Prezident.

❖ ❖ ❖

Avropa Komissiyasının enerji siyasəti strategiyası və koordinasiya üzrə direktoru xanım **Kristina Lobillo BORRERO** çıxış edərək dedi:

- Hörmətli zati-aliləri cənab Prezident Əliyev.

Nazirlər, səfirlər.

"Bakı Enerji Həftəsi"nin iştirakçıları, hamınızı salamlayıram.

Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simsonun adından və şəxsən öz adımdan bizim üçün çox mühüm hadisə olan "Bakı Enerji Həftəsi"nə yenidən dəvətə görə Sizə təşəkkür etmək istərdim.

Xanım Ursula Fon der Lyayen Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında enerji sahəsində strateji tərəfdaşlıq müqaviləsini imzalamaq üçün ötən ilin iyul ayında Bakıda səfərdə olub. Komissar Simson isə fevral ayında səfər etmişdi, "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası və "Yaşıl Enerji" Məşvərət Şurasının ("Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclaslarında) iclasında iştirak etmişdi. Nazir Pərviz Şahbazov isə yüksəksəviyyəli enerji dialoqumuz üçün bu ayın əvvəlində Brüsseldə səfərdə olmuşdur.

Qazın Azərbaycandan Avropaya 2020-ci ildə "Cənub qaz dəhlizi" vasitəsilə nəql olunmasına başlanıb və Azərbaycan artıq etibarlı enerji tərəfdaşına çevrilib. Keçən ilin əvvəlində Rusiyanın Ukraynaya genişmiqyaslı müdaxiləsi, əlbəttə ki, enerji bazarımızın əsaslarını dəyişmiş və Avropanın enerji sistemində böyük dəyişikliklərə səbəb olmuşdur. Keçən il biz enerji böhranının aradan qaldırılması üçün bir sıra tədbirlər gördük. Biz bunların sırasına qaz anbarlarımızın məcburi doldurulmasını, qaz istehlakının könüllü olaraq azaldılmasını da daxil etdik və ilk dəfə olaraq qazın birgə alınmasına keçdik. Biz həmçinin 70 milyard kubmetrdən çox Rusiya qazını əvəz edərək qaz tədarükçülərimizi şaxələndirmişik.

Yaşadığımız çətin dövrlərdə Azərbaycan keçən il Avropa İttifaqı bazarına qaz tədarükünü 40 faiz artırdı. Bu, enerji böhranından yan ötmək və Rusiya yanacaqlarından imtina etmək üçün önəmli tədbir idi. Həmçinin qaz ticarətimizin ikiqat artırılması baxımından "Cənub qaz dəhlizi"nin genişləndirilməsini alqışlayırıq. Biz bu qazın son istifadəçilərinə çata bilməsi üçün Avropa İttifaqının daxilində infrastrukturumuzu inkişaf etdiririk. Amma bizim ikitərəfli işimiz təkcə böhranın idarə edilməsindən ibarət deyil. Söhbət eyni zamanda Cənubi Qafqaz və Avropa İttifaqı arasında "Yaşıl enerji dəhlizi" layihəsindən başlayaraq gələcək iqtisadiyyatlarımıza doğru yol cızmaqdan gedir. Bu flaqman layihələri olaraq təqdim edilib. Eyni zamanda Şərq Tərəfdaşlığı məkanında önəmli layihəyə çevrilir, həmçinin qlobal çağırışdır. Bu baxımdan əməkdaşlıq üçün böyük imkanlar var. Bu, həqiqətən də, mümkündür. Bunu reallığa çevirmək imkanımız var.

Biz həm Azərbaycanda, həm də Avropa İttifaqında enerji təhlükəsizliyini gücləndirmək, bərpaolunan enerji sərmayəsini açmaq və uzun müddət ərzində bazarlarımızda ticarəti təşviq etmək öhdəliyimizə sadiqik. Bu baxımdan Azərbaycanda elektrik enerjisi haqqında qəbul edilmiş yeni qanunu alqışlayırıq. Bizim tərəfimizdən Avropa İttifaqı qanunvericiləri bu yaxınlarda yeni enerji səmərəliliyi və bərpaolunan enerji tədbirləri, o cümlədən daha iddialı 2030-cu il hədəfləri ilə bağlı danışıqları tamamladılar. İqlim və enerji üzrə böyük iqtisadiyyatlar forumunun son iclasında xanım Ursula Fon der Lyayen noyabr ayında Birləşmiş Millətlər Təşkilatının Dubayda keçiriləcək İqlim Dəyişikliyi Konfransı - "COP-28" ərəfəsində enerji səmərəliliyi və bərpaolunan enerji üçün qlobal hədəflər təyin edib. Bu baxımdan biz inanırıq ki, həmin məqsədə çatmaqda Azərbaycan da bizə dəstək olacaq. Əlbəttə ki, burada həm qaz tədarükünün artırılması, həm də yerli və beynəlxalq bazarlar üçün bu imkanlar olmalıdır. Bu baxımdan maarifləndirməyə və məlumatlandırmaya ehtiyac var. Biz də tənzimləyici çərçivə olaraq daha çox şəffaflığa nail olunması, emissiyaların azaldılması sahələrində və digər sahələrdə böyük işlər görürük. Biz Azərbaycan ilə bu istiqamətdə bərabər çalışmağa hazırıq.










Zati-aliləri, hörmətli səfirlər, nazirlər, xanımlar və cənablar, çıxışımın sonunda bir daha vurğulamaq istəyirəm ki, bizim Azərbaycanla bu istiqamətdə uzunmüddətli əməkdaşlığımız, həqiqətən də, çox əhəmiyyətli məsələdir. Bu, həm dayanıqlılıq və eyni zamanda bərpaolunan enerjiyə tələbatın təmin olunması baxımından çox önəmlidir. Azərbaycan və digər beynəlxalq tərəfdaşlarla bir yerdə işləyərək enerji keçidimizi təmin etmək, eyni zamanda sənaye əsaslarımızı gücləndirmək və iqtisadiyyatlarımızı iqlim neytrallığına yönəltmək önəmli vəzifədir. Təşəkkür edirəm.

❖ ❖ ❖

Çıxışlardan sonra dövlətimizin başçısı "Bakı Enerji Həftəsi" çərçivəsində 28-ci Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil&Gas" və 11-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - "Caspian Power" sərgiləri ilə tanış oldu.

**Azərbaycan Respublikası Dövlət Neft Şirkəti - SOCAR** sərgidə geniş təmsil olunur. Bildirildi ki, SOCAR "Bakı Enerji Həftəsi"ndə baş tərəfdaş olaraq iştirak edir. Stenddə SOCAR-ın Apstrim, Midstrim və Daunstrim istiqamətlərində, həmçinin marketinq, satış fəaliyyəti və müxtəlif xidmətləri barədə məlumatlar təqdim olunur. "Yaşıl enerji" layihələrinə dair bölmədə SOCAR-ın "yaşıl enerji"yə baxışı, bərpaolunan enerji mənbələri üzrə pilot layihələri barədə informasiyalar təqdim olunur. Stenddə həmçinin SOCAR-ın elmi-tədqiqat işləri və nanotexnologiyalar, təlim və təhsil proqramları barədə məlumatlar yer alır.

Prezident İlham Əliyev BP-Azərbaycanın stendinə də baxdı. BP şirkəti 30 ildən çoxdur ki, Azərbaycanda fəaliyyət göstərir və 5 böyük enerji layihəsinin operatorluğunu təhlükəsiz və etibarlı şəkildə həyata keçirir. Bu günədək BP öz tərəfdaşları ilə birlikdə ölkəmizdəki layihələrə təxminən 84 milyard dollar sərmayə qoyub. Şirkət on minlərlə iş yeri yaratmaqla və genişmiqyaslı sosial sərmayə fəaliyyətləri həyata keçirməklə yerli icmalara müsbət təsir göstərib.

Dövlətimizin başçısı **Türkiyənin TPAO** şirkətinin stendi ilə də tanış oldu. 69 illik tarixə malik şirkət kəşfiyyat işləri, qazma, hasilat sahəsində fəaliyyətini Türkiyə, Kipr, Əfqanıstan, Azərbaycan, İraq və Rusiya daxil olmaqla müxtəlif ölkələrdə davam etdirir. 2020-ci ildə TPAO Qara dənizdəki Sakarya qaz yatağında dünyada 2-ci ən böyük qaz kəşfiyyatına nail olub. TPAO "Şahdəniz"də 19, Cənubi Qafqaz Boru Kəmərində 19, "Azəri-Çıraq-Günəşli"də 5,73, Bakı-Tbilisi-Ceyhanda 6,53 faiz paya malikdir.

Sərgidə xüsusi pavilyonla təmsil olunan Almaniya ziyarətçiləri qazma, nasos, təhlükəsizlik texnikası, kəşfiyyat və hasilat üzrə ixtisaslaşan şirkətlərinin fəaliyyəti ilə tanış edir. Pavilyonda Almaniya şirkətləri ilə əlaqələr yaratmağa kömək etmək üçün peşəkar vasitəçi xidmətlər təklif olunur.

**"Beynəlxalq Trans-Xəzər Nəqliyyat Marşrutu" Assosiasiyası** da sərgidə təmsil olunur. Qurum Qədim İpək yolu dövründə olduğu kimi, indi də bu yolun üzərində yerləşən ölkələrin və şirkətlərin maraqlarını təmsil edən birləşdirici təşkilatdır. Baş ofisi Qazaxıstanda yerləşən assosiasiyanın üzvləri arasında "Azərbaycan Dəmir Yolları", "Xəzər Dəniz Gəmiçiliyi", "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-ləri qeyd etmək olar.

**Rusiyanın "TMK" şirkəti** iqtisadiyyatın müxtəlif sektorları üçün polad boru kəmərləri həlləri və dəstək xidmətləri üzrə aparıcı təchizatçıdır. Şirkət hazır boru kəmərləri, o cümlədən enerji, kimya, maşınqayırma, tikinti və digər sahələr üçün xüsusi borular və digər məhsullar istehsal edir.

**Çinin "CHINT Electrıc"** şirkəti də sərgidə geniş təmsil olunur. Şirkət təmiz enerji, enerji bölgüsü, böyükhəcmli məlumatlar və enerjidə əlavə dəyər xidmətlərindən ibarət əsas bizneslərə malikdir. Bundan əlavə, şirkətin biznesinin əsas istiqamətlərinə fotoelektrik avadanlıqlar, enerjinin saxlanması, ötürülməsi və paylanması, aşağı gərginlikli aparatlar, ağıllı terminallar, proqram təminatının hazırlanması və idarəetmənin avtomatlaşdırılması daxildir.

**İsrailin "Magal Solutions"** şirkəti gücləndirilmiş təhlükəsizlik və səmərəlilik üçün operativ komanda-nəzarət həllərinin qlobal inteqratorudur. 100-dən çox ölkədə fəaliyyət göstərən şirkət dəniz limanı, sərhəd, neft üçün bir sıra həllərin layihələndirilməsi və çatdırılması üzrə ixtisaslaşıb.

Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) "MASDAR" şirkətinin stendinə də baxdı. "MASDAR" bərpaolunan enerji və yaşıl hidrogen texnologiyalarının inkişafını və tətbiqini inkişaf etdirərək dünyada bu sahənin ən qabaqcıl şirkətlərindən biridir. 2006-cı ildə yaradılan "MASDAR" bu gün 40-dan çox ölkədə fəaliyyət göstərir və onlara təmiz enerji məqsədlərinə nail olmaqda və davamlı inkişafda kömək edir. Şirkət Azərbaycanla ümumi gücü 10 qiqavatadək olan bərpaolunan enerji mənbələri layihələri üzrə müqavilələr imzalayıb. Şirkət hazırda gücü 230 meqavat olan Qaradağ Günəş-Elektrik Stansiyasının inşası layihəsini icra edir.

**Özbəkistanın "Uzbekneftegaz"** şirkəti neft və qazın hasilatı, saxlanması, emalı və satışı ilə məşğul olur. Ölkənin ən böyük dövlət şirkəti olan "Uzbekneftegaz" təbii qaz hasilatına görə dünyada 11-ci yerdədir. Şirkətin fəaliyyəti geoloji kəşfiyyat, neft və qaz yataqlarının işlənməsi, qazma, hasilat, karbohidrogenlərin emalı, neft məhsulları, kimya avadanlıqlarının istehsalına qədər bütün neft və qaz əməliyyatları zəncirini əhatə edir. Burada Prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim olundu.

Niderlandın **"DAMEN Shipyards"** şirkəti 95 ildir ki, mühəndislik, gəmiqayırma, gəmi təmiri xidmətləri təqdim edir. Şirkət 5 qitədə 11 mindən çox işçinin işlədiyi 35 gəmiqayırma zavodunu idarə edir.

Dövlətimizin başçısı İtaliyanın **"Tenaris"** şirkətinin stendinin təqdimatında oldu. Bildirildi ki, şirkət qlobal enerji sənayesində və digər tətbiq sahələrində istifadə olunan boru və əlaqədar xidmətlərin aparıcı təchizatçısıdır. Şirkətin məqsədi məhsulun işlənib hazırlanması, istehsal mükəmməlliyi və tədarük proseslərinin idarə edilməsi vasitəsilə müştərilərin biznesinə dəyər verməkdir.

Belarus Ticarət və Sənaye Palatasının **"Belinterexpo"** unitar müəssisəsi sərgidə ölkənin neft emalı, kimya və neft kimyası müəssisələrinin və təşkilatlarının ekspozisiyalarını təqdim edir. Müəssisədə 500-dən çox adda neft-kimya və kimya məhsulları istehsal olunur.

Rusiyanın ən böyük 5 neft-qaz şirkətindən biri olan **"Qazprom"** da sərgidə təmsil olunur. "Qazprom" qazın, qaz kondensatının və neftin geoloji kəşfiyyatı, hasilatı, daşınması, saxlanması, emalı, avtomobillər üçün qaz yanacağı, həmçinin istilik və elektrik enerjisinin istehsalı və satışı ilə məşğul olan qlobal enerji şirkətidir. Şirkət təbii qaz ehtiyatları və hasilatı baxımından qlobal liderdir.

Prezident İlham Əliyev **"SOCAR Türkiyə"** şirkətinin stendi ilə də tanış oldu. Türkiyənin ən mühüm sənaye holdinqlərindən biri olan "SOCAR Türkiyə" neft-kimya, emal, təbii qaz, ticarət, ötürmə və paylama sahələrində fəaliyyətini davam etdirir. Stenddə "SOCAR Türkiyə" şirkətinin son 15 il ərzindəki layihələri, yatırımları və fəaliyyəti barədə videoçarx nümayiş olunur.

ABŞ-nin **"Schlumberger"** (SLB) şirkəti neft və qaz yataqlarının kəşfiyyatı, quyuların qazılması, hasilat və emal üzrə dünyanın qabaqcıl texnologiya təchizatçısıdır. Azərbaycanda da bir çox layihələrdə iştirak edən şirkət yataqların kəşfiyyat-qazma işində, boru kəmərinin bərpası və digər sahələrdə xidmətlərini təklif edir. Avadanlıq və xidmətlərin ən geniş çeşidini sənayedə təmin edən bu qurum fəaliyyətində innovativ həllərə üstünlük verir.

Dövlətimizin başçısı Fransanın **"TOTAL"** şirkətinin stendinə də baxdı. "TOTAL" 1996-cı ildən Azərbaycanda fəaliyyət göstərir və enerji sektorunda fəal iştirak edir. Şirkət insanların rifahının yüksəldilməsi üçün dayanıqlı inkişafı bütün aspektlərdə öz strategiyasının, layihələrinin və əməliyyatlarının əsası hesab edir və Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinin dəstəklənməsində meyar olmağa çalışır.

Prezident İlham Əliyev sərginin xatirə kitabını imzaladı.

Sonda dövlətimizin başçısına xatirə hədiyyələri təqdim edildi.

❖ ❖ ❖

Qeyd edək ki, "Caspian Oil&Gas" Sərgisi artıq 28 ildir ki, neft, qaz və enerji sektorunda əhəmiyyətli əməkdaşlıq üçün mühüm platformaya çevrilib. Hər il Azərbaycan Prezidentinin açılış mərasimində iştirakı isə sərginin yüksək statusunu bir daha təsdiqləyir.

Həmçinin tədbirin bir çox ölkələrdən olan şirkətləri, yüksəksəviyyəli qonaqları, dövlət xadimlərini və beynəlxalq enerji ekspertlərini Bakıya toplaması təsadüfi deyil. Azərbaycan paytaxtı artıq bir müddətdir ki, nüfuzlu tədbirlərin təşkil edildiyi, mühüm qərarların və əməkdaşlıq məsələlərinin müzakirə edildiyi məkana çevrilib. Bu gün Azərbaycan yalnız özünün deyil, digər ölkələrin də enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Bu baxımdan da sərgilərin böyük əhəmiyyəti vardır.

Azərbaycanda beynəlxalq sərgilərin keçirilməsi təşəbbüsü Ümummilli Lider Heydər Əliyev tərəfindən irəli sürülüb. Ulu Öndər 1994-cü ildən təşkil edilən sərgilərə daim dəstək verib. Bu il xalqımız müasir Azərbaycanın qurucusu Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyini qeyd edir. Bu əlamətdar hadisə "Bakı Enerji Həftəsi"nin proqramında da öz əksini tapır. Həftə çərçivəsində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş poçt markası buraxılıb. Sərgidə Ümummilli Liderin 100 illik yubileyinə həsr olunmuş xüsusi stend də nümayiş etdirilir.

"Bakı Enerji Həftəsi" çərçivəsində iyunun 3-dək davam edəcək sərgilərdə 38 ölkədən 331 şirkət iştirak edir.

**Azərbaycan Prezidenti İlham Əliyevin Moldovaya səfəri**

# Böyükmiqyaslı beynəlxalq tədbirlərdə Azərbaycanın iştirakı ənənəyə çevrilib

## Prezident İlham Əliyev Avropa Siyasi Birliyinin Zirvə toplantısında iştirak edəcək

## Prezidentlərin görüşü



*Əvvəli 1-ci səh.*

Avropa Siyasi Birliyinin Zirvə toplantısının Moldovada keçirilməsi ilə bağlı təbriklərini çatdıran Prezident İlham Əliyev belə böyükmiqyaslı tədbirin dost Moldovada təşkil edilməsini müsbət qiymətləndirdi.

Görüşdə ölkələrimiz arasında münasibətlərin yaxşı səviyyədə olduğu qeyd edildi, enerji, investisiyalar və digər istiqamətlərdə əməkdaşlıq məsələlərinə toxunuldu, əlaqələrimizin perspektivləri müzakirə olundu. Söhbət zamanı iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulandı, bu istiqamətdə səylərin artırılmasının vacibliyi qeyd edildi.

Beynəlxalq təşkilatlarda ölkələrimizin qarşılıqlı dəstəyi yüksək qiymətləndirildi, bu xüsusda Azərbaycanın və Moldovanın bir-birinin ərazi bütövlüyünü və suverenliyini daim dəstəklədikləri vurğulandı. Maya Sandu Avropa Siyasi Birliyinin Moldovada keçirilən Zirvə toplantısı çərçivəsində dövlətimizin başçısının Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin dəstəyi ilə Ermənistanın baş nazirinin, Almaniya və Fransa liderlərinin iştirakı ilə keçiriləcək beştərəfli görüşünü müsbət addım kimi qiymətləndirdi.

Dövlətimizin başçısı Moldova Prezidentini Azərbaycana səfərə dəvət etdi.

Dəvət məmnunluqla qəbul olundu.

# Azərbaycan Prezidenti İlham Əliyev Kişineuda Moldovanın Baş naziri ilə görüşüb



**Mayın 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kişineuda Moldova Respublikasının Baş naziri Dorin Reçan ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti ilə görüşdən məmnunluğunu bildirən Moldovanın Baş naziri dövlətimizin başçısının Avropa Siyasi Birliyinin Zirvə toplantısında iştirakına görə minnətdarlığını ifadə etdi. Dorin Reçan Müstəqillik Günü və Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Azərbaycan Prezidentini təbrik etdi. O, Ümummilli Liderin nümunəvi şəxsiyyət olduğunu vurğuladı.

Prezident İlham Əliyev Avropa Siyasi Birliyinin Zirvə toplantısının Moldovada keçirilməsi münasibətilə təbriklərini çatdırdı.

Baş nazir Azərbaycanın Moldovaya göstərdiyi dəstəyə görə təşəkkürünü ifadə etdi.

Söhbət zamanı ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olduğu qeyd edildi, Azərbaycan ilə Moldova arasında iqtisadi-ticari əlaqələrin daha da inkişaf etdirilməsi üçün geniş imkanların olduğu bildirildi. Hazırkı ticarət dövriyyəsinin qənaətbəxş olmadığı qeyd edildi. Ticarət dövriyyəsinin şaxələndirilməsinin vacibliyi diqqətə çatdırıldı. Bu xüsusda hökumətlərarası komissiyanın fəaliyyətinin daha da intensivləşdirilməsinin əhəmiyyəti vurğulandı. Söhbət zamanı Azərbaycan ilə Moldova arasında kənd təsərrüfatı, elektroenergetika, sərmayələr, infrastruktur layihələri ilə bağlı və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlıq üçün geniş imkanların olduğu qeyd edildi. Moldovanın üzümçülük və şərabçılıq sahəsində geniş təcrübəsinin, Azərbaycanın da bu sahədə zəngin ənənələrinin olduğu vurğulandı. Bu istiqamətdə əməkdaşlığın genişləndirilməsi üçün imkanların mövcud olduğu bildirildi.

Dövlətimizin başçısı Moldovanın Baş nazirini Azərbaycana səfərə dəvət etdi.

Dəvət məmnunluqla qəbul olundu.

## Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 15 iyul tarixli 305 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Miqrasiya orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqə və müsahibənin keçirilməsi qaydaları haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 15 iyul tarixli 305 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 624; 2013, № 5, maddə 514; 2021, № 12, maddə 1355) ilə təsdiq edilmiş "Miqrasiya orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqə və müsahibənin keçirilməsi qaydaları haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 4-1-ci bənd əlavə edilsin:

"4-1. Müsabiqədə və ya müsahibədə iştirak etmək üçün tələb olunan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda həmin sənədlər namizəddən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi namizədin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya namizəd tərəfindən təmin edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2023-cü il*

## Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 19 fevral tarixli 1290 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 19 fevral tarixli 1290 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 2, maddə 132) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti haqqında Əsasnamə"də dəyişiklik təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin rəsmi embleminin Əsasnaməsi və təsviri ilə bağlı təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2023-cü il*

# ABŞ hökuməti Azərbaycanın enerji sahəsində irəli sürdüyü təşəbbüsləri daim dəstəkləyir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də ABŞ Dövlət katibinin enerji ehtiyatları üzrə köməkçisi Cefri Pyattı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Cefri Pyatt Bakıda "Enerji Həftəsi"nin əhəmiyyətini qeyd etdi. Qonaq Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın liderlik rolunu yüksək qiymətləndirdi.

Prezident İlham Əliyev Cefri Pyattın bu tədbirdə iştirakının önəminə toxunaraq, ABŞ hökumətinin Azərbaycanın enerji sahəsində irəli sürdüyü təşəbbüsləri daim dəstəklədiyinə görə minnətdarlığını bildirdi. Dövlətimizin başçısı ölkəmizin uzun illər ABŞ ilə enerji sahəsində fəal surətdə əməkdaşlıq həyata keçirdiyini və genişmiqyaslı birgə layihələri uğurla reallaşdırdığını qeyd etdi. Azərbaycan Prezidenti bu xüsusda ABŞ hökumətinin TAP layihəsinə verdiyi dəstəyi vurğuladı. Görüşdə Azərbaycanın bölgənin enerji təhlükəsizliyinə verdiyi töhfə, ölkəmizdə bərpaolunan enerji sektorunun inkişafı istiqamətində sürətlə həyata keçirilən layihələr barədə fikir mübadiləsi aparıldı. Söhbət zamanı Azərbaycanın enerji təchizatında sabitləşdirici rol oynadığı xüsusi vurğulandı, ölkəmizin Orta dəhliz çərçivəsində enerji və qeyri-enerji məhsulları üçün dayanıqlı tranzit və nəqliyyat imkanlarının yaradılması məsələsinə toxunuldu.

## "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci və 10-cu bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 10, № 6, maddə 414; 2001, № 5, maddə 293, № 11, maddə 687, № 12, maddə 740; 2002, № 5, maddə 241, № 6, maddə 328, № 12, maddə 706; 2004, № 5, maddə 318; 2005, № 4, maddə 281, № 8, maddə 699, № 10, maddə 903, № 11, maddə 993; 2007, № 1, maddə 4, № 2, maddə 69, № 8, maddə 745, № 11, maddələr 1053, 1075; 2008, № 6, maddə 462, № 7, maddə 602; 2009, № 1, maddə 5, № 7, maddə 517, № 11, maddə 878; 2010, № 7, maddə 597, № 11, maddə 938; 2011, № 4, maddə 258, № 12, maddə 1098; 2012, № 10, maddə 946; 2013, № 11, maddə 1271; 2014, № 11, maddə 1353; 2015, № 5, maddə 487; 2016, № 1, maddə 11, № 7, maddə 1243, № 12, maddə 2025; 2017, № 2, maddə 148, № 12 (I kitab), maddə 2236; 2018, № 7 (I kitab), maddə 1388, № 8, maddə 1673, № 11, maddə 2230; 2019, № 1, maddə 22, № 6, maddələr 993, 997, № 11, maddə 1681; 2020, № 8, maddə 1014; 2021, № 2, maddə 116; 2022, № 8, maddə 831, № 11, maddə 1232, № 12, maddə 1379; 2023, № 1, maddə 9) aşağıdakı dəyişikliklər edilsin:

1. 36-cı maddənin üçüncü hissəsi aşağıdakı redaksiyada verilsin:

"Notarius kommersiya hüquqi şəxslərinin nizamnamə kapitalı, təsisçilərin (iştirakçıların) təsisçi (iştirakçı) səlahiyyətlərinin həyata keçirilməsi və onların nizamnamə kapitalındakı payları ilə əlaqədar notariat hərəkətləri apardığı zaman kommersiya hüquqi şəxslərinin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları, habelə kommersiya hüquqi şəxslərinin nizamnamələri və dövlət qeydiyyatı haqqında şəhadətnamələri barədə məlumatları elektron informasiya sistemləri vasitəsilə elektron sorğu əsasında əldə edir.".

2. 68-ci maddənin üçüncü hissəsi aşağıdakı redaksiyada verilsin:

"Notarius tərcüməçi tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiq edilmiş tərcümənin düzgünlüyünü elektron qaydada təsdiq edə bilər. Bu halda notarius tərcümənin mətninə görə məsuliyyət daşımır.".

3. 76-cı maddənin altıncı hissəsinin dördüncü cümləsində "Bildiriş" sözü "Bildirişin surəti" sözləri ilə əvəz edilsin.

4. 90-cı maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Notariuslar xarici ölkələrdə tərtib edilmiş sənədləri aşağıdakı hallarda qəbul edirlər:

1. həmin sənədlər Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarında leqallaşdırılmış olduqda;

2. "Xarici rəsmi sənədlərin leqallaşdırılması tələbini ləğv edən Konvensiya" ilə müəyyən edilmiş hallarda xarici rəsmi sənədə kağız və ya elektron formada həmin Konvensiya ilə nəzərdə tutulan şəhadətnamə (apostil) verildikdə. Bu zaman elektron formada verilmiş şəhadətnamə (apostil) bu Qanunun 27-ci maddəsində nəzərdə tutulmuş notariat hərəkətlərinin aparılması qaydaları haqqında təlimata uyğun olaraq yoxlanıldıqdan sonra qəbul edilir.

Azərbaycan Respublikasının qanunvericiliyində, o cümlədən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulduğu hallarda notariuslar xarici ölkələrdə tərtib edilmiş sənədləri leqallaşdırılmadan və ya onlara Konvensiya ilə nəzərdə tutulan şəhadətnamə verilmədən qəbul edirlər.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 may 2023-cü il*

## "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 2 may tarixli 866-VIQD nömrəli Qanununun tətbiqi və "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 18 yanvar tarixli 261 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 2 may tarixli 866-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki, "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 90-cı maddəsinin birinci hissəsinin 1-ci bəndində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, habelə Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları həyata keçirirlər.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 2 may tarixli 866-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 18 yanvar tarixli 261 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 40; 2001, № 10, maddə 640; 2002, № 8, maddə 478; 2003, № 6, maddə 290; 2005, № 8, maddə 717; 2006, № 1, maddə 9, № 7, maddə 590; 2007, № 6, maddə 606; 2008, № 3, maddə 174; 2009, № 1, maddə 9, № 2, maddə 71; 2010, № 7, maddə 610; 2011, № 9, maddə 795, № 12, maddə 1128; 2019, № 2, maddə 208, № 6, maddələr 1013, 1045; 2022, № 8, maddə 863; 2023, № 1, maddə 78) 3.13-cü bəndində "hissəsində" sözü "hissəsinin 1-ci bəndində" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2023-cü il*

## Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 12 noyabr tarixli 349 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Gömrük orqanlarına xidmətə qəbul ilə əlaqədar müsabiqənin keçirilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 12 noyabr tarixli 349 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 11, maddə 965; 2021, № 12, maddə 1355) ilə təsdiq edilmiş "Gömrük orqanlarına xidmətə qəbul ilə əlaqədar müsabiqənin keçirilməsi Qaydası"na aşağıdakı məzmunda 1.5-1-ci bənd əlavə edilsin:

"1.5-1. Gömrük orqanlarına xidmətə qəbul ilə əlaqədar zəruri olan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda həmin sənədlər və ya məlumatlar müsabiqədə iştirak etmək istəyən namizəddən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi müsabiqədə iştirak etmək istəyən namizədin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya həmin namizəd tərəfindən təmin edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2023-cü il*

## Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Ailə Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 126; 2002, № 12, maddə 702; 2004, № 7, maddə 505; 2006, № 2, maddə 66, № 11, maddə 923, № 12, maddələr 1005, 1006; 2007, № 1, maddə 4, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1218; 2008, № 7, maddə 602; 2010, № 2, maddə 70, № 3, maddə 171, № 5, maddə 380, № 7, maddə 578; 2011, № 7, maddələr 585, 620, № 12, maddə 1110; 2014, № 12, maddə 1515; 2019, № 2, maddə 185, № 3, maddə 372, № 5, maddə 800, № 12, maddə 1906; 2020, № 7, maddə 832, № 12 (I kitab), maddə 1424; 2021, № 4, maddə 308, № 6 (I kitab), maddə 541, № 7, maddə 711, № 8, maddə 894; 2022, № 1, maddə 11, № 6, maddə 580, № 8, maddə 828; 2023, № 1, maddə 19, № 2, maddələr 192, 207; **Azərbaycan Respublikasının** 2023-cü il 24 fevral tarixli 823-VIQD nömrəli **Qanunu**) aşağıdakı dəyişikliklər edilsin:

1. 9.1-ci maddədə "13.3-cü maddəsinə uyğun olaraq, tibbi müayinədən keçdiklərini təsdiq edən arayış əlavə edilməklə" sözləri "11-ci maddəsinin tələbləri nəzərə alınmaqla" sözləri ilə əvəz edilsin.

2. 11.1-ci maddədə "13.3-cü" sözləri "13-cü" sözləri ilə əvəz edilsin.

3. 12.0.3-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"12.0.3-1. bu Məcəllənin 13-cü maddəsində nəzərdə tutulmuş tibbi müayinədən keçməyən şəxslər;".

4. 13-cü maddə üzrə:

4.1. 13.3-cü maddənin ikinci cümləsi üçüncü cümlə hesab edilsin və həmin maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Həmin arayış elektron formada tərtib olunaraq, tibb müəssisəsinin rəhbəri tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənir və dərhal elektron informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma), müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən isə elektron informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.";

4.2. 13.4-cü maddənin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Nikaha daxil olmaq barədə ərizə təqdim edilən zaman nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçdiklərini təsdiq edən arayışı elektron informasiya sistemi vasitəsilə əldə etmək mümkün olmadıqda, həmin arayış nikaha daxil olmaq barədə ərizəyə kağız formada əlavə olunur.".

5. 23.3-cü maddədə "qüvvəyə mindiyi gündən 3 gün müddətində məhkəmə bu qətnamədən çıxarışı müvafiq icra hakimiyyəti orqanına göndərməyə borcludur" sözləri "qüvvəyə mindikdən sonra həmin qətnamədən çıxarış dərhal hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür" sözləri ilə əvəz edilsin.

6. 25.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"25.3. Nikahın etibarsız sayılması barədə məhkəmənin qətnaməsi qanuni qüvvəyə mindikdən sonra həmin qətnamədən çıxarış dərhal hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək, "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.".

7. 65.5, 131.4, 161.4, 162.3, 163.3, 166.2-1, 187.1-1 və 194.2-ci maddələrdə "3 gün müddətində" sözləri "dərhal" sözü ilə əvəz edilsin.

8. 179-cu və 190-cı maddələr aşağıdakı redaksiyada verilsin:

**"Maddə 179. Nikahın pozulmasının dövlət qeydiyyatına alındığı yer**

Ərizə əsasında nikahın pozulması ər-arvadın və ya onlardan birinin seçdiyi, məhkəmə qətnaməsi əsasında nikahın pozulması isə bu barədə qətnamənin çıxarıldığı yer üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) dövlət qeydiyyatına alınır.";

**"Maddə 190. Adın, ata adının və soyadın dəyişdirilməsinin dövlət qeydiyyatına alınması qaydası**

190.1. Ərizə əsasında adın, ata adının və soyadın dəyişdirilməsi vətəndaşın seçdiyi, məhkəmə qətnaməsi əsasında dəyişdirilməsi isə bu barədə qətnamənin çıxarıldığı yer üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) dövlət qeydiyyatına alınır.

190.2. Adın, ata adının və soyadın dəyişdirilməsi barədə məhkəmənin qətnaməsi qanuni qüvvəyə mindikdən sonra həmin qətnamədən çıxarış dərhal hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək, "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 may 2023-cü il*

## "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 8; 2005, № 1, maddə 1, № 8, maddə 700; 2006, № 2, maddə 70; 2008, № 2, maddə 49; 2010, № 4, maddə 265; 2012, № 1, maddə 2, № 7, maddə 651; 2013, № 12, maddə 1479; 2014, № 2, maddə 78, № 7, maddə 769, № 11, maddə 1356, № 12, maddə 1526; 2015, № 11, maddə 1259; 2016, № 4, maddə 644, № 10, maddə 1606; 2017, № 5, maddələr 709, 724, № 10, maddə 1775; 2018, № 12 (I kitab), maddələr 2471, 2531; 2019, № 1, maddələr 16, 21, № 2, maddə 176, № 6, maddə 999, № 7, maddə 1203; 2020, № 6, maddə 675, № 8, maddə 1017, № 11, maddələr 1323, 1335; 2021, № 12, maddə 1312; 2022, № 8, maddə 827; 2023, № 1, maddələr 2, 41, № 2, maddə 179) aşağıdakı dəyişikliklər edilsin:

1. 15.9.5-1-ci maddə ləğv edilsin.

2. Aşağıdakı məzmunda 15.10-cu maddə əlavə edilsin:

"15.10. Notarius bu Qanunun 15.9-cu maddəsində qeyd edilən məlumatlarla yanaşı, kommersiya hüquqi şəxsinin dövlət qeydiyyatı haqqında şəhadətnaməsini və nizamnaməsini elektron informasiya sistemləri vasitəsilə "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq elektron sorğu əsasında əldə edir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 may 2023-cü il*

## Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 14 oktyabr tarixli 134 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestrinin aparılması qaydası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 14 oktyabr tarixli 134 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 10, maddə 790; 2006, № 9, maddə 741; 2007, № 2, maddə 91; 2008, № 8, maddə 722; 2010, № 9, maddə 770, № 10, maddə 858, № 12, maddə 1061; 2013, № 5, maddə 520; 2014, № 9, maddə 1051; 2019, № 6, maddə 1029; 2023, № 1, maddə 84) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestrinin aparılması qaydası haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 24-1-ci bənd əlavə edilsin:

"24-1. Dövlət Reyestrində olan məlumatları əldə etmək üçün zəruri olan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər ərizəçidən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2023-cü il*

## "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 2 may tarixli 864-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 6 mart tarixli 297 nömrəli, "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2014-cü il 17 oktyabr tarixli 1080-IVQD nömrəli Qanununun tətbiqi barədə" 2014-cü il 15 dekabr tarixli 389 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 2 may tarixli 864-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 13.3-cü maddəsinin ikinci cümləsində (hər üç halda), 23.3-cü, 25.3-cü, 179-cu, 190.1-ci və 190.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 13.3-cü maddəsinin ikinci cümləsində (üçüncü halda), 23.3-cü, 25.3-cü və 190.2-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 13.3-cü maddəsinin ikinci cümləsində (birinci və ikinci hallarda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi nəzərdə tutulur;

1.4. həmin Məcəllənin 179-cu və 190.1-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 2 may tarixli 864-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 297 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 164; 2002, № 7, maddə 412, № 8, maddə 478, № 12, maddə 716; 2003, № 6, maddə 290; 2004, № 7, maddə 526; 2006, № 12, maddə 1034; 2007, № 3, maddə 226, № 11, maddə 1105; 2010, № 5, maddə 393, № 7, maddə 613, № 8, maddə 722; 2019, № 5, maddə 818, № 12, maddə 1930; 2021, № 6 (I kitab), maddə 565; 2022, № 1, maddə 30; 2023, № 1, maddə 85, № 3, maddə 348) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bəndə "Məcəlləsinin" sözündən sonra "13.3-cü maddəsinin ikinci cümləsində (hər üç halda), 23.3, 25.3," sözləri, "186" rəqəmlərindən əvvəl "179," rəqəmləri və "187.1-1," rəqəmlərindən sonra "190.1, 190.2," rəqəmləri əlavə edilsin;

3.2. 2.2-ci bəndə "Məcəllənin" sözündən sonra "13.1, 13.5-ci maddələrində," sözləri əlavə edilsin;

3.3. 2.3-1-ci bəndə "Məcəllənin" sözündən sonra "13.3-cü maddəsinin ikinci cümləsində (üçüncü halda), 23.3, 25.3," sözləri, "187.1-1," rəqəmlərindən sonra "190.2," rəqəmləri əlavə edilsin;

3.4. 2.4-cü bənddən "23.3,", "25.3," və "179," rəqəmləri çıxarılsın;

3.5. 2.4-1-ci bənddə "195.2-ci (ikinci halda) maddəsində" sözləri "179, 190.1 və 195.2-ci (ikinci halda) maddələrində" sözləri ilə əvəz edilsin;

3.6. 2.12-2-ci bəndə "Məcəllənin" sözündən sonra "13.3-cü maddəsinin ikinci cümləsində (birinci və ikinci hallarda)," sözləri əlavə edilsin;

3.7. 2.17-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.18-ci bənd əlavə edilsin:

"2.18. həmin Məcəllənin 13.4-cü maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xaricdəki konsulluq idarələri, rayon tabeli şəhərlərdə, qəsəbələrdə və kəndlərdə rayon, şəhər, şəhər rayonu icra hakimiyyətlərinin nümayəndəlikləri həyata keçirirlər.".

4. "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2014-cü il 17 oktyabr tarixli 1080-IVQD nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 dekabr tarixli 389 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 12, maddə 1543) 3-cü hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2023-cü il*

## Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanı ilə təsdiq edilmiş "ASAN xidmət" mərkəzlərinin fəaliyyətinin təşkili və xidmətlərin göstərilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 858; 2013, № 2, maddə 109, № 3, maddə 254, № 4, maddə 377; 2014, № 2, maddə 117, № 5, maddə 486, № 9, maddələr 1027, 1044, 1048; 2015, № 6, maddə 708, № 8, maddə 917, № 10, maddə 1122; 2016, № 2 (II kitab), maddə 251, № 5, maddə 852, № 8, maddə 1384, № 9, maddə 1464; 2017, № 2, maddə 174, № 4, maddə 564, № 5, maddə 809, № 8, maddələr 1521, 1531; 2018, № 3, maddə 437, № 6, maddə 1242, № 10, maddə 2013, № 11, maddə 2553; 2019, № 1, maddə 61, № 4, maddə 647; 2020, № 8, maddələr 1039, 1044, 1047; 2021, № 8, maddə 919, № 9, maddə 990, № 11, maddə 1217; 2022, № 5, maddə 475, № 10, maddə 1133, № 11, maddə 1264; 2023, № 1, maddə 84, № 2, maddə 245) ilə təsdiq edilmiş "ASAN xidmət" mərkəzlərinin fəaliyyətinin təşkili və xidmətlərin göstərilməsi Qaydaları"na aşağıdakı məzmunda 3.2-1-ci bənd əlavə edilsin:

"3.2-1. Xidmətin həyata keçirilməsi üçün tələb olunan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər vətəndaşdan tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi vətəndaşın razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya vətəndaş tərəfindən təmin edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2023-cü il*

## "Dövlət orqanlarının və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Dövlət orqanlarının və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 5, maddə 380; 2012, № 7, maddə 685; 2014, № 9, maddə 1027; 2017, № 5, maddə 803, № 8, maddə 1521; 2022, № 5, maddə 470) aşağıdakı dəyişikliklər edilsin:

1. 2-ci hissənin birinci abzasından "üç ay müddətində" sözləri çıxarılsın.

2. 2.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"2.4. müvafiq sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlərin müraciət edəndən tələb edilməməsi, belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsinin müraciət edənin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunması və ya müraciət edən tərəfindən təmin edilməsi;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2023-cü il*

## Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 15 aprel tarixli 222 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 15 aprel tarixli 222 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 297; 2009, № 6, maddə 419; 2011, № 3, maddə 182; 2017, № 5, maddə 802; 2021, № 4, maddə 314, № 12, maddə 1354) ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 3.3-2-ci bənd əlavə edilsin:

"3.3-2. Dövlət vergi orqanlarında işə qəbul olunmaq üçün tələb olunan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət qurumundan əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar namizəddən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi namizədin razılığı ilə sorğu əsasında müvafiq dövlət qurumundan tələb olunur və ya namizəd tərəfindən təmin edilir.".

2. 3.4.1-ci yarımbəndə "təqdim edilmədikdə" sözlərindən sonra "(bu Əsasnamənin 3.3-2-ci bəndinin müddəaları nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2023-cü il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə zati-alinizə ən səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan məmnunluq hissi duyuram.

Zati-alinizə möhkəm cansağlığı, səadət, Azərbaycan hökumətinə və dost Azərbaycan xalqına rifah və tərəqqi arzulayıram.

Ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Şeyx Məhəmməd bin Zayed Al NƏHYAN,***
***Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti***

❖ ❖ ❖

Əziz həmkar!

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına səmimi təbriklərimi çatdırıram.

Bu təbrik məktubunda xalqlarımızın dostluğuna, Estoniya ilə Azərbaycan arasındakı əməkdaşlığın gələcək illərdə də uğurla inkişaf edəcəyinə əminliyimi bildirirəm.

Həmfikir ölkələr arasında əməkdaşlıq xüsusilə Rusiya-Ukrayna müharibəsi və onun bütün dünyaya təsirinin davam etdiyi bir vaxtda son dərəcə əhəmiyyətlidir. Bilirik ki, ölkələrimizin Ukraynaya bu müharibədə qalib gəlməyə kömək etməkdən başqa yolu yoxdur. Müharibələrə son qoyulması, ədalətin və məsuliyyətin təmin olunması istiqamətində işimizi davam etdirməyimiz çox vacibdir. Biz həmçinin ümid edirik ki, Azərbaycan və Ermənistan arasında bütün Cənubi Qafqaz regionunda sabitliyə, firavanlığa müsbət və uzunmüddətli təsir göstərəcək qarşılıqlı faydalı sülh sazişi imzalanacaqdır.

Həmçinin fürsətdən istifadə edərək Estoniya Respublikasının Müstəqillik Günü münasibətilə təbrikinizə və xoş arzularınıza görə Sizə səmimi-qəlbdən təşəkkürümü bildirirəm. Ümidvaram ki, ölkələrimiz arasındakı səmimi dostluq münasibətləri bundan sonra da dövlətlərimizə və xalqlarımıza xidmət edəcəkdir.

Hörmətli həmkarım, ən yüksək ehtiramımı, həmçinin Azərbaycanın və onun xalqının rifahı, firavanlığı naminə ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Alar KARİS,***
***Estoniya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Azərbaycanın Müstəqillik Günü münasibətilə zati-alinizə ən səmimi təbriklərimi və xoş arzularımı ifadə etməkdən məmnunam.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Azərbaycan hökumətinə və xalqına firavanlıq və inkişaf arzulayıram.

Xahiş edirəm, ən yüksək hörmət və ehtiramımı qəbul edin.

***Məhəmməd bin Rəşid Al MƏKTUM,***
***Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti,***
***Baş naziri və Dubayın hökmdarı***

❖ ❖ ❖

Zati-aliləri!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi çatdırıram. Zati-alinizə şəxsi rifah, Azərbaycan xalqına xoşbəxtlik arzulayıram.

*Hörmətlə,*

***ANRİ,***
***Lüksemburqun Böyük Hersoqu***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Azərbaycanın milli bayramı - Müstəqillik Günü münasibətilə zati-alinizi səmimi-qəlbdən təbrik edirəm. Sizə məmnuniyyətlə ən xoş arzularımı bildirirəm.

Zati-alinizə möhkəm cansağlığı, səadət, Azərbaycan hökumətinə və dost Azərbaycan xalqına firavanlıq və tərəqqi diləyirəm.

Ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Mansur bin Zayed Al NƏHYAN,***
***Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti,***
***Baş nazirin müavini,***
***prezident işləri naziri***

❖ ❖ ❖

Zati-aliləri!

Sizi səmimiyyətlə salamlayıram. Dost Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluğumu bildirirəm.

Bu gözəl bayram münasibətilə Sizə uzun ömür, xoşbəxtlik, uğurlar, ölkənizə və dost Azərbaycan xalqına davamlı inkişaf və rifah arzulayıram.

*Dərin hörmətlə,*

***Məşəl əl-Əhməd əl-Cabir ƏL-SABAH,***
***Küveyt Dövlətinin Vəliəhdi***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikasının milli bayramının - Müstəqillik Gününün 105-ci ildönümünün qeyd olunması münasibətilə Azərbaycan xalqının sevincini bölüşürük. Biz həmçinin işğal altındakı torpaqların azad olunması, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi kimi böyük nailiyyətlərinizi qeyd edirik. Bu tarixi Qələbə ilə bərabər zati-alinizi və Azərbaycanın Birinci vitse-prezidentini yaşadığımız dünyanın üzləşdiyi çətinliklərə baxmayaraq, ötən 30 il ərzində bir çox sahələrdə əldə etdiyiniz böyük inkişaf münasibətilə təbrik edirik.

Cənab Prezident, fürsətdən istifadə edərək Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin yaradılması, inkişafı və beynəlxalq əlaqələrinin genişlənməsi istiqamətində göstərdiyiniz dəstəyə görə Sizə səmimi-qəlbdən minnətdarlığımızı bildiririk. İnanırıq ki, Sizin etimadınızla Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətinin gücləndirilməsi işini birlikdə davam etdirəcəyik və daha uğurlu nailiyyətlərə imza atacağıq.

Cənab Prezident, xahiş edirik ən yüksək ehtiramımızı qəbul edin.

*Dərin hörmətlə,*

***Vayra VİKE-FREYBERQA,***
*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, 1999-2007-ci illərdə Latviya Respublikasının Prezidenti*
***İsmail SERAGELDİN,***
*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, 1992-2000-ci illərdə Dünya Bankının vitse-prezidenti*
***Kolinda QRABAR-KİTAROVİÇ,***
*2015-2020-ci illərdə Xorvatiya Respublikasının Prezidenti*
***Tzipi LİVNİ,***
*2006-2009-cu illərdə İsrail Dövlətinin xarici işlər naziri*
***Boris TADİÇ,***
*2004-2012-ci illərdə Serbiya Respublikasının Prezidenti*
***Əmr MUSA,***
*2001-2011-ci illərdə Ərəb Dövlətləri Liqasının Baş katibi, 1991-2001-ci illərdə Misirin xarici işlər naziri*
***Rosen PLEVNELİYEV,***
*2012-2017-ci illərdə Bolqarıstan Respublikasının Prezidenti*
***Eka TKEŞELAŞVİLİ,***
*2010-2012-ci illərdə Gürcüstanın Baş nazirinin müavini*
***İvo YOSİPOVİÇ,***
*2010-2015-ci illərdə Xorvatiya Respublikasının Prezidenti*
***İv LETERME,***
*2008, 2009-2011-ci illərdə Belçika Krallığının Baş naziri*

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

İcazə verin, Azərbaycanın milli bayramı - Müstəqillik Günü münasibətilə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı adından və şəxsən öz adımdan zati-alinizi təbrik edim.

Sizə cansağlığı və xoşbəxtlik, xalqınıza isə sülh və firavanlıq arzulayıram.

*Dərin hörmətlə,*

***Qu DONQYU,***
***BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının baş direktoru***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

1918-ci ildə müsəlman aləmində yaradılmış ilk demokratik dövlət olan Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Müstəqillik günü həmçinin müdrik rəhbər kimi Sizin Azərbaycanı yüksək səviyyədə inkişaf etdirən və beynəlxalq miqyasda mühüm rolu olan ölkəyə çevirən səmərəli xidmətlərinizi qeyd etmək üçün gözəl bir fürsətdir.

Məhz Sizin müdrik liderliyiniz sayəsində Azərbaycan dünyada mədəniyyətlərarası, dinlərarası və sivilizasiyalararası dialoq və əməkdaşlığın dövlət tərəfindən fəal şəkildə müdafiə və təşviq edildiyi, həmçinin bu dəyərlərin dövlət siyasətində təsbit olunduğu nadir ölkələrdən birinə çevrilib. Sizin uzaqgörənliyiniz Azərbaycanın bu sahədə aparıcı qlobal platforma kimi tanınmasına kömək etməkdə davam edir.

Sizə və sevimli Azərbaycan xalqına əlamətdar bayram münasibətilə bir daha təbriklərimi, əmin-amanlıq, firavanlıq arzularımı çatdırıram.

Zati-aliləri, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Dərin hörmətlə,*

***Ravvin Mark ŞNAYER,***
***ABŞ-nin Etnik Anlaşma Fondunun prezidenti***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

İcazə verin, Moldova Respublikasının Qaqauz Yeri Muxtar Ərazi Qurumunun sakinləri adından və şəxsən öz adımdan Sizə dərin hörmət və ehtiramımı bildirim.

Azərbaycan Demokratik Respublikasının yaradılmasının 105 illiyi münasibətilə səmimi təbriklərimi qəbul edin. Bu bayram Azərbaycan xalqının müstəqilliyinin, dövlətin çoxəsrlik inkişaf yolunun rəmzinə çevrilmişdir.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, firavanlıq, Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram.

Bu gün Azərbaycan Respublikası vətəndaşların sosial hüquqlarının təmin edildiyi, tarixi-mədəni və mənəvi irsin qorunması, inkişaf etdirilməsi üçün şəraitin yaradıldığı ən yüksək səviyyədə inkişaf etmiş ölkələrdən biridir.

Qaqauz Yeri Muxtar Ərazi Qurumunun rəhbərliyi Azərbaycan Respublikası ilə əməkdaşlığı yüksək qiymətləndirir və ümidvar olduğunu bildirir ki, ikitərəfli münasibətlərimiz xalqlarımızın rifahı naminə ildən-ilə daha da möhkəmlənəcək və genişlənəcəkdir.

Möhtərəm cənab Prezident, fürsətdən istifadə edərək Sizə bir daha dərin ehtiramımı bildirirəm.

*Hörmətlə və ən xoş arzularla,*

***İrina VLAX,***
***Moldova Respublikasının Qaqauziya Muxtar Ərazi Qurumunun (Qaqauz Yeri) rəhbəri***

## Milli Məclisin iclasında

# Yaz sessiyası başa çatdı

### Parlament 2022-ci il dövlət büdcəsinin icrası ilə bağlı qanun layihəsini təsdiqlədi

**Mayın 31-də Milli Məclisin spikeri Sahibə Qafarovanın sədrliyi ilə parlamentin 2023-cü ilin yaz sessiyasında son iclası keçirilib.**



Parlamentin Sədri Sahibə Qafarova bildirib ki, iclasda 14 məsələ müzakirə olunacaq. Gündəliyin birinci məsələsi - birinci oxunuşda müzakirəyə təqdim edilmiş "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikası qanununun layihəsidir.

İclasda bu məsələ ilə bağlı məlumatı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məlumat verdi. O qeyd etdi ki, "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi və "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrasına dair illik hesabat" "Büdcə sistemi haqqında" qanunla müəyyən edilmiş müddətdə və formada Milli Məclisə təqdim edilib.

Komitə sədri bildirdi ki, 2022-ci ilin dövlət büdcəsi ölkə Prezidenti İlham Əliyevin müəyyən etdiyi strateji inkişaf prioritetləri, sosial-iqtisadi siyasət və təhlükəsizlik tədbirləri ilə uzlaşdırılaraq, qlobal iqtisadiyyatda gedən proseslərin, regionda baş verən hadisələrin, müdafiə və təhlükəsizlik çağırışlarının, işğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinin icmal və dövlət büdcələrinin əsas parametrlərinə ehtimal olunan təsirləri nəzərə alınmaqla icra olunub.

2022-ci il Azərbaycanın dövlətçilik və müstəqillik tarixində Prezident İlham Əliyevin rəhbərliyi ilə işğalçı Ermənistan üzərində qazanılan qələbədən sonra Qarabağda və Şərqi Zəngəzurda bərpa-quruculuq işlərinin geniş vüsət aldığı il kimi qalacaq. Məhz bu ildə ilk dəfə Zəngilan rayonunun Ağalı kəndinə sakinlərin köçürülməsilə Böyük qayıdışa start verilib, Zəngilan Beynəlxalq Hava Limanı açılıb, Laçın şəhəri nəzarətimizə keçib, Laçın dəhlizinin marşrutu dəyişdirilib, Qarabağ və Şərqi Zəngəzurda yol, enerji, su və digər layihələrin həyata keçirilməsi davam etdirilib. Bu işlərin aparılması üçün hesabat ilində dövlət büdcəsindən 4.3 milyard manat vəsait xərclənib.

Tahir Mirkişili bildirdi ki, Azərbaycanda 2022-ci ildə iqtisadiyyatın real artımı gözlənilən 3,5 faiz proqnoza qarşı 4,6 faiz olub, ümumi daxili məhsulun həcmi isə ilk dəfə ən yüksək həddə - 133,8 milyard manata çatıb. Qeyri-neft-qaz sektorunda artım 9,3 faiz olaraq 69.8 milyard manat təşkil edib. 2021-ci ilin göstəriciləri ilə müqayisədə artan 40,6 milyard manatlıq ümumi daxili məhsulun 69,5 faizi neft-qaz sektorunun, 30,5 faizi isə qeyri-neft-qaz sektorunun hesabına formalaşıb. İl ərzində neft-qaz qiymətlərində əvvəlki illə müqayisədə əhəmiyyətli artımın müşahidə olunması ÜDM-in strukturunda neft-qaz və qeyri-neft-qaz sektorlarının xüsusi çəkilərinin dəyişməsi ilə nəticələnib. Belə ki, neft-qaz sektorunun ÜDM-də payı 47,8 faiz, qeyri-neft-qaz sektorunun payı isə 52,2 faiz təşkil edib.

Ötən il dünyada müşahidə olunan mürəkkəb proseslər fonunda Azərbaycanda görülən tədbirlər nəticəsində makroiqtisadi sabitliyə nail olunsa da, 2022-ci ildə orta illik inflyasiya ölkə üzrə 13,9 faiz, ərzaq inflyasiyası isə 19,5 faiz olub. Hesabat ilində əhalinin nominal gəlirlərinin 20,5 faiz artması inflyasiyanın neqativ təsirlərinin yumşaldılmasına yönəldilib.

Hesabat ilində əsas kapitala yönəldilən vəsaitin məbləği əvvəlki ilə nisbətən 5,5 faiz artaraq 18,3 milyard manat təşkil edib. Əsas kapitala yönəldilmiş investisiyaların 80,6 faizi daxili mənbələr hesabına formalaşıb, investisiyaların 29,5 faizi neft, 70,5 faizi isə qeyri-neft sektoruna yönəldilib.

Dövlət büdcəsinin əsas parametrləri barədə məlumat verən komitə sədri bildirib ki, 2022-ci ildə dövlət büdcəsinin gəlirləri 29 197,8 milyon manat proqnoza qarşı 30 679,6 milyon manat təşkil edib və proqnozla müqayisədə 1 481.8 milyon manat və ya 5,1 faiz çox icra olunub.

Qeyd olundu ki, gəlirlərin tərkibində qeyri-neft sektoru üzrə daxilolmalar 15 350,0 milyon manat təşkil edib, neft sektoru üzə daxilolmalar isə 15 329,6 milyon manat olub. Vergi orqanları xəttilə dövlət büdcəsinə daxilolmalar 15 543,0 milyon manat təşkil edib. Daxil olan vergilərin 52,3 faizi, yəni 8 136,3 milyon manatı qeyri-neft sektorunun, 47,7 faizi, yəni 7 406,6 milyon manatı isə neft sektorunun payına düşür. Bununla yanaşı, 2022-ci ildə vergi orqanları xətti ilə 495,9 milyon manat artıq ödənilmiş vəsait geri gaytarılıb. Bildirilib ki, Dövlət Gömrük Komitəsinin xətti ilə dövlət büdcəsinə daxilolmalar 5 654,6 milyon olub. Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar isə 804,1 milyon manat təşkil edib. Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin məbləği 11 517,5 milyon manat proqnoza qarşı, 3 594,5 milyon manat az və ya 7 923 milyon manat həcmində icra edilib. Bu göstərici son 5 ilin ən aşağı göstəricisidir və buna büdcə gəlirlərinin artması nəticəsində nail olunub. Ötən il üzrə dövlət büdcəsinin xərcləri barədə danışan komitə sədri diqqətə çatdırıb ki, təsdiq olunmuş 32 303,8 milyon manat xərcin 32 064,6 milyon manatı, yəni 99,3 faizi icra olunub və bu icra faizi son illərin ən yüksək icra faizidir. Xərclərin 55,3 faizni cari xərclər, 39,1 faizni əsaslı xərclər, 5,6 faizni isə dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı xərclər təşkil edib.

*Ardı 7-ci səh.*

# Azərbaycan - Böyük Britaniya tərəfdaşlıq münasibətləri yüksək səviyyədədir

**Milli Məclisin Sədri Sahibə Qafarova mayın 31-də Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson ilə görüşüb.**



Qonağı salamlayan spiker Sahibə Qafarova Baronessa Emma Nikolson ilə bundan öncəki görüşünü və Böyük Britaniyaya səfərlərini məmnunluqla xatırladıb. Azərbaycan və Böyük Britaniyanın dost və tərəfdaş ölkələr olduğunu bildirən Sahibə Qafarova deyib ki, xüsusilə iqtisadiyyat, ticarət və enerji sahələrində əlaqələrimiz yüksək səviyyədədir.

Görüşdə Azərbaycanın Avropa üçün etibarlı neft və qaz təchizatçısı olduğunu qeyd edən spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, ötən il Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair anlaşma memorandumu imzalanıb. Bərpaolunan enerji sahəsində də fəal əməkdaşlıq mövcuddur.

Parlamentlərarası əlaqələrdən danışan Milli Məclisin Sədri deyib ki, bu sahədə də münasibətlər uğurla inkişaf etməkdədir. Spiker deyib ki, qarşılıqlı səfərlər bu münasibətlərin daha da dərinləşməsinə xidmət edir. O xatırladıb ki, 2023-cü ilin aprelində Böyük Britaniya Parlamentinin Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Bob Bləkmən və dostluq qrupunun bir neçə üzvü Azərbaycana səfər edib və onlar işğaldan azad edilmiş Ağdam şəhərinə də gediblər.

Milli Məclisin Sədri görüşdə həmçinin regionda mövcud olan vəziyyət, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində görülən genişmiqyaslı işlər barədə məlumat verib.

Göstərilən qonaqpərvərliyə görə Milli Məclisin Sədrinə minnətdarlığını bildirən Baronessa Emma Nikolson "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən tədbirlərdə iştirak etmək məqsədilə ölkəmizə səfər etdiyini bildirib. O, Azərbaycanın beynəlxalq enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş olduğunu qeyd edib. Ticarət elçisi ölkəmizin neft və qaz ehtiyatları ilə yanaşı, bərpaolunan enerjinin böyük potensialına da malik olduğunu diqqətə çatdırıb.

Azərbaycan və Böyük Britaniya arasında tərəfdaşlıq münasibətlərinin hazırkı səviyyəsindən razılığını bildirən Baronessa Emma Nikolson xüsusilə enerji və ticarət sahələrində əlaqələrin yüksək inkişafını qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Milli Məclisin iclasında

# Yaz sessiyası başa çatdı

## Parlament 2022-ci il dövlət büdcəsinin icrası ilə bağlı qanun layihəsini təsdiqlədi

*Əvvəli 6-cı səh.*

2022-ci ildə sosialyönümlü xərclər dövlət büdcəsinin icrasında xərclərin 36,1 faizi və ya 11 576,9 milyon manat həcmində olub. Ümumilikdə isə son 5 ildə sosialyönümlü xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 4,4 faiz-bənd, mütləq ifadədə isə 4380,4 milyon manat və ya 1,6 dəfə artıb. Sosialyönümlü xərclərə aid olan əməyin ödənişi xərclərinə 7465,7 milyon manat, sosial ödənişlər üzrə xərclərə 3550,7 milyon manat, ərzaq məhsullarının alınması və təminatı üzrə xərclərə 466,5 milyon manat, dərman, sarğı ləvazimatlarının və materiallarının alınması xərclərinə 94,1 milyon manat vəsait yönəldilib.

Bildirildi ki, 2022-ci ildə dövlət büdcəsindən səhiyyə xərclərinə ayrılmış 1 428,5 milyon manat vəsaitin 1417,9 milyon manatı və ya 99,3 faizi icra olunub. Təhsil üçün ayrılmış 3732,6 milyon manatın 99 faizinin icrası təmin edilib. Elm üçün ayrılmış xərclər 167,8 milyon manat həcmində icra olunub. Hesabat ilində Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsinə 1 132,0 milyon manat vəsait yönəldilib. Müdafiə və milli təhlükəsizlik sahəsinə dövlət büdcəsi xərclərinin 17,5 faizi həcmində və ya 5622,5 milyon manat məbləğində vəsait yönəldilib. Ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə 540,1 milyon manat, meliorasiya tədbirlərinin maliyyə təminatı üçün 413,9 milyon manat vəsaitin dövlət büdcəsindən icrası təmin olunub. Ötən il 42 publik şəxsə dövlət sifarişi əsasında bir sıra iş və xidmətlərin həyata keçirilməsi üçün dövlət büdcəsindən 319,6 milyon manat vəsaitin ödənişi icra edilib.

Tahir Mirkişili diqqətə çatdırdı ki, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün 2022-ci ilin dövlət büdcəsindən ümumilikdə 4311,0 milyon manat vəsait ayrılıb. Həmin vəsaitin 4070,9 milyon manatı infrastruktur təyinatlı layihələrin tikintisinə, yenidən qurulmasına, 99,9 milyon manatı ərazilərin minalardan təmizlənməsinə, 60,9 milyon manatı müdafiə və hüquq-mühafizə təyinatlı obyektlərin tikintisi və təmirinə, 54,5 milyon manatı sosial təyinatlı layihələrin, 24,8 milyon manatı isə digər tədbirlər üzrə xərclərə yönəldilib.

2022-ci ildə dövlət büdcəsinin yerli gəlirləri 1030,2 milyon manat proqnoza qarşı 1113,9 milyon manat məbləğində və ya 8,1 faiz çox icra olunub. Dövlət büdcəsinin yerli xərcləri isə 1070,1 milyon manat proqnoza qarşı 1013,5 milyon manat və ya 94,7 faiz icra olunub. 2022-ci il icmal büdcənin gəlirləri 36760,9 milyon manat proqnoza qarşı 6336,7 milyon manat və ya 17,2 faiz çox icra edilməklə, 43097,6 milyon manat təşkil edib. İcmal büdcənin xərcləri isə 35640,9 milyon manat proqnoza qarşı 98,4 faiz icra olunub.

Komitə sədri Tahir Mirkişili bildirdi ki, 2022-ci il üçün dövlət büdcəsinin icrası ölkə Prezidenti İlham Əliyev tərəfindən müəyyən edilən əsas dövlət və sosial vəzifələrin həyata keçirilməsi, o cümlədən işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işlərinin icrası, əhalinin sosial müdafiəsinin daha da yaxşılaşdırılması, ölkədə makroiqtisadi sabitliyin qorunması, iqtisadi subyektlərin dəstəklənməsi, müdafiə və təhlükəsizlik tədbirlərinin görülməsi üçün lazımi maliyyə təminatı yaratmış və öz müsbət rolunu oynayıb.

Sonra Hesablama Palatasının sədri Vüqar Gülməmmədov "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikasının qanun layihəsinə və Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrasına dair illik hesabata Hesablama Palatasının rəyini təqdim etdi.

Palata sədri bildirdi ki, 2022-ci il dövlət büdcəsinin icrası ilə bağlı qanun layihəsi və hesabat qanunvericiliyin müvafiq tələblərinə uyğun hazırlanıb. Büdcənin icrası ilə bağlı təqdim olunan sənədlərin siyahısı əvvəlki illərlə müqayisədə nisbətən artırılıb, məlumatların keyfiyyətinin yüksəldilməsi istiqamətində addımlar atılıb.

Vüqar Gülməmmədov 2022-ci ildə dövlət büdcəsində icra edilmiş xərclərin əvvəlki ilə nisbətən artdığını bildirdi. İl ərzində xərclər üzrə aparılmış dəyişikliklərin ötən illə müqayisədə artdığını, bu dəyişikliklərin büdcənin icrasına təsir göstərdiyini söylədi.

Sonra məsələ ətrafında geniş müzakirələr aparıldı. Komitə sədrləri Hicran Hüseynova, Qənirə Paşayeva, deputatlar Qüdrət Həsənquliyev, Fazil Mustafa, Razi Nurullayev, Aqiyə Naxçıvanlı, Bəhruz Məhərrəmov, Elman Nəsirov, Aydın Hüseynov 2022-ci ilin dövlət büdcəsinin uğurla icra olunduğunu söylədi, bəzi qeyd və təkliflərini də səsləndirdilər.

Müzakirələrin sonunda "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edildi.

Milli Məclisi Sədri Sahibə Qafarova növbəti 7 məsələnin ikinci oxunuşda olan qanun layihələri olduğunu bildirdi.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsinə dair məlumat verərək, aparılan müzakirələr zamanı qaldırılan məsələlərə aydınlıq gətirildiyini, ötən müddət ərzində bu sənədlə bağlı hər hansı təklif və iradın daxil olmadığını dedi.

Sənədin əsas məqsədi sahibkarların maraqlarının gücləndirilməsi ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsidir. Təklif olunan dəyişikliklər yoxlayıcı orqanlar üçün əlavə tədbirlər müəyyən edir ki, bu da sahibkarlıq subyektlərinin yoxlamalarla bağlı qanunla qorunan hüquqlarını daha da möhkəmləndirir.

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (ikinci oxunuş) təqdim etdi. O, birinci oxunuşdan sonra məsələ ilə bağlı heç bir rəy və təklifin daxil olmadığını və sənədin olduğu kimi səsə qoyulmasını xahiş etdi.

Layihədə vəkilin prosesdə məcburi iştirakı tələb olunduğu hallardan başqa, həmçinin mülki işlər üzrə birinci və apellyasiya instansiyalarında da peşəkar hüquqi yardıma ehtiyacı olan, lakin kifayət qədər vəsaiti olmayan şəxslərin dövlət hesabına vəkillə təmin olunmasının hüquqi əsasları müəyyən edilir.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul olundu.

Sədr Sahibə Qafarova diqqətə çatdırdı ki, gündəliyin növbəti 5 məsələsi ölkə Prezidentinin bir məktubu ilə parlamentə daxil olub və mahiyyətcə bir-birinə bağlıdır. Gündəliyin 4-cü məsələsi - "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda (ikinci oxunuş), 5-ci məsələsi - "Elm haqqında" Azərbaycan Respublikasının Qanununda (ikinci oxunuş), 6-cı məsələsi - "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda (ikinci oxunuş), 7-ci məsələsi - Azərbaycan Respublikasının Əmək Məcəlləsində, "Məktəbəqədər təhsil haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında (ikinci oxunuş) və 8-ci məsələsi - "Sanitariya-epidemioloji salamatlıq haqqında", "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Yanğın təhlükəsizliyi haqqında", "Milli arxiv fondu haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında (ikinci oxunuş) dəyişikliklər edilməsi barədə qanun layihələridir.

Spiker 4-cü, 5-ci və 6-cı məsələlərə Elm və təhsil komitəsində baxıldığını söyləyib.

Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev həmin qanun layihələri barədə məlumat verərək, adıçəkilən qanunlara ümumilikdə 55 dəyişiklik edildiyini söylədi. O, 60 yaşdan 65 yaşadək təhsilverənlərin ümumtəhsil məktəblərində sertifikasiyadan könüllü keçməsi ilə bağlı məsələyə toxundu.






Komitə sədri bildirdi ki, sertifikasiyadan keçənlərin topladığı bala uyğun olaraq onların əmək haqları artırılır, sertifikatlaşdırmadan keçmək istəməyənlər də növbəti 5 ildə öz fəaliyyətlərini davam etdirə bilərlər. 65 yaşa çatmış müəllimlərin pensiyası ilə bağlı məsələyə dair qeyd edildi ki, müvafiq qanunvericiliyə uyğun olaraq 65 yaşa çatmış şəxslərin hər il, 5 ildən çox olmayaraq, əmək fəaliyyəti işlədiyi qurum tərəfindən uzadıla bilər. Bununla yanaşı, həmin sahədə xidmətləri olmuş şəxslərin göstərilən 5 ildən əlavə olaraq işləmək müddətinin meyarları müəyyən edilir. Komitə sədri ixtisas təcrübəsi ilə bağlı və digər bir sıra məsələlərə də aydınlıq gətirib.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev gündəliyin 7-ci məsələsi - Əmək Məcəlləsində, "Məktəbəqədər təhsil haqqında" və "Ümumi təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim etdi. Bildirildi ki, adıçəkilən qanunlara təklif olunan dəyişikliklərin əsas məqsədi təhsil sahəsində islahatların dərinləşdirilməsi, təhsilverənlərin sertifikatlaşdırılmasının hüquqi əsaslarının genişləndirilməsi və onların sosial müdafiəsinin daha da yaxşılaşdırılmasından ibarətdir.

Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev bu məsələyə dair rəhbərlik etdiyi komitənin rəyini diqqətə çatdırdı.

Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov 8-ci məsələ - "Sanitariya-epidemioloji salamatlıq haqqında", "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Yanğın təhlükəsizliyi haqqında", "Milli arxiv fondu haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı məlumat verdi. O bildirdi ki, bundan əvvəl təqdim edilən sənədlərdə qeyd olunanlarla əlaqədar bu layihədə də uyğunlaşdırma xarakterli dəyişikliklər təklif olunur.

Bu sənəd barədə Musa Quliyev Əmək və sosial siyasət komitəsinin, Ziyafət Əsgərov Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin, Qənirə Paşayeva Mədəniyyət komitəsinin, Hicran Hüseynova Ailə, qadın və uşaq məsələləri komitəsinin rəylərini səsləndirdilər.

Komitə sədri Siyavuş Novruzov, deputatlar Qüdrət Həsənquliyev, Vüqar Bayramov, İsa Həbibbəyli fikirlərini açıqladıqdan sonra ikinci oxunuşda təqdim olunan bu 5 qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq qəbul edildi.

İclasda Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Şəhərsalma və Tikinti Məcəlləsində, "Torpaq islahatı haqqında", "Energetika haqqında", "Torpaq icarəsi haqqında", "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Torpaq bazarı haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) diqqətə çatdırdı. O, layihənin birinci və ikinci oxunuşu zamanı aparılan müzakirələrdə heç bir əlavə rəy və təklifin irəli sürülmədiyini bildirdi və sənədin səsə qoyulmasını xahiş etdi.

Nurlan Həsənov Hüquq siyasəti və dövlət quruculuğu, Tahir Mirkişili İqtisadi siyasət, sənaye və sahibkarlıq, Sadiq Qurbanov Təbii ehtiyatlar, energetika və ekologiya, Səbinə Xasayeva Regional məsələlər komitələrinin məsələ ilə bağlı müsbət rəylərini səsləndirdikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Parlamentin spikeri Sahibə Qafarova diqqətə çatdırdı ki, gündəliyin növbəti 4 məsələsində təklif olunan dəyişikliklər uyğunlaşdırma xarakteri daşıyır. "Normativ-hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən, bu qanun layihələri bir oxunuşda qəbul ediləcək.

Sonra Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı məlumat verərək bildirdi ki, qanunun 12-ci maddəsinin səkkizinci hissəsində "orqanları" sözünün "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilməsi təklif olunur. Dəyişiklik dəqiqləşdirmə xarakteri daşıyır.

Deputat Tahir Kərimli bəzi mülahizələrini səsləndirdikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edildi.

İclasda Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim etdi. O bildirdi ki, qanunun 13.1-ci maddəsinin mətnində "açıqlanması" sözünün maddənin adına uyğun olaraq "təşviqi" sözü ilə əvəz edilməsi təklif olunur. Dəyişiklik normanın adı ilə məzmunu arasında uyğunluğun təmin edilməsi məqsədi daşıyır.

Qanun layihəsi səsə qoyularaq qəbul edildi.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov "Özəl tibb fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini diqqətə çatdırdı. Qanunun 13-cü maddəsinin dördüncü hissəsinə "müəssisələri" sözündən sonra "və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər" sözlərinin əlavə edilməsi nəzərdə tutulur. Sənəd "Nağdsız hesablaşmalar haqqında" qanunun icrası ilə əlaqədar hazırlanıb və uyğunlaşdırma məqsədi daşıyır.

Qanun layihəsi səsə qoyularaq qəbul edildi.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinə dair məlumat verdi. O qeyd etdi ki, Mülki Məcəllənin tələbinə uyğun olaraq adıçəkilən qanunda "hərrac" anlayışının dəqiqləşdirilməsi həyata keçirilir. Dəyişiklik uyğunlaşdırma xarakteri daşıyır.

Qanun layihəsi səsə qoyularaq bir oxunuşda qəbul edildi.

İclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov gündəliyin sonuncu məsələsi - "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim etdi. O bildirdi ki, qanun layihəsi qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Prezidenti tərəfindən Milli Məclisə təqdim edilib. Sənəd məhkəmə-hüquq sistemində həyata keçirilən islahatların dərinləşdirilməsi istiqamətində həyata keçirilən işlərin davamı olaraq, məhkəmə sisteminin müstəqilliyinin daha səmərəli şəkildə təmin edilməsi, Məhkəmə-Hüquq Şurasının, habelə Hakimlərin Seçki Komitəsinin formalaşdırılması qaydalarının təkmilləşdirilməsi məqsədi ilə hazırlanıb.

Layihədə Məhkəmə-Hüquq Şurasının formalaşdırılması qaydasına və üzvlərinin tərkibinə yenidən baxılması nəzərdə tutulur. Dəyişikliklərdə Məhkəmə-Hüquq Şurasının icra hakimiyyəti orqanlarının nümayəndələrindən olan üzvlərinin sayının azaldılması, hakim üzvlərinin sayının artırılması, Məhkəmə-Hüquq Şurasının hakim üzvlərinin hakimlərin konfransı tərəfindən seçilməsi, Məhkəmə-Hüquq Şurasının sədrinin isə Şuranın yalnız hakim üzvləri sırasından seçilməsi təklif edilir.

"Məhkəmə-Hüquq Şurası haqqında" qanuna təklif olunan yeni maddədə hakimlərin konfransının təşkil edilməsi, fəaliyyət istiqamətləri, tərkibi və qərarların qəbul edilməsi qaydaları əks olunur. Qeyd edilir ki, Hakimlərin Seçki Komitəsinin tərkibinə qanunvericilik hakimiyyəti orqanının - Milli Məclis Aparatının nümayəndəsinin də daxil edilməsi nəzərdə tutulur.

Deputatlar Fazil Mustafa, Qüdrət Həsənquliyev, Etibar Əliyev, Kamran Bayramov məsələyə dair fikirlərini və bəzi qeydlərini bildirdikdən sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edildi.

Milli Məclisin plenar iclasına yekun vuran spiker Sahibə Qafarova qeyd etdi ki, iclas yaz sessiyasının son iclasıdır. Konstitusiyanın 88-ci maddəsinin II hissəsinə uyğun olaraq, 83 deputat növbədənkənar sessiyanın çağırılması üçün Milli Məclisin Sədrinə müraciət edib. O, bu barədə sərəncam imzalayıb və iyun ayında parlamentin növbədənkənar sessiyası olacaq.

Ötən sessiyada görülmüş işlər haqqında məlumat verən spiker diqqətə çatdırdı ki, Milli Məclisin 2023-cü ilin yaz sessiyasında 14 iclası keçirilib, 91 qanun qəbul edilib. Başqa sözlə, 1 yeni qanun qəbul olunub, 72 qanunda dəyişiklik edilib, 18 beynəlxalq müqavilə təsdiqlənib.

Milli Məclis Konstitusiya ilə nəzərdə tutulan qanunvericilik səlahiyyətlərini tam həcmdə yerinə yetirib. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən quruculuq işlərinin və islahatların qanunvericilik bazası daha da möhkəmləndirilib və təkmilləşdirilib.

Yaz sessiyasının ən önəmli hadisəsi Ümummilli Lider, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin 100 illik yubileyi münasibəti ilə Milli Məclisin mayın 16-da keçirilən xüsusi iclası olub. Milli Məclisin Sədri Sahibə Qafarova xarici ölkələrin 27 parlament sədrinin və sədr müavininin, 57 parlament üzvünün, 4 beynəlxalq parlament təşkilatının, eləcə də diplomatik korpusun təmsilçilərinin xüsusi iclasda iştirak etməsini, ümumiyyətlə, xarici ölkələrin 228 nümayəndəsinin Bakıya gəlməsini Ulu Öndərin Azərbaycan xalqı və dövləti qarşısında xidmətlərinin, dünya siyasət sənətinə verdiyi töhfələrin beynəlxalq miqyasda nə qədər yüksək qiymətləndirildiyinin daha bir nümayişi kimi dəyərləndirdi.

Yaz sessiyasında görülmüş işlər haqqında danışarkən spiker hakimiyyətin müxtəlif qolları arasında səmərəli əməkdaşlığın Milli Məclisin qarşısında dayanan vəzifələrin uğurla yerinə yetirilməsinə kömək göstərdiyini qeyd etdi, parlamentlə hökumət arasında qurulmuş konstruktiv iş birliyini xüsusi vurğuladı. Hökumətin müxtəlif strukturlarının, o cümlədən nazirliklərin və dövlət komitələrinin nümayəndələri mütəmadi olaraq Milli Məclisin və komitələrin iclaslarına dəvət olunmuş, qanun layihələrinin müzakirəsi zamanı onların rəyləri dinlənilmiş, eyni zamanda deputatların bir sıra mülahizə və təklifləri də icra orqanları tərəfindən nəzərə alınmışdır.

Sahibə Qafarova böyük ictimai əhəmiyyət daşıyan məsələlərin müzakirəsi və qanun layihələrinin keyfiyyətinin daha da yüksəldilməsi məqsədi ilə ictimai dinləmələrin keçirilməsindən söz açdı. Bildirildi ki, ötən sessiya dövründə Milli Məclisin Gənclər və idman komitəsi "Heydər Əliyev - müasir Azərbaycan gənclər siyasətinin banisi" mövzusunda, İnsan hüquqları komitəsi "Dağları aşarkən: Qərbi Azərbaycana dinc və hüquqi qayıdış" mövzusunda, Mədəniyyət komitəsi Mədəniyyət Nazirliyi və Əqli Mülkiyyət Agentliyi ilə birlikdə "Qeyri-maddi mədəni irsin qorunması haqqında" qanun layihəsi ilə əlaqədar, habelə Elm və təhsil komitəsi Elm və Təhsil Nazirliyi ilə birlikdə "Ali təhsil haqqında" qanun layihəsi ilə bağlı ictimai dinləmələr keçiriblər.

Diqqətə çatdırıldı ki, qanunvericilik sahəsində görülən işlərlə yanaşı, Milli Məclis bəzi xarici dövlətlər tərəfindən Azərbaycanın suverenliyinə qarşı yönələn hərəkətlərə etiraz əlaməti olaraq bəyanatlar da qəbul etmişdir. Eyni zamanda parlamentin səlahiyyət dairəsinə daxil olan təyinat məsələləri həll edilib. Ümumən ötən sessiyada Milli Məclisin 14 qərarı qəbul olunub.

Yaz sessiyasında Milli Məclisin nəzarət funksiyasının yerinə yetirilməsi istiqamətində müvafiq tədbirlər də görülüb. Belə ki, Nazirlər Kabinetinin, Hesablama Palatasının, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun, İnsan hüquqları üzrə müvəkkilin və bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən müvafiq qurumun hesabat, məruzə və məlumatları dinlənilib.

Yaz sessiyası ərzində parlamentin beynəlxalq əlaqələrinin inkişafı sahəsində həyata keçirilən tədbirlərdən bəhs edən spiker Sahibə Qafarova dedi ki, bu sessiyada, yəni keçən 4 ayda Milli Məclisin 85 deputatı 33 ölkəyə 213 səfər həyata keçirib, üzv olduğumuz beynəlxalq təşkilatların hamısının toplantılarında iştirak və çıxış ediblər. Milli Məclisin deputatları həmçinin Türkiyədə keçirilən prezident və parlament seçkilərini, habelə Qazaxıstanda və Bolqarıstanda keçirilən parlament seçkilərini müşahidə ediblər. Ötən sessiyada 41 ölkənin və 7 beynəlxalq təşkilatın 67 nümayəndə heyəti, ümumən 343 nəfər xarici qonaq Milli Məclisdə olub.

Spiker Sahibə Qafarova ötən sessiyada 5 ölkəyə rəsmi və 6 ölkəyə işgüzar səfərlər etdiyini, Milli Məclisdə isə 17 ölkənin parlament sədrləri və sədr müavinləri, 5 beynəlxalq parlament təşkilatının rəhbərləri, 1 ölkənin icra hakimiyyəti orqanının nümayəndəsi, 5 dövlətin Azərbaycandakı səfirləri ilə görüşlər keçirdiyini bildirdi. Görüşlərdə aparılan danışıqlarda ikitərəfli və çoxtərəfli parlamentlərarası əlaqələr və digər məsələlər müzakirə edilib.

3 ölkənin qanunvericilik orqanları ilə Milli Məclis arasında əməkdaşlıq haqqında saziş və anlaşma memorandumları imzalanıb. Eyni zamanda Azərbaycan Respublikasının Milli Məclisinin Sədri Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi ilə Türkdilli Dövlətlərin Parlament Assambleyası, Ərəb Parlamenti, ASEAN Parlamentlərarası Assambleyası arasında əməkdaşlıq haqqında anlaşma memorandumları da imzalanıb. Bundan başqa Türk Dövlətlərinin Parlament Assambleyasında Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinə müşahidəçi statusu verilib, TÜRKPA isə Parlament Şəbəkəsində müşahidəçi statusu almaq üçün müraciət edib.

Milli Məclisin Sədri bildirdi ki, mayın 22-də Azərbaycan parlamenti böyük bir beynəlxalq tədbirə evsahibliyi edib. Belə ki, Milli Məclisin və ATƏT-in Parlament Assambleyasının birgə təşkilatçılığı ilə "Yaşıl iqtisadiyyat, nəqliyyat əlaqələndirilməsi və dayanıqlı inkişaf vasitəsilə təhlükəsizlik və sabitliyin təşviqində milli parlamentlərin rolu" mövzusunda keçirilən konfransda ATƏT-in üzvü olan 27 ölkənin və 4 beynəlxalq təşkilatın nümayəndələri iştirak ediblər.

Milli Məclisin yaz sessiyasını uğurla başa çatdırdığını deyən spiker Sahibə Qafarova bununla əlaqədar deputatlara səmərəli iş üçün təşəkkür etdi. Çıxışının sonunda parlamentin Sədri Milli Məclisin 2023-cü il yaz sessiyasını bağlı elan etdi və Dövlət himni səsləndirildi. Bununla da Milli Məclisin 2023-cü il yaz sessiyasının sonuncu plenar iclası başa çatdı.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



# Quruculuğun Kəlbəcər təntənəsi

**Kəlbəcəri azadlığına qovuşduraraq bu ulu diyarın sakinlərinin 27 illik yurd həsrətinə son qoyan Müzəffər Ali Baş Komandan İlham Əliyev hələ 2021-ci ilin avqustunda Azərbaycanın qərb qapısına etdiyi qalibiyyət səfəri zamanı bu bölgəni cənnətə çevirəcəyini bəyan etmişdi. Qalib lider illərdir yurdlarına həsrət qalan kəlbəcərlilərə əzəli torpaqlarında tezliklə yeni firavan həyata başlayacaqlarının xoş xəbərini çatdırmışdı.**

Ölkə rəhbərinin bu müjdəsinin üzərindən ötən qısa zaman ərzində Kəlbəcərdə misilsiz quruculuq bərpa işləri həyata keçirilib, yeni-yeni sosial-iqtisadi obyektlərin təməlləri atılıb, uğurlu açılışlar edilib, hamısı da xilaskar lider İlham Əliyevin iştirakı ilə...

Kəlbəcərlilərin həyatında ən əlamətdar günlərdən biri isə bu il mayın 27-si tarixində yaşandı. Azadlığından sonra artıq üçüncü dəfədir ki, yolunu Kəlbəcərdən salan İlham Əliyev Müstəqillik Günü ərəfəsində ərazi baxımından Azərbaycanın ən böyük rayonunda ilk kəndlərin, eləcə də Kəlbəcər şəhərində ilk yaşayış məhəlləsinin əbədi bünövrəsini qoydu.

## Qayıdışa möhtəşəm hazırlıq

İşğaldan azad edilən bütün ərazilərdə olduğu kimi, Kəlbəcərə də Böyük qayıdışla bağlı həyata keçirilən bütün işlər birbaşa dövlət başçısı İlham Əliyevin nəzarəti altında həyata keçirilir.

2021-ci il avqustun 16-da Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə birgə Kəlbəcərə ilk səfərini edən Prezident İlham Əliyev Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murov dağında inşa olunacaq 11,6 kilometrlik, Kəlbəcər-Laçın avtomobil yolu üzərində tikiləcək 3,4 kilometr uzunluğundakı tunellərin təməlini qoyub, 110/35/10 kV-luq "Kəlbəcər" yarımstansiyasını işə salıb, uzunluğu 51 kilometr olan İstisu-Minkənd yolunun çəkilməsi işlərinin gedişi ilə maraqlanıb.

2022-ci il 26 iyunda - Silahlı Qüvvələr Günündə yenidən Kəlbəcərə yollanan Müzəffər Ali Baş Komandan Kəlbəcər şəhərinin müfəssəl hazırlanmış baş planı ilə tanış olub, torpaqlarımızı işğaldan azad edən rəşadətli ordumuzun qəhrəmanlığını özündə əks etdirən Kəlbəcər Zəfər və İşğal muzeylərinin əsasını qoyub. Həmin gün Kəlbəcərin rəmzi sayılan "İstisu" sanatoriyasının və "İstisu" mineral su zavodunun da təməlləri atılıb.

Kəlbəcər rayonunda yeni tikilmiş "Kəlbəcər-1" Kiçik Su-Elektrik Stansiyasının açılışında iştirak edən dövlət başçısı Kəlbəcər Rəqəmsal İdarəetmə Mərkəzinin təməlini qoyub, tikilməkdə olan "Çıraq-1" Kiçik Su-Elektrik stansiyasında olub.

## Təməlləri yenidən qoyulan kəndlər

Prezident İlham Əliyevin birbaşa nəzarəti altında Kəlbəcərdə hərtərəfli işlər sürətlə davam etdirilir. Çətin relyefli olan bu ərazidə infrastruktur layihələr gerçəkləşdirilir, yollar, tunellər çəkilir, su-elektrik stansiyaları qurulur, bir sözlə, kompleks işlər görülür.

Vətən müharibəsinin üzərindən ötən iki il yarım müddət ərzində Kiçik Qafqazın xəzinələr diyarı Kəlbəcərdə həyata keçirilən işlər isə ölkə rəhbərinin bu rayona səfərləri zamanı əyani şəkildə gözlər önünə sərilir. Elə Prezident İlham Əliyevin mayın 27-də Kəlbəcərə növbəti səfəri də mühüm açılışlarla, yeni bünövrələrin qoyulması ilə əlamətdar oldu.

27 mayda kəlbəcərlilərə ard-arda möhtəşəm bayram hədiyyələri edən dövlət başçısı Kəlbəcər şəhərində ilk yaşayış məhəlləsinin təməlini qoydu. Bu yaşayış məhəlləsi 3,26 hektar ərazidə layihələndirilib. Məhəllədə dördmərtəbəli 3 və ikimərtəbəli 10 yaşayış binasının inşası nəzərdə tutulur. Burada 112 mənzildə ümumilikdə 460 nəfərdən çox sakin yaşayacaq. Məhəllədəki məktəbin ətrafında salınacaq yaşıllıq ərazi ictimai məkan funksiyasını yerinə yetirməklə əhalinin asudə vaxtının səmərəli keçirilməsinə xidmət edəcək. Diqqətə çatdırıldı ki, yaşayış binalarının memarlıq layihəsi ərazinin relyef xüsusiyyətlərini əks etdirməklə Alp üslubunda işlənib.

Zəfərdən sonra Qarabağ və Şərqi Zəngəzurun təhsil müəssisələri sürətlə tikilir. Xatırladaq ki, 2021-ci il Müstəqillik Günündə Ağdamda Qarabağın ən qədim məktəblərindən birinin bünövrəsini qoyan qurucu lider İlham Əliyev mayın 27-də - builki Müstəqillik Günü ərəfəsində Kəlbəcər şəhərində 960 şagird yerlik məktəb binasının təməlini atdı. 41 sinifdən ibarət olacaq məktəb binası ən müasir standartlara uyğun inşa olunacaq.

Səfər çərçivəsində Prezident İlham Əliyev Kəlbəcər rayonunun Yanşaq kəndinin təməlini də qoydu. Kənddə ümumilikdə 421 ailənin məskunlaşması nəzərdə tutulub. Birinci mərhələdə kəndə 218 ailənin köçürülməsi üçün birmərtəbəli fərdi evlərin inşası planlaşdırılır. Tikiləcək 218 evin 50-si ikiotaqlı, 112-si üçotaqlı, 41-i dördotaqlı, 15-i isə beşotaqlı olacaq. Burada, həmçinin 264 şagird yerlik məktəb, 80 yerlik uşaq bağçası tikiləcək.

Həmin gün dövlət başçısı Kəlbəcər rayonunun Zallar kəndinin də təməlini qoydu. Kənddə ümumilikdə 487 ailənin məskunlaşması nəzərdə tutulub. Birinci mərhələdə kəndə 350 ailənin köçürülməsi üçün birmərtəbəli fərdi evlərin inşası planlaşdırılır. Tikiləcək 350 evin 100-ü ikiotaqlı, 167-si üçotaqlı, 57-si dördotaqlı, 26-sı isə beşotaqlı olacaq. Burada, həmçinin 360 şagird yerlik məktəb, 120 yerlik uşaq bağçası inşa ediləcək.

Təməlləri qoyulan hər iki kənddə əhalinin məşğulluğunun və istirahətinin təmin edilməsi üçün hər cür şərait yaradılacaq, geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək. Burada evlərin və küçələrin işıqlandırılmasında "yaşıl enerji"dən istifadə olunacaq.

## Yollar, tunellər, körpülər, qovşaqlar

Kəlbəcər həm də su-elektrik stansiyalarının tikintisi üçün çox əlverişli bölgədir. Dövlət başçısının sözügedən tarixdəki səfəri zamanı rayonda iki su-elektrik stansiyasının - "Qamışlı" Kiçik Su-Elektrik Stansiyasının və "Meydan" Kiçik Su-Elektrik Stansiyasının açılışı həyata keçirildi.

Həmçinin səfər çərçivəsində ölkə Prezidenti uzunluğu 82 kilometr olan Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunda inşa edilmiş tunellər və 2021-ci ilin noyabrından 2023-cü ilin mayınadək ümumilikdə bu yolda və uzunluğu 76 kilometr olan Kəlbəcər-Laçın avtomobil yolunda görülən işlərlə tanış oldu.

I, II və III texniki dərəcəli Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolu iki, üç və dörd hərəkət zolağından ibarət olacaq. Bu yolun üzərindəki 5 tunelin ümumi uzunluğu 25,9 kilometrdir. Tunellərin 12,3 kilometrlik hissəsində qazma işləri tamamlanıb. Buradakı ən uzun tunel Murov dağının altından keçir. Həmin tunelin uzunluğu 11,6 kilometrdir.

Kəlbəcər-Laçın avtomobil yolu isə mövcud yoldan 33,1 kilometr qısadır. I və II texniki dərəcəli bu yol ikizolaqlı və dördzolaqlı olmaqla inşa edilir. Bu yolun üzərində 17 tunelin inşası nəzərdə tutulur. Tunellərin ümumi uzunluğu 13,3 kilometrdir. Bundan başqa, yol üzərində ümumi uzunluğu 4,1 kilometr olan 23 körpü və ümumi uzunluğu 1076 metr təşkil edəcək 3 qovşaq inşa olunacaq.

## Qərb qapımız keçilməzdir

Kəlbəcər həm də Azərbaycanın qərb qapısı sayılır. 1993-cü ildə bu rayonun işğal altına düşməsi nəticəsində digər rayonlarımızın da asanlıqla düşmən əlinə keçməsinin ağrı-acılı nəticəsini görmüşük. Buna görə də strateji mövqeyə malik Kəlbəcərdə dövlət sərhədlərimizin toxunulmazlığı, əhalinin təhlükəsizliyinin təmin olunması istiqamətində hərtərəfli işlər həyata keçirilir.

Xatırladaq ki, ötən il Silahlı Qüvvələr Günündə Müzəffər Ali Baş Komandan İlham Əliyev Kəlbəcərdə yeni yaradılmış Komando hərbi hissəsinə döyüş bayrağının verilməsinə həsr olunmuş təntənəli mərasimdə iştirak etmişdi.

Bu il mayın 27-də isə qalib lider Kəlbəcərdə hərbi hospitalın açılışında iştirak etdi, burada yaradılan şəraitlə tanış oldu. 3,6 hektar ərazidə salınan Kəlbəcər hərbi hospitalı sülh dövrü üçün 180 çarpayılıqdır. Döyüş vəziyyəti zamanı çarpayı sayını 300-dək artırmaq mümkündür.

Göründüyü kimi, artıq Kəlbəcərdə yeni həyat qaynayır, üç ildir ki, heyvandarlıqla, arıçılıqla məşğul olan təsərrüfatlarımızın Kəlbəcər yaylaqlarına köç etməsi isə buna ən parlaq nümunələrdəndir.

İndi hər ötən an kəlbəcərli keçmiş məcburi köçkünləri Böyük qayıdışa yaxınlaşdırır. Tezliklə, illər əvvəl ağlaya-ağlaya yurdunu tərk edən Kəlbəcər eli də, elə bu il mayın 28-də, bayram günündə xilaskarları İlham Əliyevlə birgə gülə-gülə yurdlarına dönən laçınlılar kimi cənnətməkanlarında xoşbəxt ömür sürməyə dönəcək...

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Qardaş xalqın tarixi seçimi

## Rəcəb Tayyib Ərdoğan Türkiyəni daha yüksək zirvələrə aparacaq



Türkiyədə seçki həyəcanı geridə qaldı. Qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğan seçkinin ikinci turunda seçicilərin 52,16 faizinin səsini toplayaraq növbəti dəfə Türkiyə Cümhiriyyətinin Prezidenti seçildi. Kifayət qədər gərgin keçən seçki marafonunda Türkiyə xalqının milli iradəsi qalib gəldi. Məhz xalqın istədiyi Lider seçilərək, ölkənin taleyinə görə növbəti 5 il ərzində də məsuliyyəti öz üzərinə götürdü. Beləliklə, 2001-ci ildə - qurulduqdan cəmi bir il sonra təkbaşına iqtidara sahib olaraq son 21 il ərzində Türkiyədə birinciliyini qoruyan Ədalət və İnkişaf Partiyası (AKP) hakimiyyətdə qaldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rəcəb Tayyib Ərdoğana seçkidəki qələbəsi münasibətilə ünvanladığı təbrik məktubunda da qeyd edildiyi kimi, milli iradənin təntənəsi olan səsvermənin nəticələri Türkiyənin hərtərəfli inkişafı yolunda Rəcəb Tayyib Ərdoğanın qətiyyətlə həyata keçirdiyi genişmiqyaslı siyasətə və onun əvəzsiz xidmətlərinə verilən ən ali qiymətdir: "Çağdaş dövrümüzün səhifələrinə qızıl hərflərlə həkk olunmuş fəaliyyətiniz Vətənə, xalqa, Türk elinə hədsiz sevginin, bağlılığın və sədaqətin bariz ifadəsidir. Son iyirmi il ərzində qardaş Türkiyə Respublikası Sizin liderliyiniz sayəsində böyük və şərəfli inkişaf yolu keçərək beynəlxalq aləmdə proseslərə həlledici təsir göstərən güc mərkəzinə çevrilmiş, söz sahibi olmuş, siyasi, iqtisadi, sənaye, hərbi, yeni texnologiyalar və digər sahələrdə mühüm nailiyyətlər əldə etmişdir. Sizin tarixi missiyanızın əsas qayəsini təşkil edən qüdrətli və nüfuzlu Türkiyə Respublikasının uğurları qardaş ölkə olaraq bizi də olduqca qürurlandırır".

### Vətən sevgisi qalib gəldi

Türkiyədə keçirilən prezident seçkisinə bütün dünyada çox böyük maraq vardı. Çünki son seçkilərdən qardaş ölkənin gələcək siyasi-iqtisadi mənzərəsi, strateji yönümü, qlobal mövqeyi, xarici və daxili təhdidlər qarşısında dayanıqlılığı çox asılı idi. AK Partiyasının və bu partiyanın Lideri Rəcəb Tayyib Ərdoğanın hakimiyyətdə olduğu illərdə Türkiyə böyük gücə çevrilib. Qardaş ölkə beynəlxalq proseslərdə, qlobal arenada ciddi rol oynayır və ölkələr arasında həm hərbi qüdrəti, həm iqtisadi potensialı ilə çox yüksək nüfuza malikdir. Bütün sahələrdə sürətli inkişaf tempi ilə bu nüfuzun getdikcə yüksəldiyini görürük.

Bu seçkilər qlobal iqtisadiyyatın önəmli bir hissəsi kimi son dövrlər dünyanın əksər ölkələrində olduğu kimi, Türkiyədə də özünü göstərən bəzi sosial-iqtisadi çətinliklər zamanında baş verirdi. Üstəlik, qardaş ölkə cəmi bir neçə ay əvvəl bir çox vilayətlərində çoxsaylı insan tələfatı ilə nəticələnmiş təbii fəlakətin - zəlzələnin sarsıntısından yenicə çıxır. Digər tərəfdən, Türkiyənin son onilliklərdə beynəlxalq gücə çevrilməsini sinirə bilməyən, bunun məhz Rəcəb Tayyib Ərdoğanın liderlik keyfiyyətləri, verdiyi strateji qərarlar, sarsılmaz iradəsi sayəsində mümkün olduğunu yaxşı bilərək hər vəchlə ona mane olmağa çalışan, seçki yolu ilə onu hakimiyyətdən kənarlaşdırmağa can atan xarici təsirlər də kifayət qədər idi. Bütün bu səbəblər qısamüddətli seçki rəqabətində Rəcəb Tayyib Ərdoğanın rəqiblərinin xeyrinə işləyir, seçkidə qalib olma şanslarını artırırdı. Bununla belə seçkinin qalibi yenə də sağlam məntiq, Türkiyənin bu günü və gələcəyinə strateji baxış, Türkiyə xalqının həlledici hissəsinin məsələlərə düzgün yanaşması, ən əsası isə, Türk insanının sonsuz Vətən sevgisi oldu.

### Qüdrətli Türkiyənin Lideri

Türkiyədəki seçkilər Azərbaycanda xüsusilə böyük diqqət və həyəcanla izlənilirdi. Xalqımız qardaş ölkəni növbəti illərdə də qlobal güc kimi ayaqda saxlaya biləcək, beynəlxalq nüfuzunu qoruyacaq, onu sosial-iqtisadi böhrandan çıxararaq inkişaf xəttini davam etdirə biləcək liderin qalib olmasını arzulayırdı. Azərbaycanda əksəriyyətin qəlbindəki namizəd məhz Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan idi.

İlk növbədə ona görə ki, Azərbaycan xalqı olaraq bizim daim görmək istədiyimiz qüdrətli Türkiyənin son onilliklərdəki ən böyük nailiyyətlərinin müəllifi məhz Rəcəb Tayyib Ərdoğandır. Bu illər ərzində qardaş Türkiyə məhz Rəcəb Tayyib Ərdoğanın liderliyi sayəsində böyük və şərəfli inkişaf yolu keçib, dünyada həlledici söz sahibi olub. Siyasi, iqtisadi, sənaye, hərbi, yeni texnologiyalar və digər istiqamətlərdə mühüm nailiyyətlər qazanıb. Bugünkü Türkiyənin mənzərəsi Cümhurbaşqanı R.T.Ərdoğanın uğurla yerinə yetirdiyi tarixi missiyanın nəticəsidir. Hazırda dünya çapında söz sahibinə çevrilmiş Türkiyə bölgəmizdə də sülhün, sabitliyin, təhlükəsizliyin əsas qarantıdır. R.T.Ərdoğanın Prezident seçilməsi yaxın illərdə də bu qardaş ölkənin regionla bağlı strateji siyasətini davam etdirəcəyi, bölgədə barışın, dayanıqlı inkişafın, əməkdaşlığın təmin olunması üçün çalışacağı deməkdir.

Qardaş ölkə böyük türk dünyasının birləşməsi işində də çox əhəmiyyətli rol oynamaqdadır. Bu rol müxtəlif istiqamətlərdə özünü göstərir. Bunlardan birincisi Türkiyənin öz inkişaf səviyyəsi ilə digər türk dövlətləri üçün yaratdığı faydalı təsirlərdən, təqdim etdiyi inkişaf örnəklərindən irəli gəlir. Sirr deyil ki, bu gün əksər türk ölkələrinin, eləcə də bir çox müsəlman Şərq dövlətlərinin müsbət mənada təsirləndikləri, inkişaf baxımından el dilimizdə desək, görüb-götürdükləri əsas mərkəz məhz Türkiyədir. Belə təsirləri biznesdə, təhsildə, səhiyyədə, mədəniyyətdə və cəmiyyət həyatının bütün əhəmiyyətli sahələrində aydın şəkildə görmək olar. Bu da təbiidir. Çünki bir tərəfdən inkişaf proseslərini yönəldən peşəkar kadrların müəyyən qismi Türkiyə universitetlərində yetişir, digər tərəfdən Türkiyə vasitəsilə, geniş işlənmə arealına malik türk dili vasitəsilə və Türkiyənin güclü mediasının, eləcə də son onilliklərdə müstəsna dərəcədə güclənmiş film sənayesinin təsiri ilə daxil olan inkişaf axınları türk-müsəlman cəmiyyətləri üçün daha doğma və realdır. Türkiyədə özünü doğrultmuş mütərəqqi təcrübələr, inkişaf nümunələri sürətlə başqa ölkələrdə də yayılır və fayda verir. Bütün bunlarla Türkiyə amili türk dünyası üçün bağlantıya çevrilir.

### Türk dünyasının birliyi

Türkiyə son illər qurulmasında, inkişafında, nailiyyətlərində Azərbaycanın da yaxından iştirak etdiyi Türk Şurası vasitəsilə türk dünyasının birləşməsinə, türkdilli ölkələrin birliklərinin gücü ilə bütün dünyada təsiredici gücə çevrilməsinə mühüm töhfələr verir. Təsadüfi deyildir ki, bu ilin martında türk dövlətlərinin Ankarada keçirilmiş fövqəladə Zirvə toplantısında da bütün türk dövlətləri Rəcəb Tayyib Ərdoğana öz dəstəklərini, hörmət və ehtiramlarını, türkdilli ölkələrin liderlərinin ümumi həmrəyliyini bildirmişdilər. Bununla dolayısı ilə qardaş Türkiyənin növbəti illərdə də məhz R.T.Ərdoğanın liderliyi ilə ümumi hədəflərə doğru yürüməsu istəklərini ifadə etmiş oldular. Böyük coğrafiyaya, mühüm potensiala, zəngin təbii qaynaqlara, hərbi gücə malik türk dünyasının birləşməsində Rəcəb Tayyib Ərdoğanın tarixi xidmətləri danılmazdır.

Bu gün Türkiyə Avrasiyanın ticarət, enerji, nəqliyyat mərkəzidir. Türkiyənin gündən-günə artan qüdrəti qardaş ölkə ilə yanaşı, Türkiyənin müttəfiqlərini də gücləndirir. Qüdrətli Türkiyə Ordusu bu gün dünya çapında öndə olan ordular sırasındadır. Türkiyənin müdafiə sənayesi hazırda bütün dünyada qəbul edilir. Ən inkişaf etmiş, çağdaş və modern müdafiə sənayesi həm Türkiyəni, həm digər türkdilli ölkələri, o cümlədən Azərbaycanı gücləndirir və regionda sülh, təhlükəsizlik və inkişaf mühitini təmin edir.

### Strateji müttəfiqlik

Ümummilli Lider Heydər Əliyevin məşhur kəlamında ifadə etdiyi "Bir millət, iki dövlət" prinsipinə sadiq qalan Azərbaycan və Türkiyə bu gün bütün dünyada qarşılıqlı güvənin, bütün diplomatik münasibətlərin, ikitərəfli əlaqələrin fövqündə olan doğmalığın mükəmməl örnəyini yaradır. Müasir dünyamızda bir-birinə Azərbaycan və Türkiyə qədər yaxın olan başqa dövlətlər yoxdur və belə dövlətləri təsəvvür etmək hətta mümkün deyil. Tarixən qırılmaz tellərlə bir-birinə bağlı olan xalqlarımızın iradəsindən qaynaqlanan Azərbaycan-Türkiyə əlaqələri dünyada bənzərsizdir. Dövlətimizin başçısı İlham Əliyevin də bəyan etdiyi kimi, sarsılmaz dostluq və qardaşlığımız, qarşılıqlı faydalı əməkdaşlığımız, birgə gerçəkləşdirdiyimiz irimiqyaslı layihələr strateji müttəfiqliyimizi səciyyələndirən mühüm amillər olmaqla yanaşı, eyni zamanda regional əməkdaşlığın, təhlükəsizliyin və sabitliyin onurğa sütununu təşkil edir. Əlaqələrimizin bu səviyyəyə yüksəlməsində ortaq tarixi keçmişimiz, qan bağlarımız, mədəniyyətimizin, dilimizin, dinimizin, inancımızın birgəliyi ilə yanaşı, dövlət rəhbərlərimiz arasındakı qardaşlıq münasibətlərinin, bir-birinə qarşılıqlı inam, güvən və rəğbətin də çox böyük rolu var.

44 günlük Vətən savaşımızda, torpaqlarımızı işğaldan azad etmək uğrunda apardığımız haqq savaşında şəxsən Rəcəb Tayyib Ərdoğanın, qardaş Türkiyə dövləti və xalqının qəti, birmənalı siyasi və mənəvi dəstəyi xalqımız tərəfindən həmişə böyük minnətdarlıq hissi ilə xatırlanır və xatırlanacaq. Türkiyə Prezidenti 44 günlük Vətən müharibəmizin ilk dəqiqələrindən sonuna qədər Azərbaycanın yanında oldu. Dünyaya mesajları, bəyanatları ilə Azərbaycanın bu davada tək olmadığını göstərdi. Türkiyə Prezidentinin o tarixi günlərdə ortaya qoyduğu qətiyyət Azərbaycanı haqq yolundan çəkindirmək istəyi ilə min fitnə-fəsada, təzyiq üsuluna əl atanlara yerlərini göstərdi. Xalqımızın ruh yüksəkliyini, ordumuzun qələbə əzmini daha da yüksəltdi. Torpaqlarımızı işğaldan azad edərək tarixi zəfərimizə imza atdıq.

Bakıda keçirilən Zəfər paradında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Prezidenti ilə yanaşı durması da iki dövlət, iki xalq, iki lider arasındakı qardaşlıq münasibətlərinin təntənəsi idi. Tarixi zəfərimizdən sonra Azərbaycan və Türkiyə arasında imzalanan Şuşa Bəyannaməsi ilə münasibətlərimiz strateji müttəfiqlik səviyyəsinə yüksəldi. Bu tarixi bəyannamənin Qarabağın tacı, zəfərimizin rəmzi olan Şuşada imzalanmasının da xüsusi önəmi var. Türkiyə bu gün azad torpaqlarımızda həyata keçirilən bərpa və quruculuq işlərində də müxtəlif şirkətləri ilə yaxından iştirak edir. Yaxın vaxtlarda Azərbaycanda "Bayraktar" mərkəzinin yaradılması, orada təhsil, xidmət, istehsal proseslərinin qurulması nəzərdə tutulur. Azərbaycan və Türkiyə arasında kommunikasiyalar güclənir, cəmiyyətlərimiz bir-birinə daha da yaxınlaşıb doğmalaşır. Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana göndərdiyi məktubunda deyilir: "...Xalqlarımızın zamanın sınaqlarından şərəflə çıxmış dostluğu və qardaşlığı, Azərbaycan-Türkiyə birliyi və müttəfiqliyi "Bir millət iki dövlət" və "Bir yumruq" fəlsəfələrinin ruhuna uyğun olaraq bundan sonra da birgə səylərimizlə yüksələn xətt üzrə davam edəcək və daha da möhkəmlənəcəkdir".

Türkiyə xalqının ortaya qoyduğu milli iradə, cənab Rəcəb Tayyib Ərdoğanın növbəti müddətə Türkiyə Prezidenti seçilməsi Azərbaycan və Türkiyənin birgəliyi ilə bölgədə yaranan böyük gələcəyə işıq salır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***




# Ermənilərin bir şansı var

## İlham Əliyev Laçın zirvəsindən Hayastana, revanşistlərə yeganə qurtuluş yolunu göstərdi

"Biz öz doğma torpağımızdayıq və bu gün ermənilərin yaşadıqları Qarabağ bölgəsi bizim əzəli, hüquqi torpağımızdır. Sadəcə olaraq, biz hesab edirik ki, onlar özləri başa düşəcəklər, özləri gəlib Azərbaycan bayrağı altında yaşamağa addım atacaqlar. Biz bunu gözləyirik. Ona görə hər hansı bir başqa addım atmırıq və hesab edirəm ki, iki il yarım ərzində baş vermiş hadisələr artıq onları da oyatmalıdır, bu yuxudan, bu xülyadan ayıltmalıdır".

Mayın 28-də Laçın şəhərinə qayıdan əhali ilə görüşdə Müzəffər Ali Baş Komandan İlham Əliyev bir daha Ermənistan rəhbərliyinə, revanşist qüvvələrə, Azərbaycan torpaqlarında yaşayan erməni xalqına və işğalçını boş yerə həvəsləndirib son anda arxasında durmayan havadarlarına həm ciddi xəbərdarlıq etdi, həm də düşdükləri acınacaqlı durumdan qurtuluş yolunu göstərdi.

### Hayastanın başqa yolu yoxdur, müstəqillik xülyası "status"un dalınca gedib

İşğalçı Hayastanla Azərbaycan arasında 30 il davam edən keçmiş Qarabağ münaqişəsinə son qoyulsa da, hələ də tərəflər arasında sülh müqaviləsinin imzalanmaması regionda sabitliyin təmin olunmasına rəvac vermir. Bunun da yeganə səbəbi cəmi 44 günə Azərbaycan qarşısında diz çöküb savaşın dayandırılmasını xahiş edən Hayastanın cəfəng iddiaları, bəhanələri və hərbi təxribatlarıdır.

Tərəflər arasında artıq sülh danışıqları da intensivləşib. Demək olar ki, sülh sazişinin imzalanması üçün o qədər də ciddi problem qalmayıb. Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edib. Əgər Hayastan İlham Əliyevin irəli sürdüyü 5 prinsipi qəbul etsə, yaxın zamanlarda sülh sazişi imzalana bilər.

Ancaq Hayastan rəhbərliyinin Qarabağda yaşayan ermənilərə əlavə "status"un verilməsi məsələsini gündəmə gətirməsi sülh danışıqları prosesinə mane olur. Çünki artıq "status", "müstəqillik" məsələləri müzakirə mövzusu deyil. İlham Əliyev bunu dəfələrlə vurğulayıb ki, belə bir hal baş verməyəcək. Qarabağda yaşayan ermənilər Azərbaycan vətəndaşlarına verilən hüquqlardan tam yararlanmaq imkanına malik olacaqlar. Bundan başqa, hansı xüsusi imtiyaz ola bilər ki?!

Qalib Komandan Laçından verdiyi bəyanatda bir daha haylara bunu xatırlatdı: "Sizin kitabınız bağlandı. "Miatsum" kitabı bağlandı, separatizmin kitabı bağlandı. Müstəqillik xülyası statusun dalınca getdi. Statusu isə biz hələ İkinci Qarabağ müharibəsi zamanı göndərmişik lazım olan yerə. Ona görə, yeganə yol qalıb - Azərbaycan qanunlarına tabe olmaq, Azərbaycanın loyal normal vətəndaşı olmaq, öz dırnaqarası saxta dövlət atributlarını zibil yeşiyinə atmaq..."

İlham Əliyev hesab edir ki, işin gedişatı bunu göstərir, çünki Hayastanın başqa yolu yoxdur.

### "Ya özləri boyunlarını büküb gələcəklər, ya da ki, indi hadisələr başqa cür inkişaf edəcək"

Prezident İlham Əliyev Qarabağdakı qondarma "qurumun" mövcud və gələcək aqibətindən də söz açaraq onlara amnistiyanın düşüb-düşməməsinə də aydınlıq gətirib.

Bəllidir ki, hər zaman olduğu kimi yenə də Azərbaycan təşəbbüs göstərərək Qarabağın erməni əhalisinin nümayəndəliyi ilə görüş keçirib. Müəyyən danışıqlar aparılıb və həmin nümayəndə heyəti Bakıya dəvət edilib. Amma onlar Bakıya gəlməkdən imtina edərək öz bildikləri kimi addım atıblar. Yenə də böyüklük edərək Azərbaycan ikinci dəfə dəvət göndərsə də, nümayəndə heyəti erməni xislətini bir daha nümayiş etdirib.

Bu səbəbdən də artıq qarşı tərəfin atacağı addım, verdiyi qərar Azərbaycanı maraqlandırmır. Qalib tərəf kimi Azərbaycan öz missiyasını yerinə yetirib. Prezident də dedi ki, daha üçüncü dəvət olmayacaq: "Ya özləri boyunlarını büküb gələcəklər, ya da ki, indi hadisələr başqa cür inkişaf edəcək. Ona görə onlara ancaq o halda amnistiya düşə bilər ki, özləri könüllü olaraq bütün saxta vəzifələrini kənara qoyub Azərbaycan vətəndaşlığı üçün müraciət etsinlər. Ona da biz hələ baxacağıq. Mənim sözüm qətidir, bunu hər kəs bilir, həm Azərbaycanda, həm dünyada, o cümlədən Ermənistanda. Nəyi deyiriksə, onu da edirik. Bir dənə də olsun sözümüz, necə deyərlər, havada qalmayıb, bu söz də havada qalmayacaq".

Ermənilər də yaxşı bilirlər ki, sözü imzası qədər keçərli olan İlham Əliyev verdiyi bütün vədləri gerçəkləşdirən, dediyi sözü tez bir zamanda reallaşdıran qüdrətli liderdir. Əgər Azərbaycan Prezidenti hələ də amnistiya məsələsi üçün "işıq ucu" olduğunu deyirsə, deməli ermənilər bu fürsəti qaçırmamalıdırlar. İlham Əliyevin humanist siyasətindən vaxtında yararlanmalıdırlar, sonra gec olacaq. Prezidentin özü də erməni xalqına müraciətində qısaca olaraq dedi ki, amnistiyaya baxmaq olar, bu fürsəti də qaçırmasınlar: "Onlar bir çox fürsətləri qaçırıblar, bir çox fürsətləri və hər dəfə, necə deyərlər, gərək onların başından vuraydıq ki, özlərinə gəlsinlər".

Əlbəttə ki, bu məsələ artıq Azərbaycanın daxili işidir və tarixinin ən qüdrətli dövrünü yaşayan bir ölkənin daxili işlərinə heç bir qüvvə qarışa bilməz. Prezidentin də söylədiyi kimi, Azərbaycan heç vaxt daxili işlərini heç bir ölkə ilə müzakirə etməyəcək. İlham Əliyev hələ bir müddət öncə demişdi ki, Qarabağ bizim daxili işimizdir. Qarabağda yaşayan ermənilər ya Azərbaycan vətəndaşlığını qəbul etməlidirlər, ya da özləri üçün başqa yaşayış yeri tapmalıdırlar.

Təbii ki, bu gün ermənilərin yaşadıqları Qarabağ əzəli və hüquqi torpağımızdır. Ermənilər də bunu dərk edir və yaxşı bilirlər ki, Azərbaycan dövləti qarşısına qoyduğu məqsədə çatmaq üçün istənilən addımı atmağa qadirdi. Sadəcə olaraq, İlham Əliyev hesab edir ki, onlar özləri başa düşəcəklər, özləri gəlib Azərbaycan bayrağı altında yaşayacaqlar.

### Sülh müqaviləsi beynəlxalq şərtlər əsasında imzalanmalı, Naxçıvana yolumuz açılmalıdır

Prezident həmçinin sərhədlərin delimitasiya prosesinə bir daha aydınlıq gətirdi. Hayastana sonuncu xəbərdarlığını ünvanlayan İlham Əliyev bildirdi ki, hələ gec deyil, nə qədər ki, Ermənistanın de-fakto olmasa da, hüquqi cəhətdən müstəqilliyi var, hələ ki Hayastanın sərhədləri anlayışı müəyyən mənada qəbul edilir. Onlar Azərbaycanın şərtlərini qəbul etməlidirlər: "Delimitasiya istəmirlərsə, olmasın delimitasiya. Onda nə olacaq, harada desək, sərhəd də orada olacaq. Onlar bilirlər ki, biz bunu edə bilərik. Heç kim onlara kömək etməz, nə Avropadan gələn pensiyaya çıxmış Fransa polisləri, nə də başqaları, heç kim".

Göründüyü kimi, yenə də gündəliyi Azərbaycan Prezidenti ortaya qoyur. Bütün ağrılı məqamlara, işğala, törədilmiş erməni vəhşiliklərinə baxmayaraq, İlham Əliyev bölgənin gələcəyi naminə sülh gündəliyi təqdim edir. Ermənistanın düşdüyü sosial-iqtisadi bataqlıqdan qurtulması üçün yol göstərir.

Ona görə delimitasiya Azərbaycanın şərtləri əsasında, yəni ədalətli şərtlər əsasında olmalıdır. Sülh müqaviləsinə gəldikdə isə bu sənəd də beynəlxalq şərtlər əsasında hazırlanmalı və sonra imzalanmalıdır. Bunun tərkibində İlham Əliyevin irəli sürdüyü 5 prinsip öz əksini tapmalıdır. Həmin şərtlərə əsasən, Şərqi Zəngəzurdan Naxçıvana yol açılmalı və Qarabağda hələ də kök salmış Ermənistan ordusunun nümayəndələri oradan çıxarılmalıdır.

Bu, Azərbaycan Prezidentinin dəyişməz şərtləridir və Qalib Komandan kimi İlham Əliyev Laçın zirvəsindən bir daha həmin şərtləri ermənilərə çatdırdı: "Bu şərtləri, bax burada, Laçın şəhərində deyirəm ki, hər kəs görsün ki, biz bu gün buradayıq və burada əbədi olacağıq. Onu da bilsinlər ki, Ermənistan kəndləri buradan görünür. Biz də görürük o kəndləri, yəni onu da unutmasınlar".

İlham Əliyev bu mesajı ilə haylara yeganə çıxış yolunu göstərdi. Ya 5 prinsipi qəbul edib sülh sazişi imzalamaqla bərabər yaşamalı, ya da Azərbaycan torpaqlarından birdəfəlik rədd olub başqa yaşayış yeri axtarmalıdırlar...

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

---

## 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür

# Təbəssümlə, şirin sözlə onları xoşbəxt etmək olar



Bu günün qeyd olunması 1950-ci il iyunun 1-də Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyası tərəfindən qərara alınıb. Həmin gün təşkil edilən "Qadınların Beynəlxalq Konfransı"nda uşaq hüquqlarının təmin edilməsi ilə bağlı təkliflər irəli sürülüb. 1 iyun tarixini uşaqların beynəlxalq müdafiəsinə həsr etmək qərarı da həmin tədbirdə verilib. O vaxtdan hər il iyunun 1-i Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi dünyanın əksər ölkələrində qeyd edilir.

Bu əlamətdar gün - Uşaqların Beynəlxalq Müdafiəsi Günü uzun illərdir Azərbaycanda da geniş qeyd olunur. Respublikamızda indiyədək uşaqların müdafiəsi, onlara qayğı göstərilməsi məqsədilə çox işlər görülüb. Azərbaycanda uşaq hüquqlarının müdafiəsi ilə əlaqədar qanunvericilik bazası formalaşıb. Uşaqların sosial və hüquqi müdafiəsi ilə bağlı məsələlər Konstitusiya, qanunverici və normativ-hüquqi aktlarla tənzimlənir. 1998-ci il mayın 19-da "Uşaq hüquqları haqqında" qanun və bəzi digər normativ-hüquqi aktlar qəbul olunub.

### Uşaqlara həsr olunan əlamətdar günlər

İlk dəfə 1924-cü ildə uşaqların hüquqlarını təmin edən bəyannamə qəbul olunub. Bəyannamədə qeyd edilib: "...bəşəriyyət məcburdur ki, uşaqları ən yaxşı şeylərlə təmin etsin". Bu bəyannamənin qəbul olunmasında ilk işlər Eqlantine Gebb tərəfindən həyata keçirilib.

Eqlantine Gebb özü Birinci Dünya müharibəsinin dəhşətlərinin şahidi olub. Elə müharibənin dəhşətlərindən sarsıntıları ona uşaqların xüsusi müdafiəyə nə qədər böyük ehtiyac duyduqlarını anladıb. 1919-cu ildə bacısı Doroti Bakstonun köməyi ilə uşaqlara yardım göstərib, onların müdafiəsini təmin etmək üçün Londonda Uşaqlara yardım fondunun əsasını qoyub.

Uşaqlar yalnız müharibənin qurbanı olmurlar. BMT uşaqlara qarşı altı ən geniş yayılmış hüquq pozuntularını qeyd edib: "Uşaqların yığılması və hərbi əməliyyatlarda istifadə edilməsi; qətl; cinsi zorakılıq; oğurlanması; məktəblərə və xəstəxanalara hücum; uşaqlara humanitar yardım edilməsindən imtina".

BMT Baş Assambleyası tərəfindən 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə yanaşı, onlara həsr olunmuş başqa bir bayram da keçirilir. Belə ki, hər il noyabrın 20-də Ümumdünya Uşaqlar Günü qeyd edilir. Ümumdünya Uşaqlar Günü BMT-nin Baş Assambleyasının 836 (IX) saylı qətnaməsində 1956-cı ildən bütün dövlətlərdə uşaqların şərəfinə keçirilməsi tövsiyə edilən bayramdır.

1959-cu ilin 20 noyabrında BMT tərəfindən "Uşaq Hüquqları Bəyannaməsi", 1989-cu ildə isə "Uşaq Hüquqları Konvensiyası" qəbul edilib.

Bu nüfuzlu beynəlxalq təşkilatın - BMT-nin Uşaq Fondu Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi tərəfindən yaradılan Uşaq Hüquqları Konvensiyası (UHK) uşaqların insan hüquqlarını təsdiq edən ilk icbari hüquqa malik beynəlxalq konvensiyadır.



Məlumata görə, 1989-cu ildən etibarən BMT-yə və ya Cenevrə Konvensiyasına üzv olan ölkələrin sayını üstələyən 193 ölkə tərəfindən ratifikasiya edilmiş UHK demək olar ki, bütün dünyada qəbul olunub.

Hər il iyun ayının 4-ü isə Beynəlxalq Aqressiya Qurbanı olan Uşaqlar Günü kimi qeyd olunur. Həmin gün dünyanın müharibə adlı bəlasının günahsız qurbanlarının xatirəsi yad edilir. 1982-ci il avqustun 19-da BMT-nin Baş Assambleyası Fələstin məsələsi üzrə xüsusi sessiyasında aqressiya və təcavüzün qurbanı olan günahsız uşaqların xatirəsini iyunun 4-ü Beynəlxalq Aqressiya Qurbanı olan Uşaqlar Günü kimi qeyd etməyi qərara alıb. Bu günü təsis etməklə BMT diqqətə çatdırıb ki, müharibələrdə uşaqlar da həlak olurlar. 4 İyun - Beynəlxalq Aqressiya Qurbanı olan Uşaqlar Gününün əsas məqsədi dünyanın fiziki zorakılığa, mənəvi-psixoloji və ruhi təsirə məruz qalan bütün uşaqlarının ağrılarını və əzablarını hiss etmək cəhdidir.

### Uşaqların bayram sevinci

1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Gününü Azərbaycanda uşaqlar böyük sevinc və fərəh hissi ilə bayram edirlər. Uşaq bağçalarında, məktəblərdə bu münasibətlə hər il xüsusi proqramlar hazırlanır.

Uşaqların yüksək qayğı ilə əhatə olunması, əlverişli mənəvi və sosial mühitdə böyüməsi üçün zəruri şəraitin yaradılması, onların şəxsiyyət kimi formalaşması əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət uşaq siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Ümummilli Lider Heydər Əliyev uşaq hüquqlarının müdafiəsi məqsədilə 1998-ci ildə "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununun təsdiqilə bağlı xüsusi fərman imzalamışdır. Qanunda uşaqların hüquq bərabərliyi yaşamaq, təhsil almaq, inkişaf etmək, tərbiyə almaq və digər hüquqları təsbit edilib.

Azərbaycan dövləti gələcəyimiz olan uşaqlara qayğı ilə yanaşır. Prezident İlham Əliyevin ardıcıl səyləri ilə uşaqların sosial müdafiəsinin gücləndirilməsinə, onların sağlam və xoşbəxt böyümələrinə xüsusi diqqət göstərilir. Dövlət başçısı uşaq dövlət siyasətilə bağlı indiyədək silsilə fərman və sərəncamlar imzalamışdır. Azərbaycan Prezidenti 2009-cu ili "Uşaq ili" elan etmişdir.

Son illərdə ölkəmizin paytaxtında və rayonlarda müasir standartlara cavab verən körpələr evi-uşaq bağçaları, məktəblər tikilib istifadəyə verilib. Bu mühüm işlərdə dövlət tərəfindən həyata keçirilən proqramlarla yanaşı, Heydər Əliyev Fondu da xüsusi töhfələr verir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın başçılığı ilə Heydər Əliyev Fondu tərəfindən ölkəmizin hər yerində, o cümlədən Bakı şəhərində minlərlə yeni, müasir uşaq bağçaları, məktəblər tikilərək uşaqların istifadəsinə verilib.

Heydər Əliyev Fondu uşaqların istedadının üzə çıxarılması istiqamətində də təqdirəlayiq işlər həyata keçirir. Fondun dəstəyi ilə uşaqlar arasında musiqi müsabiqələrinin keçirilməsi bu işlərdən biridir.

Dövlətimiz tərəfindən xüsusi qayğıya ehtiyacı olan uşaqlar da unudulmur. Onlara diqqət və qayğı müstəqillik illərində daha da gücləndirilib. Prezident İlham Əliyevin imzaladığı "Xüsusi qayğıya ehtiyacı olan uşaqlara və digər şəxslərə göstərilən sosial xidmətlərin genişləndirilməsi üçün əlavə tədbirlər haqqında" 1 iyun 2019-cu il tarixli Sərəncam qeyd olunan kateqoriyadan olan uşaqlara və reabilitasiya yönümlü sosial xidmətlərə ehtiyac duyan digər qruplara xüsusi qayğının nümunəsidir.

Bu gün - iyunun 1-də bütün dünyada Uşaqları Beynəlxalq Müdafiə Günü qeyd edildiyi bir vaxtda Azərbaycan xalqını çox sevindirən, qürurlandıran bir məqam da var. 2020-ci ildə 44 günlük İkinci Qarabağ müharibəsində otuz ilə yaxın davam edən Ermənistanın işğalına son qoyulan Qarabağ və Şərqi Zəngəzur ərazilərimizdə dövlətimiz tərəfindən geniş və sürətli tikinti, bərpa-quruculuq işləri həyata keçirilir. İşğaldan qurtulmuş yurd yerlərimizdə artıq həyat canlanmağa başlayıb. Yenidən qurulmuş Zəngilanın Ağalı kəndinin, Laçın şəhərinin sakinləri uzun illər həsrət qaldıqları ata-baba yurduna köçüblər. Sakinlər arasında o yerləri ilk dəfə görən uşaqlar da var. Onların sevinc dolu səsləri, gülüşləri ilə Vətən torpaqları da sevinir, canlanır.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# YAP nümayəndə heyəti rəsmi ziyafətdə iştirak edib

Mayın 30-da Çin Xalq Respublikasının Uhan şəhərində "Hubey əyalətində Si Cinpinin yeni dövrdə Çin xüsusiyyətli sosializm haqqında ideyalarının praktik nailiyyətləri" mövzusunda keçirilən təqdimat mərasiminin iştirakçılarının şərəfinə rəsmi ziyafət verilib.

Qonaqları salamlayan Çin Kommunist Partiyası Hubey Əyalət Komitəsi katibinin müavini, Hubey Əyaləti Xalq Hökumətinin qubernatoru Van Conlin Uhanın evsahibliyi etdiyi tədbirin əhəmiyyətindən bəhs edib. O, postpandemiya dövründə daha sağlam bəşəriyyət və xoşbəxt gələcək naminə səylərin birləşdirilməsinin önəmli olduğunu bildirib.

Çin səciyyəli sosializm ideyası əsasında Hubeyin regional inkişaf nümunəsi yaratdığını söyləyən Van Conlin qazanılan təcrübənin dost ölkələrlə bölüşdürülməsinin və qarşılıqlı fikir mübadiləsi aparılmasının faydalı təşəbbüs olduğunu bildirərək tədbir iştirakçılarına minnətdarlıq ifadə edib.

Mərasimdə 30 ölkəni təmsil edən 170-dən çox nümayəndənin adından çıxış edən Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov belə bir mötəbər tədbirə dəvətə və yüksək qonaqpərvərliyə görə YAP nümayəndə heyəti adından təşəkkürünü bildirib. O, bərabərlik, sosial ədalət, ictimai rifah, kollektiv inkişaf və güclü dövlətçilik prinsiplərinə əsaslanan müasir sosializm ideyasının Çin xalqının mənafeyinə xidmət etdiyini, Çin dövlətinin inkişafı üçün yeni imkanlar və perspektivlər yaratdığını söyləyib. Tahir Budaqov Hubey əyalətinin sürətli inkişafının yeni dövr Çin xüsusiyyətli sosializm ideyasının uğurla həyata keçirilməsinin bariz nümunəsi olduğunu qeyd edib: "Bugünkü tədbir də cənab Si Cinpinin yeni dövr üçün müəyyən etdiyi Çin xüsusiyyətli sosializm quruculuğu istiqamətində əldə olunan nailiyyətlərin və mövcud reallıqların təqdimatı, gələcəyə baxış kontekstində yeni yanaşmaların ortaya qoyulması, yeni hədəflərin müəyyənləşdirilməsi üçün böyük əhəmiyyətə malikdir".




Tahir Budaqov Cənubi Qafqazın ən böyük siyasi partiyası olan Yeni Azərbaycan Partiyasının nümayəndə heyətinin Çin Xalq Respublikasına səfərinin önəmindən bəhs edib, keçirilən görüşlərin faydalı və məhsuldar olduğunu diqqətə çatdırıb. "Səfər çərçivəsində istər Azərbaycan-Çin münasibətləri, istərsə də Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında çoxşaxəli əməkdaşlığa dair ətraflı fikir mübadiləsi apardıq", - deyən YAP Sədrinin müavini Azərbaycan ilə Çin arasında müxtəlif sahələri əhatə edən səmərəli və qarşılıqlı faydalı əməkdaşlığın mövcud olduğunu deyib, 44 günlük Vətən müharibəsində qələbə qazanaraq yeni geostrateji reallıqlar yaradan ölkəmizin regionda çoxşaxəli işbirliyinə və inkişafa xidmət edən təşəbbüslərindən bəhs edib, Zəngəzur dəhlizinin bütövlükdə Avrasiya üçün geostrateji əhəmiyyətini diqqətə çatdırıb.

YAP Mərkəzi Aparatının rəhbəri Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyasının əməkdaşlıq əlaqələrinin ölkələrimiz arasında dostluq münasibətlərinin möhkəmlənməsinə mühüm töhfələr verdiyini bildirib.

Çin xüsusiyyətli sosializm ideyası əsasında görülən işlərin ölkənin qüdrətini daha da artıracağına inamını ifadə edən Tahir Budaqov Çin xalqına rifah, firavanlıq və əmin-amanlıq arzulayıb.

# Azərbaycan və Türkiyənin elm adamlarının birgə fəaliyyəti dövrün tələbidir



Mayın 31-də Milli Məclisdə parlamentin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov İstanbul Texniki Universitetinin rektoru İsmayıl Koyuncunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qonaqları salamlayan Sadiq Qurbanov mayın 28-də Türkiyədə keçirilən prezident seçkilərində Prezident Rəcəb Tayyib Ərdoğanın qələbəsinin Azərbaycan xalqını da sevindirdiyini bildirib. O, dünyanın yeni nizamının qurulduğu bir dövrdə iki qardaş ölkənin birliyinin, həmrəyliyinin vacib olduğunu qeyd edib.

Elm və texnologiyanın inkişafının labüd proses olmasından danışan komitə sədri bu kontekstdə "yaşıl enerji"nin əhəmiyyətini vurğulayıb. Hazırda bərpaolunan enerjiyə tələbatın artdığını diqqətə çatdıraraq hər zaman öndə olmaq üçün Azərbaycan və Türkiyənin elm adamlarının səylərinin birləşdirilməsinin vacibliyini qeyd edib.

Ekoloji problemlərin bəşəriyyətə qarşı törətdiyi təhdidlərdən bəhs edən komitə sədri bu problemlərin həllinin əhəmiyyətini vurğulayıb, ölkələrimizin bu istiqamətdə birgə həyata keçirə biləcəyi layihələr barədə fikirlərini bölüşüb.

İstanbul Texniki Universitetinin rektoru İsmayıl Koyuncu qardaş Azərbaycanda olmaqdan məmnunluq duyduğunu dilə gətirib və Bakıda bir sıra mühüm görüşlər keçirdiyini bildirib. O, ətraf mühitin mühafizəsi, su qıtlığı, minatəmizləmə sahəsində və digər məsələlərlə bağlı Türkiyənin təcrübəsindən danışıb. Bildirib ki, ölkələrimizin elm sahəsində birgə fəaliyyəti dövrün tələbidir.

Deputatlar İltizam Yusifov və Fatma Yıldırım ölkələrimizin su qıtlığı məsələsinə toxunublar, Ermənistanın işğalından sonra torpaqlarımızın mina terrorundan əziyyət çəkdiyini diqqətə çatdırıblar. Həmçinin ekoloji problemlərin həlli və ətraf mühitin təhlükəsizliyi ilə bağlı fikirlərini bildiriblər.

Sonra söhbətdə tərəfləri maraqlandıran məsələlər barədə fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclisin deputatları Anar Məmmədov, Əliabbas Salahzadə və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

# Çində səfərdə olan YAP nümayəndə heyəti təqdimat mərasiminə qatılıb

Mayın 30-da Çin Xalq Respublikasının (ÇXR) Hubey əyalətinin Uhan şəhərində Çin Kommunist Partiyasının (ÇKP) Beynəlxalq əlaqələr şöbəsinin və ÇKP-nin Hubey Əyalət Komitəsinin birgə təşkilatçılığı ilə "Hubey əyalətində Si Cinpinin yeni dövrdə Çin xüsusiyyətli sosializm haqqında ideyalarının praktik nailiyyətləri" mövzusunda təqdimat mərasimi keçirilib.





Çin Xalq Respublikasında səfərdə olan Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti mərasimdə iştirak edib.

30 ölkədən 170-dən çox nümayəndənin qatıldığı təqdimat mərasimində ÇKP-nin Beynəlxalq əlaqələr şöbəsinin müdiri, nazir Liu Ciencao, Çin Kommunist Partiyası Hubey Əyalət Komitəsinin katibi, Hubey Əyalət Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Van Menhuyi və başqaları çıxış ediblər.

Çıxışlarda Çin Xalq Respublikasının inkişaf yolundan - qazandığı nailiyyətlərdən və qarşıda duran hədəflərdən ətraflı bəhs edilib. ÇXR-in Sədri, ÇKP-nin Baş katibi Si Cinpinin yeni dövrdə Çin xüsusiyyətli sosializm haqqında ideyalarının mahiyyəti və praktiki əhəmiyyəti barədə geniş məlumat verilib. Bununla yanaşı, tədbirdə Çin modernizasiyasının səciyyəvi xüsusiyyətlərindən danışılıb. Qeyd edilib ki, Çin modernləşməsi yeni inkişaf modelidir və xalqların xoşbəxt gələcəyinə hesablanıb. Modernləşmə sivil inkişaf yoludur, ona görə də müasir dövrdə beynəlxalq münasibətlər sistemində hegemonluq və diktə siyasəti qəbuledilməzdir.

Çıxışlarda həmçinin Hubey əyalətinin sosial-iqtisadi göstəricilərinə nəzər salınıb, yerli resurslardan və yeni texnologiyalardan istifadə etməklə, səmərəli investisiya siyasəti həyata keçirməklə davamlı inkişafın təmin edildiyi qeyd olunub. Bildirilib ki, Hubeyin sürətli yüksəlişi Si Cinpinin Çin səciyyəli sosializm ideyalarının nailiyyəti və real nəticəsidir.

Daha sonra Hubey əyalətində müxtəlif sahələrdə gerçəkləşdirilən layihələr barədə videotəqdimat nümayiş olunub.

Həmin gün konfrans iştirakçıları Elm və Texnologiya üzrə Huayonq Universitetində olublar. Yüksək texnologiyalar sərgisinə baxış keçirən ziyarətçilər sənayenin müxtəlif sahələrində tətbiq edilən innovasiyalar barədə məlumatlandırılıblar.

# Sosial sahə üzrə yeni proaktiv xidmətlər yaradılır

## Əmək və məşğulluq, sosial təminat, əlillik, reabilitasiya, övladlığagötürmə sahələrində görülən işlər və qarşıda duran vəzifələr müzakirə olunub



Sosial sahədə elektronlaşdırma proqramı çərçivəsində 2019-cu ilin əvvəlindən 51 proaktiv xidmət yaradılıb və hazırda həmin xidmətlərin sırasının daha da genişləndirilməsi işləri aparılır.

Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin kollegiya iclasında bildirilib. Əmək və əhalinin sosial müdafiəsi naziri, kollegiyanın sədri Sahil Babayev Prezident İlham Əliyevin tapşırıqları əsasında həyata keçirilən sosial islahatların vətəndaş rifahının və məmnunluğunun təminatı məqsədi daşıdığını bildirib.

Nazirliyin İctimaiyyətlə əlaqələndirmə şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, kollegiya iclasında son 5 ildə 4 sosial islahat paketi icra olunaraq əhalinin sosial müdafiəsinin gücləndirilməsi, əməkhaqqı, pensiya, müavinət, təqaüd və sosial yardımların artırılması istiqamətində mühüm irəliləyişlər əldə olunduğu qeyd olunub. Eyni zamanda sosial xidmətlərin rəqəmsal müstəvidə, müasir və şəffaf şəkildə təqdim edilməsi sosial islahatların əsas tərkib hissəsidir.

Yaradılan 51 proaktiv xidmət vasitəsilə 720 min təyinat vətəndaşların müraciətinə və sənəd təqdim etməsinə ehtiyac olmadan, elektron sistemlər üzərindən proaktiv qaydada həyata keçirilib. Hazırda bəzi sosial təminat növlərinin, habelə dəfn üçün müavinətin də proaktiv qaydada təyinatına imkan verəcək xidmətlər yaradılır.

Eləcə də pensiya kalkulyatorunun təkmilləşdirilməsi, himayədar ailə qayğı sisteminin tətbiqi ilə bağlı "Valideyn himayəsindən məhrum olmuş uşaqlar və övladlığagötürmə" altsisteminin funksional imkanlarının genişləndirilməsi işləri davam etdirilir.

Əmək qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində görülən işlər, Əmək Məcəlləsinə yeni dəyişikliklər layihəsinin hazırlandığı bildirilib. Son illər 1008 peşə və kvalifikasiya standartı hazırlandığı və sosial tərəfdaşlarla birgə daha 300 peşə və kvalifikasiya standartının hazırlanmaqda olduğu qeyd edilib.

Əlilliyi olan şəxslərə dövlət büdcəsi hesabına verilən reabilitasiya vasitələrinin növlərinin siyahısına 2020-ci ildə 23 yeni növ də əlavə edilərək siyahıda reabilitasiya vasitələri növlərinin sayı 57-yə çatdırılıb. Hazırda həmin siyahının növbəti dəfə genişləndirilməsi ilə bağlı layihə hazırlandığı bildirilib.

Habelə əlilliyin qiymətləndirilməsində ötən ilin iyulundan tətbiq olunan yeni meyarlardan bəhs olunub. Əlillik təyinatına əsas verən meyarların sayında 4 dəfədən çox artım edildiyi, həmin meyarlara yeni dəyişiklik layihəsinin, eləcə də övladlığagötürmə prosesinin təkmilləşdirilməsi məqsədilə müvafiq qanunvericiliyə də dəyişiklik layihələrinin hazırlandığı diqqətə çatdırılıb.

Əmək və məşğulluq, sosial təminat, əlillik, reabilitasiya, övladlığagötürmə sahələrində görülən işlər və qarşıda duran vəzifələr müzakirə olunub.

Sağlamlıq İmkanları Məhdud Uşaqlar üçün 1 və 2 saylı Sosial Xidmət müəssisələrinin nizamnamələrindəki müvafiq dəyişikliklər, "Əməyin Mühafizəsi Mərkəzi" publik hüquqi şəxsin Nizamnaməsi təsdiq edilib.

# YAP Sədrinin müavini ÇKP-nin Uhan Şəhər Komitəsinin katibi ilə görüşüb







Çin Xalq Respublikasında (ÇXR) səfərdə olan Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti mayın 31-də Çin Kommunist Partiyası (ÇKP) Uhan Şəhər Komitəsinin katibi Quo Yuançian ilə görüşüb.



YAP nümayəndə heyətini salamlayan Quo Yuançian Azərbaycan ilə Çin arasında əməkdaşlığın önəmini vurğulayaraq fəal siyasi dialoq şəraitində iqtisadi-ticari, mədəni-humanitar və digər sahələrdə əlaqələrin genişləndirilməsinin əhəmiyyətindən bəhs edib. Azərbaycanın Şərq ilə Qərbi qovuşduran müasir ölkə kimi öz inkişaf modeli ilə fərqləndiyini söyləyən katib Çinin ölkəmizlə münasibətlərin inkişafına böyük önəm verdiyini diqqətə çatdırıb.

Quo Yuançian Uhanın Azərbaycan şəhərləri ilə əməkdaşlığının təmin olunmasının, xüsusilə də mədəniyyət və turizm sahələrində səmərəli işbirliyinin formalaşdırılmasının önəmli olduğunu deyib. O, ÇKP ilə YAP arasında təmasların sıxlaşdırılmasının qarşılıqlı maraqlara əsaslandığını bildirib.

Qonaqpərvərliyə görə nümayəndə heyəti adından minnətdarlığını bildirən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycan ilə Çinin bir-birinin maraqlarına hörmət edən dost ölkələr olduğunu söyləyib. YAP Sədrinin müavini bildirib ki, iki ölkə arasında bir çox sahədə səmərəli əməkdaşlıq əlaqələri formalaşdırılıb. Tahir Budaqov Azərbaycan və Çinin iqtisadi əlaqələrində istifadə olunmamış böyük potensialin olduğunu bildirib. O, xüsusilə nəqliyyat-logistika sahəsində işbirliyinin dərinləşdirilməsi üçün geniş imkanların olduğunu vurğulayıb. Azərbaycanın Çinlə "Bir kəmər, bir yol" layihəsi çərçivəsində əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu qeyd edən YAP Mərkəzi Aparatının rəhbəri Prezident İlham Əliyevin təşəbbüsü olan Zəngəzur dəhlizi layihəsinin gerçəkləşməsi nəticəsində bir çox dövlətlərin mənafeyinə xidmət edən yeni qlobal işbirliyi platformasının formalaşacağını bildirib.

Azərbaycanın regionlarının dinamik inkişafa və geniş potensiala malik olduğunu qeyd edən YAP Sədrinin müavini ölkəmizin qardaşlaşmış şəhərlər təcrübəsinə malik olduğunu, mədəniyyət, turizm, ticarət sahələrində faydalı ve perspektivli layihələrin reallaşdırıldığını bildirib. Bu gün yüksələn xətt üzrə inkişaf edən Azərbaycan-Çin münasibətlərində partiyalararası əlaqələrin mühüm rol oynadığını diqqətə çatdıran Tahir Budaqov qarşılıqlı səfərlərin həm təcrübə mübadiləsi, həm də sistemli əməkdaşlıq üçün önəmli olduğunu vurğulayıb.

Daha sonra partiyalar arasında əməkdaşlığın perspektivləri müzakirə olunub, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Sonda qarşılıqlı olaraq hədiyyələr təqdim edilib.

Həmin gün nümayəndə heyətinin Uhan şəhəri ilə tanışlığı olub. Məlumat verilib ki, Hubey vilayətinin və Mərkəzi Çinin ən böyük şəhəri olan Uhan önəmli nəqliyyat-ticarət, iqtisadi, texnoloji, maliyyə, mədəni, elm və təhsil mərkəzlərindəndir. Bundan başqa, Donhu Milli Parkı ilə tanışlıq zamanı ziyarətçilərə ətraf mühitin qorunması istiqamətində yeni texnologiyalar tətbiq etməklə görülən işlər, həyata keçirilən layihələr barədə geniş məlumat verilib.

# İsrail Prezidenti İçərişəhərlə tanış olub





Azərbaycanda səfərdə olan İsrail Dövlətinin Prezidenti İsxak Hersoq və xanımı Mixal Hersoq mayın 31-də dünya mədəni irs abidələrindən sayılan İçərişəhərlə tanış olublar.



AZƏRTAC xəbər verir ki, qonaqlar gəzintiyə orta əsr Şərq memarlığının şah əsəri, dünya əhəmiyyətli tarixi-memarlıq abidəsi olan Şirvanşahlar Sarayı Kompleksi ilə tanışlıqdan başlayıblar.

Məlumat verilib ki, XV əsrin əvvəllərində inşa olunmuş tarixi abidənin tikililəri İçərişəhərin təpələrindən birinin ən hündür nöqtəsində yerləşir. Abidə Xəzər dənizindən və şəhərin ətrafındakı yüksəkliklərdən aydın görünür. Kompleks bu günədək öz tarixi-memarlıq üstünlüyünü saxlamaqdadır.

Qonaqlara UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmiş "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu, həmçinin burada aparılan təmir, abadlaşdırma və bərpa işləri barədə ətraflı məlumat verilib. Bildirilib ki, İçərişəhər ərazisində müxtəlif əsrlərə aid nadir tarixi memarlıq abidələri qorunub saxlanılır.

Bildirilib ki, İçərişəhərdə yerləşən dünya əhəmiyyətli abidələrin qorunub saxlanması və mövcud görkəmdə gələcək nəsillərə çatdırılması üçün Prezident İlham Əliyevin tapşırıqları əsasında 2009-2013-cü illərdə burada konservasiya işləri aparılıb.

İçərişəhərlə tanışlıq qonaqlarda xoş təəssürat yaradıb.

# İsrail Prezidentinin Azərbaycana rəsmi səfəri başa çatıb



İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun Azərbaycan Respublikasına rəsmi səfəri mayın 31-də başa çatıb.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. İsrail Prezidenti İsxak Hersoqu və xanımı Mixal Hersoqu Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər yola saldılar.

# Etibarlı dost, strateji tərəfdaş

## Azərbaycan-İsrail əməkdaşlığı yeni yüksəliş mərhələsinə qədəm qoyur

İsrail Prezidenti İsxak Hersoqun Azərbaycana səfəri çərçivəsində imzalanan sənədlər, verilən açıqlamalar iki ölkə arasında münasibətlərin yeni inkişaf mərhələsinə keçdiyini sübut edir.





Bu səfər Azərbaycan-İsrail tərəfdaşlığının gücləndirilməsi, dostluq əlaqələrinin dərinləşdirilməsi baxımından əhəmiyyətli oldu. Bu, həm də Azərbaycanın dünya ölkələri ilə qarşılıqlı etimada əsaslanan münasibətlərin qurulmasında maraqlı olduğunu göstərir.

Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik. Onların sözlərinə görə, İsrail Prezidentinin ölkəmizə səfəri münasibətlərimizin daha da inkişafına böyük töhfə verəcək.

### İsrail Prezidentinin səfəri ölkəmizin uğurlu xarici siyasət yürütməsindən xəbər verir

Milli Məclisin deputatı Arzu Nağıyev deyib ki, Azərbaycan-İsrail əlaqələrinin tarixi kökləri var. Azərbaycan müstəqillik qazandıqdan sonra İsraillə münasibətlərimiz daim yüksələn xətt üzrə inkişaf edib. Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlətlərin arasında məhz İsrail də olub. Ölkələrimiz arasında siyasi münasibətlər, eləcə də iqtisadi, mədəni və hərbi əlaqələr yüksək səviyyədədir.

Deputat bildirdi ki, bunun əsas səbəblərindən biri ölkəmizdə uzun illərdən bəri çoxsaylı yəhudilərin yaşamasıdır: "Tarixən iki xalq arasında qarşılıqlı əlaqələr, yardımlaşmalar olub. Yəni bizi təkcə siyasi məsələlər deyil, digər müqəddəs məsələlər də yaxınlaşdırıb. Bu mənada hər iki tərəfin tolerantlıqdan, multikultural dəyərlərdən qürurla danışmağa haqqı var. Prezident İlham Əliyev İsrail Prezidenti İsxak Hersoqla mətbuata bəyanatında Azərbaycandakı yəhudi icmasını ölkəmiz üçün böyük sərvət adlandırıb. Həmçinin qeyd edib ki, ölkəmizdən gedib İsraildə yaşayan yəhudilər ölkələrimiz arasında körpülərin qurulmasında mühüm rol oynayırlar".

Arzu Nağıyevin dediyinə görə, İsrail Prezidentinin Azərbaycana səfəri ölkəmizin uğurlu xarici siyasət yürütməsindən xəbər verir. Lakin iki ölkə arasında münasibətləri gözü götürməyən dövlətlər də var. Həmin dövlətlər Azərbaycanın İsraildə səfirlik açmasını istəmirdilər. Amma bu, absurd yanaşma idi.

"Unutmaq olmaz ki, Azərbaycan tam müstəqil xarici və daxili siyasət yürüdür. Ölkəmizin həm regional, həm də beynəlxalq səviyyədə apardığı siyasət uğurlu nəticələr verir. Burada dostluq və əməkdaşlıq ən önəmli məsələlərdən biridir", - deyə deputat bildirib.

### İki ölkə arasında münasibətlər yüksələn xətlə inkişaf edir

Milli Məclisin deputatı Azər Badamov deyir ki, İsrail Prezidenti İsxak Hersoqun Azərbaycana səfəri ölkələrimiz arasında strateji tərəfdaşlıq və dostluq əlaqələrinin möhkəmlənməsinə xidmət edir: "İsrail Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkələrdəndir. Ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Bu bünövrə Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir".

Deputat qeyd edib ki, yəhudilər uzun illərdir ölkəmizdə çox rahat şəkildə yaşayırlar. Azərbaycanda yaşayan yəhudilər ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə iştirak edib və vətənimiz yolunda canlarından keçiblər. Ölkəmizdəki yüksək tolerantlıq, bütün millətlərin və dini konfessiyaların dostluq şəraitində yaşaması dünyaya nümunədir. İsrail dövləti Azərbaycandakı tolerant mühiti çox yüksək dəyərləndirir.

Azər Badamovun sözlərinə görə, İsraillə Azərbaycan arasında energetika, kənd təsərrüfatı, kibertəhlükəsizlik, müdafiə sənayesi, turizm, diaspor fəaliyyəti və digər sahələrdə əməkdaşlıq gündən-günə genişlənir: "44 günlük Vətən müharibəsində İsraildən aldığımız müasir silahlar qələbənin qazanılmasında xüsusi rol oynadı. Xüsusi qeyd etmək lazımdır ki, Ermənistan İkinci Qarabağ müharibəsi zamanı İsrailə silah almaq üçün müraciət edəndə onlar Azərbaycanla müharibə aparan ölkəyə silah satmayacaqlarını bəyan etmişdilər. Bu, israilli qardaşlarımızın əsl dostluq jesti idi".

Deputat hesab edir ki, bu ilin martında İsraildə səfirliyimizin açılması və İsrail Prezidentinin Azərbaycana səfəri ölkələrimiz arasındakı münasibətlərin daha yüksək mərhələyə çatmasına töhfə verəcək.

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# ATƏT böhranla üzləşib

## Dünyanın ən böyük regional təşkilatı fəaliyyətini dayandıra bilər

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) fəaliyyətini dayandıra bilər. Bu xəbərdarlıqla Finlandiyanın xarici işlər naziri Pekka Haavisto çıxış edib. Onun dediyinə görə, ATƏT-in üzvləri 2024-cü il üçün sədr ölkə seçməsələr, qurumun dağılması baş verə bilər. Estoniya bu vəzifəyə namizədliyini 2021-ci ilin sonunda irəli sürüb, lakin Rusiya və Belarus buna mane olur.

ATƏT-in 57 iştirakçı dövləti hamı üçün məqbul olan ssenari üzərində razılığa gəlməsə, dünyanın ən böyük regional təşkilatı mövcud olduğu 30 ilə yaxın müddətdə özünün ən pis böhranı ilə üzləşəcək.

Həyəcanverici proqnozu Pekka Haavisto Finlandiyanın YLE telekanalına verdiyi müsahibədə səsləndirib. Vəziyyəti ciddi qiymətləndirən nazir bildirib ki, əgər 2024-cü ildə sədr olmasa və bu məsələdə konsensus əldə edilməsə, gələn il ATƏT-in bir təşkilat kimi dağılma ili olacaq.

Estoniyanın 2024-cü ildə ATƏT-ə sədrliyə namizədliyi ilə bağlı mübahisə təşkilatın fəaliyyətini dalana dirəyib. Xatırladaq ki, ATƏT-də 57 ölkə (postsovet məkanının bütün dövlətləri, Avropa ölkələri, habelə ABŞ və Kanada) var. Hər il onlardan biri təşkilatın sədri kimi çıxış edir, ölkələr özləri sədrliyə namizədliklərini irəli sürürlər. ATƏT-də bütün qərarlar konsensusla qəbul edildiyi üçün 56 ölkənin hamısı yekdilliklə sədr üçün səs verməlidir. Hazırda təşkilata Şimali Makedoniya sədrlik edir. Finlandiya 2025-ci ildə ATƏT-ə rəhbərlik etməlidir.

Lakin Pekka Haavisto Estoniyanın 2024-cü il üçün namizədliyi ilə bağlı kəskin fikir ayrılığına görə təşkilatın sadəcə olaraq 2025-ci ilə qədər dağılacağından narahatdır.

Estoniya ATƏT-in sədrliyinə namizədliyini 2021-ci ilin sonunda, yəni Ukrayna ətrafında Rusiya ilə təşkilata üzv olan Qərb ölkələri arasında münaqişənin kəskinləşməsindən əvvəl irəli sürüb. Lakin o zaman da ATƏT-ə üzv ölkələrin XİN rəhbərlərinin dekabr ayında Stokholmda keçirilən iclasında Rusiya Estoniyanın müraciətinə (Şimali Makedoniya və Finlandiyanın namizədliklərinə yaşıl işıq yandırılmaqla) qarşı çıxıb.

Moskva ilə Tallin arasında münasibətlərin son illərdə deqradasiyaya uğradığından bu, qismən gözlənilən idi, baxmayaraq ki, o vaxt çoxları hələ də kompromis tapılacağına ümid edirdilər. Amma Rusiya qoşunlarının Ukraynaya daxil olmasından sonra razılığa gəlmək şansı qalmadı: Estoniya parlamenti Moskvanı terrorçuluğun himayədarı elan etdi, hökumət isə Rusiyanın Tallindəki səfirliyinin işçilərinin sayını iki dəfə azaltmağı tələb etdi. Buna cavab olaraq Rusiya hakimiyyəti Estoniya səfirini ölkədən çıxardı və Estoniya ilə diplomatik münasibətlərin səviyyəsini aşağı saldığını bəyan etdi.




Gələn il ATƏT-ə kimin rəhbərlik edəcəyi ilə bağlı qərar mümkün qədər tez verilməlidir, çünki sədrlik edən ölkələr əvvəlcədən çoxlu hazırlıq işləri görürlər. Amma indiki vəziyyətdə Rusiyanın və Belarusun Estoniyanın namizədliyinə yaşıl işıq yandırması şansı sıfıra bərabərdir. Estoniyalılar isə ərizələrini geri götürmək istəmirlər.

Eyni zamanda Rusiya rəsmiləri son vaxtlar Moskvanın soyuq müharibə bitdikdən sonra "Vankuverdən Vladivostoka qədər" dövlətlərin birliyini simvolizə etmək məqsədi daşıyan təşkilatdan getdikcə daha çox məyus olduğuna işarə edən bəyanatlar verirlər. Belə ki, ötən həftə Rusiyanın xarici işlər naziri Sergey Lavrov ABŞ və onun NATO üzrə müttəfiqlərinin ATƏT-i "marginal struktur"a çevirdiyini bildirib: "Uzun illər Vaşinqton Rusiyaya qarşı qəbuledilməz təhdidlər yaratmağa xüsusi diqqət yetirməklə məqsədyönlü şəkildə Avropa təhlükəsizliyinin arxitekturasını məhv edib. ATƏT-i Avropanın təhlükəsizliyində vəziyyətə təsir etməyən marginal struktura çevirərək, ABŞ və onun Avropa müttəfiqləri uzun müddətdir ki, NATO-nun Şərqə doğru genişləndirilməsi istiqamətində açıq şəkildə təxribatçı kurs tutublar".

Bir həftə əvvəl Sergey Lavrov Belarusun xarici işlər naziri Sergey Aleyniklə görüşündən sonra keçirdiyi mətbuat konfransında da ATƏT-dəki vəziyyəti "acınacaqlı" adlandırmışdı. Rusiyalı nazir vurğulamışdı ki, NATO üzvlərinin mülayim davranmaq, hər şeyi hamıya diktə etmək ambisiyalarını cilovlamaq və hörmətli, bərabərhüquqlu dialoqa qayıtmaq istəməməsi səbəbindən təşkilat deqradasiyaya uğrayır. Bu dalana dirənmiş yoldur.

Qeyd edək ki, ATƏT-dəki 57 ölkədən 31-i NATO-nun üzvüdür.

ATƏT-in hazırkı sədri Şimali Makedoniya təşkilat daxilindəki ziddiyyətləri qismən aradan qaldırmağa çalışsa da, hələlik bu, o qədər də uğurlu olmayıb.

Skopye, ikinci il sədr olaraq qala bilməz: reqlament buna imkan vermir. Rusiya da bunu çətin ki, təsdiq etsin. Şimali Makedoniya NATO-dadır və Moskva da son aylarda ona qarşı iddialar toplayıb. Yalnız bir variant tam çöküşün qarşısını almağa imkan verə bilər - 2024-cü il üçün sədrliyə alternativ namizədin tapılması... Avstriyanın "Die Presse" qəzeti yazır ki, ATƏT-i xilas etmək üçün Şimali Atlantika Alyansının üzvü olmayan Avstriya bu rolu oynamağa hazırdır (baxmayaraq ki, o, ATƏT-ə bir müddət əvvəl - 2017-ci ildə rəhbərlik edib). Təşkilatın Vyanadakı baş qərargahında digər variantlar da, o cümlədən Qazaxıstanın namizədliyi müzakirə olunur. Moskva təbii ki, Qazaxıstana üstünlük verərdi, lakin çətin ki, bütün Qərb iştirakçıları Astananı dəstəkləsin. Bu baxımdan Avstriyanın şansları daha yüksəkdir.

Hazırda Cenevrədə GCSP analitik mərkəzinə rəhbərlik edən ATƏT-in keçmiş baş katibi Tomas Qreminger "Kommersant"a deyib ki, ATƏT-in bütün iştirakçı dövlətləri təşkilatın daha da dərin böhrana düşməsinin qarşısını almaq üçün kompromis əldə etməlidirlər. İndi söhbət ATƏT-in sağ qalmasından gedir.

Ekspertin dediyi kimi, kompromis belədir: "Ölkələr 2024-cü il üçün daha az mübahisəli Avstriya və ya Qazaxıstanın sədrliyinə razılaşırlar və Estoniyaya daha sonra, 2026-cı və ya 2027-ci ildə nisbətən az gərgin vaxtlarda şans verməyi təklif edirlər".

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# *Çunqvon ÇU:* "Bakıya - taekvondonun evinə qayıtmaq çox xoşdur"





Ulu Öndər Heydər Əliyevin 100 illiyinə və Dünya Taekvondo Federasiyasının 50 illiyinə təsadüf edən mötəbər yarış "Öz gücünü alovlandır" şüarı altında təşkil olunub. 26-cı dünya çempionatının açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak ediblər.



Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov Taekvondo üzrə 26-cı Dünya Çempionatını açıq elan etdikdən sonra Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyəti, Ümummilli Liderin, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın ölkəmizdə idmanın inkişafına diqqət və qayğısını əks etdirən film nümayiş olunub.

İyunun 4-dək davam edəcək dünya çempionatında 145 ölkədən 949 taekvondoçu 16 çəki dərəcəsində mübarizəyə qoşulub.

Çempionatda ölkəmizi Səyyad Dadaşov (54 kq), Qaşim Maqomedov (58 kq), Xanoğlan Kərimov (63 kq), Cavad Ağayev (68 kq), Eltac Qafarov (74 kq), Ələsgər Əliyev (80 kq), Taleh Süleymanov (87 kq), Həmidrza Bədriəliabadi (+87 kq), Minayə Əkbərova (46 kq), Patimat Abakarova (49 kq), Səmərrux Osmanova (53 kq), Fatimə Məcidova (62 kq) və Fəridə Əzizova (67 kq) təmsil edirlər.

Dünya çempionu olacaq idmançı aktivinə 140 reytinq xalı əlavə edəcək.

Çempionatda ümumilikdə 150-dən çox ölkədən 2000-ə yaxın qonaq iştirak edir. Bu münasibətlə çempionat çərçivəsində silsilə tədbirlər keçirilir.

Dünya Taekvondo Federasiyasının prezidenti Çunqvon Çu Bakıda olmaqdan və dünya çempionatının Azərbaycanda keçirilməsindən məmnunluğunu bildirib. Pandemiyadan sonra taekvondo yarışlarının keçirilməsinin önəmini xüsusi vurğulayan Çunqvon Çu deyib: "Bakıya - taekvondonun evinə qayıtmaq çox xoşdur. Bakını taekvondonun evi adlandırmaq ona görədir ki, uzun illər ərzində Azərbaycanda müxtəlif taekvondo tədbirləri təşkil olunub. Azərbaycan, həmçinin parataekvondonun yarandığı ölkədir. Sonralar parataekvondo daha da populyarlaşaraq Paralimpiya oyunlarının proqramına salınıb".

Azərbaycan Prezidenti İlham Əliyevin idmana göstərdiyi diqqət və qayğı nəticəsində taekvondonun ölkəmizdə geniş populyarlıq qazandığını vurğulayan Çunqvon Çu bildirib ki, bu diqqət nəticəsində illər ərzində Azərbaycan taekvondoçuları müxtəlif yarışlarda medallar qazanıblar. Prezident İlham Əliyevin Dünya Taekvondosunun 6-cı dan fəxri qara kəmər və sertifikatı ilə təltif olunduğunu xatırladan Çunqvon Çu Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da 8-ci dan fəxri qara kəmər və sertifikatı ilə təltif edilməsindən məmnunluğunu ifadə edib. O, Bakıda keçirilən 26-cı dünya çempionatının tarixdə uğurlu və mötəbər tədbir kimi qalacağına ümidvar olduğunu bildirib.

Xatırladaq ki, Bakının yarışa evsahibliyi etməsi barədə qərar ötən il qəbul olunub. Beynəlxalq Olimpiya Komitəsinin İsveçrənin Lozanna şəhərindəki inzibati binasında təşkil olunan və qurumun prezidenti Tomas Baxın qatıldığı yığıncaqda bu yarış üçün 3 ölkə namizədliyini versə də, Bolqarıstan son anda istəyini geri götürüb. Nəticədə dünya çempionatını qəbul etməyə Azərbaycan və Çin iddia edib. Beynəlxalq qurum ölkəmizin bir sıra nüfuzlu yarışlara, taekvondo üzrə isə Avropa çempionatına, Qran-pri, Olimpiadaya lisenziya xarakterli təsnifat turnirlərinə uğurla ev sahibliyi etməsini nəzərə alaraq, dünya çempionatının keçirilməsini də Azərbaycana həvalə edib. Beləliklə, taekvondo üzrə dünya çempionatı MDB məkanından Rusiyadan sonra ikinci dəfə Azərbaycanda təşkil olunub. Eyni zamanda Azərbaycan Avropa ölkələri arasında Almaniya, Danimarka, İspaniya, Yunanıstan, Rusiya və Böyük Britaniyadan sonra dünya çempionatına evsahibliyi edən yeddinci ölkədir.

Azərbaycan Taekvondo Federasiyasının prezidenti Kəmaləddin Heydərov taekvondoçularımızın mötəbər beynəlxalq yarışlarda uğurlu çıxışları, iradə və əzmkarlıqları ilə zirvələri fəth etdiklərini vurğulayıb. Məhz bunun nəticəsində taekvondo respublikamızda geniş populyarlıq qazanıb və gənclərimizdə idmanın bu növünə dərin maraq yaranıb.

K.Heydərov 100 illik yubileyinin geniş qeyd olunduğu Ulu Öndər Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə idmana daim yüksək diqqət və qayğı göstərdiyini xatırladıb. Bu siyasəti uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində ölkəmizdə 50-yə yaxın Olimpiya İdman Kompleksi inşa olunub. Hazırda Azərbaycan beynəlxalq idman aləmində nüfuzlu idman ölkəsi kimi tanınır. Azərbaycanda iriмiqyaslı yarışların təşkilinin artıq ənənəyə çevrildiyini, ölkəmizin dünya, Avropa çempionatlarına, I Avropa və IV İslam Həmrəyliyi oyunlarına uğurla evsahibliyi etdiyini vurğulayan federasiya prezidenti dünya çempionatının təşkilini və Dünya Taekvondosunun 50 illiyinin qeyd olunmasını Azərbaycana həvalə etdiyi üçün Dünya Taekvondo Federasiyasının rəhbərliyinə təşəkkürünü bildirib. O, həm iştirakçı ölkələrin, həm də idmançıların sayına görə rekord göstəricinin qeydə alındığı bu çempionatın Bakıda keçirilməsinin taekvondonun Azərbaycanda təbliği işinə böyük təkan verəcəyini deyib.

Azərbaycan Taekvondo Federasiyası (ATF) 1992-ci ildə yaradıldıqdan sonra taekvondoçularımız Dünya və Avropa çempionatlarında, Olimpiya oyunlarında bir çox nailiyyətlər əldə ediblər. İdmançılarımızın bu müddət ərzində əldə etdikləri uğurlar nəinki Azərbaycanda, hətta bütün dünyada heyranlıqla qarşılanır.

İdman uğurları ilə yanaşı, Azərbaycan Taekvondo Federasiyası özünün yüksək təşkilatçılıq qabiliyyəti ilə də seçilib. Belə ki, bir çox mötəbər turnirlərə evsahibliyi etmək Azərbaycana həvalə olunub. Buna bariz nümunə kimi 21-22 fevral 2004-cü il tarixlərdə Afina Olimpiya Oyunlarına Avropa lisenziya turnirini, 2003-cü ildə MDB ölkələrinin I Açıq çempionatı və 2005-ci ildə Gənclər arasında Avropa çempionatını da xatırlatmaq olar. ATF rəhbərliyinin taekvondoçulara yaratdığı şərait və dəstək idmançıların uğurlarında böyük rol oynayıb. Federasiyasının rəhbərliyi taekvondonun inkişafı üçün yalnız Bakıda deyil, regionlarda da səmərəli işlər görür. İndi demək olar ki, Azərbaycanın bütün bölgələrində idmanın bu növü üzrə yüksəkixtisaslı məşqçi-müəllimlər fəaliyyət göstərirlər.

Olimpiya idman növü olan taekvondo Azərbaycanın bütün zonalarında inkişaf edir və hazırda minlərlə yeniyetmə və gənc bu döyüş-idman növü ilə məşğul olur ki, onların da 700 nəfərdən çoxu qara kəmər sahibidir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


## OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (**Tel.: (012) 539-59-33**) zəng vura bilərsiniz.*



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC gəmiləri üçün naviqasiya avadanlıqlarının satın alınması məqsədilə *açıq müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 05 iyun 2023-cü il saat 17:00-dəkdir.
**Ünvan: AZ1003, Bakı şəhəri, M.Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1016.**

***Tender komissiyası***



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC gəmiləri üçün radio avadanlıqlarının satın alınması məqsədilə *açıq müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 05 iyun 2023-cü il saat 17:00-dəkdir.
**Ünvan: AZ1003, Bakı şəhəri, M.Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1016.**

***Tender komissiyası***



## Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzi publik hüquqi şəxs *açıq tender elan edir*

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzi publik hüquqi şəxs tərəfindən qapalı (otaqda) və açıq (çöldə) məkanlarda istifadə üçün mexaniki və sanitar-təchizatlı təkərli oturacaqların satın alınması ilə əlaqədar tenderə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

**İştirak haqqı: 1500 manat**

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:
**Hesab: AZ10AIIB380400C9444812858107**
**VÖEN: 9900003611**
**Bank: Kapital Bank ASC Xətai filialı**
**Kodu: 200071**
**VÖEN: 1000341661**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T: AIIBAZ2X**

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun (bundan sonra-Qanun) 29.4-cü maddəsinə əsasən tenderdə iştirak haqqı heç bir halda geri qaytarılmır.

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *tenderdə iştirak etmək üçün ərizə;*
- *iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri* ***(sənədin əsli təqdim edilməlidir və ya surəti olduğu təqdirdə notarial qaydada təsdiq edilməlidir);***
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə müvafiq vergi orqanından alınmış arayış* ***(sənədin əsli təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir. Arayışın tarixi elan verilən ayı və sonrakı dövrü əhatə etməlidir);***
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (müvafiq təsdiqedici sənədlər təqdim edilməlidir);*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması* ***(uçotda olduğu vergi orqanından alınmalıdır, əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir, arayışın tarixi elan verilən dövrü əhatə etməlidir);***
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması (yüklülük barədə arayış* ***(uçotda olduğu vergi orqanından alınmalıdır, əgər sənəd elektron formada alınıbsa notarial təsdiq edilməsi mütləqdir, arayışın tarixi elan verilən dövrü əhatə etməlidir);***
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi (DİN və "ASAN xidmət" mərkəzlərindən məhkumluq barədə arayış* ***(sənədin əsli təqdim edilməlidir və ya surəti olduğu təqdirdə notarial qaydada təsdiq edilməlidir, arayışın tarixi elan verilən dövrü əhatə etməlidir);***
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti* ***(əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir, 2022-ci il üzrə);***
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı* ***(sənədin əsli təqdim edilməlidir, əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir, arayışın tarixi elan verilən dövrü əhatə etməlidir);***
- *tender təklifi* ***(təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);***
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı* ***(tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);***
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (notarial qaydada təsdiq olunmuş surətləri) tərtib olunmalıdır. Tender proseduru Azərbaycan Respublikasının qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **11.07.2023-cü il saat 15:00-a** qədər, tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **19.07.2023-cü il saat 15:00-a** qədər Bakı şəhəri, Əhmədli qəsəbəsi, Seyid Əzim Şirvani küçəsi 3 ünvanında yerləşən Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzinə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təkliflərinin açılışı **20.07.2023-cü il saat 15:00 -da** Bakı şəhəri, Əhmədli qəsəbəsi, Seyid Əzim Şirvani küçəsi 3 ünvanında yerləşən Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində tender komissiyasının iştirakı ilə aparılacaqdır.

İddiaçı və ya onun notarial qaydasında təsdiqlənmiş sənədlə müvəkkil etdiyi şəxs tender prosedurlarının açılışında iştirak edə bilər. Müvafiq orqanlardan tələb olunan sənədlərin alınması cari ayı əhatə etməsi mütləqdir.

***Tender komissiyası***



## "Bakıxanov Trikotaj" ASC-nin səhmdarlarının nəzərinə

"Səhmdar Cəmiyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq "Bakıxanov Trikotaj" ASC səhmdarlarını 12 iyun 2023-cü il saat 10:00-da növbəti yığıncağa dəvət edir. Yığıncaqda aşağıdakı məsələlərə baxılacaq:

1. 2022-ci il üzrə mühasibat balansı və hesabatların təsdiq edilməsi.
2. Cari məsələlər.

**Ünvan: Bakı şəhəri, Bakıxanov qəsəbəsi, Yavər Əliyev, 26.**
**Əlaqə telefonu: (012) 425-23-22**

***Rəhbərlik***


## ALLAH RƏHMƏT ELƏSİN!

Eldar Əzizov və Bakı Şəhər İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi Bakı Şəhəri Nizami Rayon İcra Hakimiyyətinin başçısı Coşqun Cəbrayılova əziz

**NAZİR MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollektivi iş yoldaşları Ülviyyə Nəzirovaya atası

**İSGƏNDƏR ƏMİROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Milli Aviasiya Akademiyasının (MAA) rəhbərliyi və akademiyanın kollektivi MAA-nın İqtisadiyyat və Hüquq fakültəsinin tələbəsi

**NİCAT RAMİZ OĞLU SÜLEYMANOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj **5772**
Sifariş **1377**

Qiyməti 40 qəpik